QARABAĞ AZƏRBAYCANDIR!

RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 243 (9122) ŞƏNBƏ, 5 noyabr 2022-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az





# 44 günə fəth olunan ZƏFƏR ZİRVƏSİ

Döyüş əməliyyatlarının aparıldığı bütün müddət ərzində cəmiyyətimizin nümayiş etdirdiyi möhtəşəm səfərbərlik və vətənpərvərlik ruhu xalqımızın Ali Baş Komandanın ətrafında sıx birləşməsinin bariz ifadəsi olmaqla yanaşı, eyni zamanda Azərbaycanın bütün dünyaya ciddi mesajı kimi qəbul edildi. Dövlət başçısının çağırışına səs verən on minlərlə vətənpərvər gəncin Vətən torpaqları uğrunda döyüşmək üçün könüllü cəbhəyə yollanması, müharibədə əsgər və zabitlərimizin göstərdiyi şücaətlər xalqımızın qəhrəmanlıq nümunələri hesab olunur. Bu gün hamılıqla etiraf edilir ki, 44 günlük müharibədə xalqın və ordunun Ali Baş Komandana dərin inamı Vətən müharibəsinin tarixi qələbə ilə başa çatmasında mühüm rol oynamışdır. Şəhər və kəndlərimizin düşməndən azad edilməsi barədə məlumatların mütəmadi olaraq cənab Prezident tərəfindən əhaliyə çatdırılması ordumuzu və xalqımızı daha böyük uğurlara səsləmişdir.

44 günlük Vətən müharibəsində şanlı Qələbənin qazanılmasında digər aidiyyəti güc strukturları ilə yanaşı, Dövlət Təhlükəsizliyi Xidmətinin fədakar əməkdaşlarının da danılmaz payı vardır. Haqq savaşımızın başlandığı ilk gündən etibarən xidmətin şəxsi heyəti düşmənlə mübarizə işinə səfərbər olunmuş, əsgər və zabitlərimizin müəyyən marşrutlar üzrə hərəkətinin təhlükəsizliyini, silahlı qüvvələrimizi qabaqlayıcı əməliyyat və əks-kəşfiyyat məlumatları ilə təmin etmək vəzifəsini uğurla icra etmişdir. Böyük iftixarla qeyd edirik ki, bu gün Dövlət Təhlükəsizliyi Xidmətinin sıralarında 6 Vətən Müharibəsi Qəhrəmanı xidmət edir. Şəxsi heyətin müharibə zamanı ön və arxa cəbhədə göstərdiyi fədakarlığa verilən yüksək qiymət Dövlət Təhlükəsizliyi Xidmətinin 7 əməkdaşının "Zəfər", 11 əməkdaşının "Qarabağ" ordeninə, xeyli sayda əməkdaşın başqa orden və medallara layiq görülməsində öz məntiqi ifadəsini tapır.

→ 5

## Azərbaycan Türkiyə iqtisadiyyatına 20 milyard dollardan artıq investisiya yatırıb



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 4-də Türkiyə Respublikasının Vitse-prezidenti Fuat Oktayı qəbul edib.

AZƏRTAC xəbər verir ki, Vitse-prezident Fuat Oktay Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın salamlarını Prezident İlham Əliyevə çatdırdı.

Dövlətimizin başçısı salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Türkiyə Prezidentinə çatdırmağı xahiş etdi.

Söhbət zamanı Şuşa Bəyannaməsinin önəmi vurğulandı. Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın ölkəmizə sonuncu səfəri və həmin səfər çərçivəsində Zəngilan və Cəbrayıl şəhərlərində mühüm obyektlərin açılışlarında iştirakı məmnunluqla qeyd edildi. Rəcəb Tayyib Ərdoğan ilə iki gün əvvəl telefon danışığını xatırladan dövlətimizin başçısı Türkiyənin elektromobil istehsalına başlamasını qardaş ölkə sənayesinin növbəti uğuru kimi dəyərləndirdi.

Görüşdə nəqliyyat əlaqələrinin inkişafı baxımından Zəngəzur dəhlizinin əhəmiyyəti qeyd olundu. Azərbaycanın Türkiyə iqtisadiyyatına 20 milyard dollardan artıq investisiya yatırmasının önəmi xüsusi olaraq vurğulandı, ticarət dövriyyəsinin artdığı, energetika sahəsində uğurlu əməkdaşlığın həyata keçirildiyi bildirildi. Qaz ixracı məsələsinə toxunularaq "Cənub qaz dəhlizi"nin əhəmiyyəti qeyd edildi, bu dəhlizin ixrac imkanlarının genişləndirilməsinin önəmi vurğulandı.

Görüşdə eyni zamanda nəqliyyat və ticarət sahələrində əməkdaşlığın perspektivləri ilə bağlı fikir mübadiləsi aparıldı.

Prezident İlham Əliyev Türkiyənin Vitse-prezidentinin Şuşaya planlaşdırılan səfərini alqışladığını bildirdi.

## Azərbaycan zeytun məhsullarını istehsal və ixrac edəcək

### Prezident İlham Əliyev zeytun yağı və süfrəlik zeytun məhsullarının emalı zavodunun açılışında iştirak edib

Noyabrın 4-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Bakının Xəzər rayonunun Zirə qəsəbəsində "Abşeron Zeytun Bağları" Məhdud Məsuliyyətli Cəmiyyətinin (MMC) regionda ən böyük zeytun yağı və süfrəlik zeytun məhsullarının emalı zavodunun açılışında iştirak edib.

→ 2



◆ YAP – 30

## Yeni Azərbaycan üçün yaranan partiya

Heydər Əliyev "əgər hansı ölkənin xalqı öz hüquqlarını anlayır və onları qoruya bilirsə, o zaman ən kiçik dövlət belə ən böyük məmləkət olur" fikrini irəli sürərək, Azərbaycanın ağır problemlərinin həlli üçün beş əsas vəzifə irəli sürür. Cavabın sonunda Ulu Öndər Yeni Azərbaycan Partiyasının yaradılmasının obyekiv zərurətdən doğduğunu vurğulayır və onun fəaliyyətində iştirak etməyə hazır olduğunu bəyan edir.

→ 9

## Yüksək diqqət, böyük qayğı

Azərbaycan xalqı hər zaman qəhrəman şəhidlərimizin ruhunu əziz, igid qazilərimizin şücaətini uca tutur. Bu kateqoriyadan olan vətəndaşlarımıza dövlətimiz tərəfindən də böyük qayğı və həssaslıqla yanaşılaraq, onların sosial rifahlarının yüksəldilməsi istiqamətində mühüm işlər görülür. Şəhid ailələrinin, qazilərin hərtərəfli qayğı ilə əhatə olunması, onların bütün sosial ehtiyaclarının ödənilməsi birbaşa Prezident İlham Əliyevin diqqətində olan və gündəliyindəki əsas məsələdir.

→ 12

## Zəfər Forumunun bağlanış mərasimi olub

Noyabrın 4-də Zəfər Günü münasibətilə oktyabrın 7-dən başlanan və Azərbaycanın bütün rayonlarını əhatə edən Zəfər Forumunun bağlanış mərasimi keçirilib. AZƏRTAC xəbər verir ki, tədbirdə Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Qeyri-hökumət təşkilatları ilə iş və kommunikasiya şöbəsinin sektor müdiri Vüsal Quliyev, Qeyri-hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin icraçı direktoru Aygün Əliyeva, Prezident Administrasiyasının məsul əməkdaşları, Müdafiə Nazirliyi və yerli icra hakimiyyəti orqanlarının rəsmiləri, şəhid ailələrinin üzvləri, müharibə iştirakçıları, Azərbaycan Ordusunun hərbi qulluqçuları, qeyri-hökumət təşkilatlarının, eləcə də ictimaiyyətin nümayəndələri iştirak ediblər.

→ 14

## Heydər Əliyev Fondu tərəfindən 118 yaşlı məktəb üçün yeni bina inşa olunub

Yüzdən çox yaşı olan məktəb binası istifadəyə yararsız vəziyyətdə olduğundan Heydər Əliyev Fondu "Yeniləşən Azərbaycana yeni məktəb" layihəsi çərçivəsində 360 şagird yerlik yeni bina inşa edib.

→ 14

# Azərbaycan zeytun məhsullarını istehsal və ixrac edəcək

## Prezident İlham Əliyev zeytun yağı və süfrəlik zeytun məhsullarının emalı zavodunun açılışında iştirak edib











*Əvvəli 1-ci səh.*

AZƏRTAC xəbər verir ki, Prezident İlham Əliyev əvvəlcə zeytunçuluq kompleksinin yaradılması ilə bağlı görülən işlər barədə videoçarxı izlədi.

"Abşeron Zeytun Bağları" MMC-nin nümayəndəsi Rəmzi Şükürov dövlət başçısına müəssisənin fəaliyyəti barədə məlumat verdi.

Bildirildi ki, "Abşeron Zeytun Bağları" Məhdud Məsuliyyətli Cəmiyyətinin zeytunçuluq kompleksi ölkəmizdə qeyri-neft sektoru və kənd təsərrüfatının inkişaf konsepsiyasının uğurla reallaşdırılmasının nəticəsidir. Layihə Azərbaycan, İspaniya, İsrail, İtaliya, Portuqaliya və Türkiyədən olan mütəxəssislərin birgə əməkdaşlığı ilə həyata keçirilib.

Sonra dövlət başçısı ərazidə zeytun ağacı əkdi.

Prezident İlham Əliyev avtobusla kompleksin ərazisini gəzdi.

"Abşeron Zeytun Bağları" MMC-nin məsləhətçisi Murat Küçükçakır Prezident İlham Əliyevə ərazidə salınmış zeytun bağları barədə məlumat verdi.

Qeyd edildi ki, layihənin həyata keçirilməsi üçün ilkin mərhələdə inzibati cəhətdən Zirə qəsəbəsinə aid olan Qoşaqışlaq kəndi ərazisində əkinçiliyə yararsız, sərt qayalıqlı 787 hektar torpaq sahəsinin təmizlənməsi işləri aparılıb. Həmin ərazinin 697 hektarında İspaniya, Portuqaliya, Türkiyə və Yunanıstandan idxal edilmiş "Arbequina", "Arbosana", "İmperial", "Gemlik", "Manzanillo", "Blanqueta", "Koroneiki" və digər sortlardan ibarət zeytun bağları salınıb.




Kompleks ümumilikdə üç min hektar ərazini əhatə edir. Abadlıq işlərinin aparılması, geniş sahədə bağın salınması nəticəsində bir vaxtlar yararsız vəziyyətdə olan torpaq canlanmış, ərazinin iqlim və florası bərpa edilmişdir. Bazarın tələbatına uyğun olaraq ərazidə yağlıq, süfrəlik və qarışıq zeytun növlərində tinglər əkilib. Növbəti illərdə əkin işlərinin davam etdirilməsi və Gürgən qəsəbəsinin ərazisində 1162 hektar zeytun bağlarının salınması nəzərdə tutulur.

**Prezident İlham ƏLİYEV:** Keçən il məhsul yığmışdınız?

"Abşeron Zeytun Bağları" MMC-nin məsləhətçisi **Murat KÜÇÜKÇAKIR:** Bəli, keçən il də yığmışıq. Bu il gözləniləndən çox məhsul var. Bütün dünyada quraqlıq və müxtəlif səbəblərdən məhsuldarlıq az olarkən biz bu il, İnşallah, hədəfimizi üstələyəcəyik. Çox gözəl bir il yaşayırıq. Hələ dördüncü ilimizdəyik.

**Prezident İlham ƏLİYEV:** Bir hektardan nə qədər məhsul yığırsınız?

**Murat KÜÇÜKÇAKIR:** Hədəfimiz bir hektardan on ton məhsul almaqdır. Bu il 2500-3000 kiloqram ətrafında olacaq. Dördüncü ildə bu rəqəmə çatmaq, həqiqətən, gözəl nailiyyətdir. Burada gözəl bir komandamız var. Birlikdə gözəl işlər, gözəl əməkdaşlıq şəraitində çalışırıq. Mən bu komanda ilə birlikdə bu gözəl işi görməkdən çox məmnunam.

**Prezident İlham ƏLİYEV:** Çox gözəl. Bu, daxili tələbatı nə qədər ödəyəcək?

**Rəmzi ŞÜKÜROV:** Cənab Prezident, biz il ərzində 4 min ton yağ istehsalını planlaşdırırıq. Bunun təqribən 2 min tona yaxını daxili bazar üçündür. Təbii ki, biz daxili bazarı zeytun yağı istehlakına alışdırmalıyıq. Çünki bu, çox vacibdir. Biz iki min ton məhsulu isə ixrac etməyi planlaşdırırıq.

**Prezident İlham ƏLİYEV:** Boş torpaqlarda belə gözəl kompleks yaratmışıq. Burada tarixboyu heç nə bitmirdi, heç nə əkilmirdi. Amma biz hər yerdə xariqələr yaradırıq.

**Rəmzi ŞÜKÜROV:** Cənab Prezident, artıq burada təbiət formalaşıb.

**Prezident İlham ƏLİYEV:** Əlbəttə, iqlimə də müsbət təsiri olacaq, təbiətə də, insanların sağlamlığına da.

Məlumat verildi ki, 2019-cu ildə Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyeva burada olub və zeytun bağlarının salındığı ərazidə ilk zeytun ağacını əkib.

Qeyd olundu ki, bağların suvarılması məqsədilə İsrailin "Netafim" şirkəti ilə əməkdaşlıq çərçivəsində tam avtomatlaşdırılmış suvarma sistemləri qurulub.

Sonra Prezident İlham Əliyevə zavodda görülmüş işlər barədə də məlumat verildi.

Bildirildi ki, İtaliyanın "Pieralisi" şirkəti ilə əməkdaşlıq çərçivəsində ildə 4 min ton zeytun yağı istehsal etmək gücünə malik zavod qurulub. Müəssisədə beş istehsal xətti yaradılıb. Zavodda soyuq sıxım "Extra Virgin" zeytun yağı istehsal olunur.

Daha sonra Prezident İlham Əliyev müəssisədə istehsal olunan zeytun yağlarının nümunələri ilə tanış oldu.

Diqqətə çatdırıldı ki, müəssisədə istehsal olunan məhsullardan nümunələr Azərbaycan Qida Təhlükəsizliyi İnstitutunun laboratoriyalarında analiz olunub və məhsulların mövcud tələblərə uyğunluğu təsdiq edilib.

Dövlət başçısı zavodu işə saldı, istehsal prosesi və laboratoriyaların işi ilə tanış oldu.

Azərbaycan Prezidentinə kompleksdə istifadə olunan "New Holland" texnikası barədə məlumat verildi. Bildirildi ki, dünyanın qabaqcıl texnologiyası olan "New Holland" kombaynı ilə zeytun toplama Azərbaycanda ilk dəfə məhz "Abşeron Zeytun Bağları" MMC-də həyata keçirilir.

Prezident İlham Əliyev müəssisənin süfrəlik zeytun emalı sahəsi ilə də tanış oldu.

Məlumat verildi ki, ərazidə Türkiyənin "Tutkun Makina" şirkəti ilə əməkdaşlıq çərçivəsində illik min ton xam zeytun qəbul etmə imkanı olan süfrəlik zeytun emalı sahəsi qurulub. Gələcəkdə fermentasiya çənlərinin sayını artırmaqla istehsal sahəsində məhsul buraxılışını illik 2 min tona çatdırmaq nəzərdə tutulur. Müəssisədə yaşıl, qara, çəyirdəkli və çəyirdəksiz, dilimlənmiş, içlikli, əzilmiş və s. növ süfrəlik zeytun məhsullarının istehsalı üçün imkanlar mövcuddur.

Prezident İlham Əliyev İtaliyanın "Pieralisi" şirkətinin nümayəndələri ilə görüşdü.

İtaliyadan olan mütəxəssislər dövlətimizin başçısı ilə görüşməkdən məmnunluqlarını ifadə etdilər.

Müəssisədə yaradılan şəraitdən razılığını bildirən **Prezident İlham ƏLİYEV** bu sahənin perspektivlərindən danışaraq dedi: Azərbaycan eyni zamanda zeytun və zeytun yağı istehsal edən, ixrac edən ölkələrin ailəsinə qoşulacaq.

**İtaliyalı mütəxəssis:** Siz bu ailəyə yüksəksəviyyəli zavodla daxil olacaqsınız, birmənalı şəkildə. Birbaşa əsas liqaya keçəcəksiniz.

**Prezident İlham ƏLİYEV:** Təşəkkür edirəm. Əlbəttə ki, bizim istehsalı genişləndirmək planlarımız var. Beləliklə, biz xüsusilə burada - Abşeron yarımadasında və Azərbaycanın bəzi digər ərazilərində istifadə olunmayan torpaqlardan zeytun istehsalı üçün maksimum istifadə etməyi planlaşdırırıq.

**İtaliyalı mütəxəssis:** Biz Sizə xidmət və dəstək göstərmək üçün buradayıq.

**Prezident İlham ƏLİYEV:** Ola bilsin ki, yaxın gələcəkdə bizə istehsalı genişləndirmək lazım olacaq. Düşünürəm ki, buna görə bizim sizin şirkətlə əməkdaşlığımız strateji əhəmiyyət daşıyacaq. Çünki burada - Abşeronda, həmçinin azad edilmiş ərazilərdə potensial var. Əlbəttə ki, bütün bunlar torpaq, iqlim, məhsuldarlıq nöqteyi-nəzərindən qiymətləndiriləcək. Amma bizim önəmli iştirakçı olmaq üçün ciddi planlarımız var. Həmçinin ölkə daxilində minlərlə iş yeri və yerli istehsalı yaratmaq planlarımız var.

Qeyd edək ki, "Abşeron Zeytun Bağları" MMC-də ümumilikdə 350-dək şəxs işlə təmin olunub. Məhsulların daxili bazarla yanaşı, "Made in Azerbaijan" brendi ilə xarici bazarlara da ixracı nəzərdə tutulur.

## "Azərbaycan Respublikası Hökuməti ilə Əlcəzair Xalq Demokratik Respublikası Hökuməti arasında diplomatik və xidməti pasportlara malik şəxslərin qarşılıqlı viza tələbindən azad edilməsi haqqında" Sazişin təsdiq edilməsi barədə

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 4-cü bəndini rəhbər tutaraq **qərara alır:**

"Azərbaycan Respublikası Hökuməti ilə Əlcəzair Xalq Demokratik Respublikası Hökuməti arasında diplomatik və xidməti pasportlara malik şəxslərin qarşılıqlı viza tələbindən azad edilməsi haqqında" 2022-ci il avqustun 10-da Bakı şəhərində imzalanmış Saziş təsdiq edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 21 oktyabr 2022-ci il*

## "Azərbaycan Respublikası Hökuməti ilə Serbiya Respublikası Hökuməti arasında sosial təminat haqqında" Sazişin təsdiq edilməsi barədə

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 4-cü bəndini rəhbər tutaraq **qərara alır:**

"Azərbaycan Respublikası Hökuməti ilə Serbiya Respublikası Hökuməti arasında sosial təminat haqqında" 2022-ci il aprelin 7-də Bakı və Belqrad şəhərlərində imzalanmış Saziş təsdiq edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 21 oktyabr 2022-ci il*

## "Beynəlxalq yük daşınması müqaviləsi (BYDM) haqqında" Konvensiyaya elektron əmtəə-nəqliyyat qaiməsi ilə bağlı" Əlavə Protokola qoşulmaq barədə

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 4-cü bəndini rəhbər tutaraq **qərara alır:**

Azərbaycan Respublikası 2008-ci il fevralın 20-də Cenevrə şəhərində imzalanmış "Beynəlxalq yük daşınması müqaviləsi (BYDM) haqqında" Konvensiyaya elektron əmtəə-nəqliyyat qaiməsi ilə bağlı" Əlavə Protokola Azərbaycan Respublikasının ona dair qeyd-şərti ilə qoşulsun.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 21 oktyabr 2022-ci il*

## Hacıqabul rayonunun Muğan-Birinci Paşalı-İkinci Paşalı-Şorbaçı-Birinci Udullu-Tağılı-İkinci Udullu-Qubalı avtomobil yolunun tikintisi ilə bağlı əlavə tədbirlər haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. On iki min nəfər əhalinin yaşadığı 8 yaşayış məntəqəsini birləşdirən Muğan-Birinci Paşalı-İkinci Paşalı-Şorbaçı-Birinci Udullu-Tağılı-İkinci Udullu-Qubalı avtomobil yolunun tikintisinin başa çatdırılması məqsədilə "Azərbaycan Respublikasının 2022-ci il dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü"nün 1.26.8-ci yarımbəndinə uyğun olaraq, Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə 12,0 (on iki) milyon manat ayrılsın.
2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.
3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 4 noyabr 2022-ci il*

## M.Ş.Bərxudarova "general-leytenant" ali hərbi rütbəsinin verilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 24-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

General-mayor Mayis Şükür oğlu Bərxudarova "general-leytenant" ali hərbi rütbəsi verilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 4 noyabr 2022-ci il*

## S.K.Bəkirova "vitse-admiral" ali hərbi rütbəsinin verilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 24-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Kontr-admiral Sübhan Kamal oğlu Bəkirova "vitse-admiral" ali hərbi rütbəsi verilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 4 noyabr 2022-ci il*

# Baş nazir Əli Əsədov Türkiyənin Vitse-prezidenti Fuat Oktayla görüşüb

Noyabrın 4-də Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov ilə ölkəmizdə rəsmi səfərdə olan Türkiyə Respublikasının Vitse-prezidenti Fuat Oktay arasında təkbətək görüş olub.

Nazirlər Kabinetinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, görüş zamanı iki ölkə arasında qardaşlıq və müttəfiqlik əlaqələrinin bütün sahələrdə uğurla inkişaf etdiyi məmnunluqla qeyd olunub.

Bakı şəhərində keçiriləcək Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında iqtisadi əməkdaşlıq üzrə birgə Hökumətlərarası Komissiyanın 10-cu iclasının və birgə biznes-forumun əhəmiyyəti vurğulanıb.

F.Oktayın rəsmi səfərinin Azərbaycan-Türkiyə münasibətlərinin daha da genişlənməsinə töhfə verəcəyinə əminlik ifadə edilib.

Görüşdə Azərbaycan-Türkiyə qarşılıqlı faydalı əməkdaşlığının müxtəlif istiqamətlərdə perspektivləri müzakirə olunub.





# Azərbaycan və Türkiyə arasında iqtisadi əməkdaşlıq üzrə birgə Hökumətlərarası Komissiyanın iclası olub





Noyabrın 4-də Bakı şəhərində Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında iqtisadi əməkdaşlıq üzrə birgə Hökumətlərarası Komissiyanın 10-cu iclası keçirilib.

Nazirlər Kabinetinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, Azərbaycanın Baş naziri Əli Əsədovun və Türkiyənin Vitse-prezidenti Fuat Oktayın həmsədrliyi ilə keçirilən iclasda hər iki ölkənin müvafiq dövlət qurumlarının rəhbərliyi iştirak edib.

İclası giriş sözü ilə açan Baş nazir Ə.Əsədov cari ildə diplomatik əlaqələrin qurulmasının 30-cu ildönümünü qeyd edən Azərbaycan ilə Türkiyə arasında münasibətlərin bu gün strateji tərəfdaşlığın və müttəfiqliyin ən yüksək zirvəsinə çatdığını bildirib, dövlət başçılarımızın şəxsi dostluq və qardaşlığını, onların yüksək qarşılıqlı etibara, inama və hörmətə əsaslanan şəxsi münasibətlərini bunu şərtləndirən ən əsas amil kimi dəyərləndirib.

44 günlük Vətən müharibəsi zamanı Azərbaycana göstərilən siyasi-mənəvi dəstəyə görə Türkiyənin rəhbərliyinə və bütün qardaş türk xalqına dərin təşəkkür ifadə olunub.

Qeyd edilib ki, Şuşa Bəyannaməsinin imzalanması Azərbaycan-Türkiyə münasibətlərini daha da möhkəmləndirərək, onları müttəfiqlik səviyyəsinə qaldırıb, iki ölkə arasında dostluq və qardaşlığın nümunəvi xarakterini bütün dünyaya nümayiş etdirib.

Vurğulanıb ki, son illər ərzində Azərbaycan-Türkiyə əlaqələri prezidentlər İlham Əliyev və Rəcəb Tayyib Ərdoğanın qətiyyətli səyləri nəticəsində ikitərəfli formatdan çıxaraq artıq regional faktora çevrilib. İki ölkənin müxtəlif sahələrdə, xüsusilə iqtisadiyyat, ticarət, sərmayə qoyuluşu, nəqliyyat-tranzit, enerji, sənaye, kənd təsərrüfatı və digər istiqamətlərdə uğurlu əməkdaşlığı təqdir edilib.

Cari ilin yanvar-sentyabr aylarında qarşılıqlı ticarətin 34 faiz artaraq 4,35 milyard ABŞ dollarına çatdığı bildirilib, postpandemiya dövründə iqtisadi-ticari əməkdaşlığın əhatə dairəsinin daha da genişləndirilməsi üçün yaxşı imkanların olduğu diqqətə çatdırılıb. Bu baxımdan Azərbaycan-Türkiyə Strateji Əməkdaşlıq Şurası və Hökumətlərarası Komissiyanın iclaslarında qəbul edilən qərarların, əldə edilən razılıqların əhəmiyyəti vurğulanıb.

Preferensial ticarət sazişinin əhatə dairəsinin genişləndirilməsinin, həmçinin iki ölkə arasında imzalanan fəaliyyət planlarının icrasının ticarət dövriyyəsinin daha da artmasına təkan verəcəyinə əminlik ifadə olunub.

Azərbaycan və Türkiyənin birlikdə reallaşdırdıqları nəhəng layihələrlə Avropanın enerji təhlükəsizliyinin təmin olunmasında mühüm rol oynadıqları xüsusi vurğulanıb.

Nəqliyyat sahəsində əməkdaşlığın inkişafı yüksək qiymətləndirilərək cari ilin 9 ayında iki ölkə arasında ümumi daşınmış yüklərin həcminin 60,2 faiz artdığı, o cümlədən tranzit yüklərin həcminin 96,3 faiz çox olduğu bildirilib. Azərbaycanın əsas hissəsi ilə Türkiyə arasında Naxçıvan vasitəsilə birbaşa dəmir yolu əlaqəsinin təmin edilməsi baxımından Qars-İğdır-Aralık-Dilucu-Sədərək-Naxçıvan-Culfa dəmir yolu layihəsinin reallaşdırılmasının mühüm əhəmiyyət kəsb etdiyi diqqətə çatdırılıb. Zəngəzur dəhlizinin açılması və Naxçıvana dəmir yolunun çəkilməsi nəticəsində Azərbaycan-Türkiyə iqtisadi-ticari əlaqələrinin genişlənəcəyinə əminlik ifadə olunub.

Birgə sənaye-investisiya layihələrinin əhəmiyyəti qeyd edilərək müxtəlif sahələrdə müştərək istehsal müəssisələrinin yaradılması üçün perspektivlərin mövcud olduğu diqqətə çatdırılıb.

Eyni zamanda yeni yaranmış reallıqlar fonunda nəqliyyat kommunikasiyalarının açılmasının əməkdaşlıq üçün yaxşı imkanlar vəd etdiyi qeyd edilib, Zəngəzur dəhlizinin açılmasının regional əməkdaşlığı daha da gücləndirəcəyinə, bölgə ölkələrinin iqtisadi tərəqqisinə xidmət edəcəyinə əminlik ifadə olunub.

Azərbaycan-Türkiyə birliyinin bu gün bərpa edilən Qarabağda və Şərqi Zəngəzurda yenə də özünü göstərdiyi diqqətə çatdırılıb. Bildirilib ki, işğaldan azad edilmiş ərazilərdə aparılan irimiqyaslı tikinti işləri, mühüm infrastruktur layihələri türk şirkətlərinin iştirakı ilə həyata keçirilir.

Oktyabrın 20-də dövlət başçılarının birlikdə Zəngilanda "Dost Aqropark" ağıllı kənd təsərrüfatı kompleksinin açılış mərasimində iştirak etməsi, Cəbrayıl rayonu ərazisində yaradılacaq "Azərbaycan-Türkiyə Beynəlxalq Meşə Təlim Mərkəzi"nin, "Ağıllı Tingçilik" və "Dostluq Meşəsi" Kompleksinin təməlini qoyması iki ölkə arasında qardaşlığın növbəti bariz ifadəsi kimi dəyərləndirilib.

Türkiyənin Vitse-prezidenti F.Oktay Azərbaycan ilə Türkiyə arasında dostluq, qardaşlıq və müttəfiqlik əlaqələrinin bütün sahələrdə uğurla inkişaf etdiyini məmnunluqla vurğulayıb. Dövlət başçıları arasında mütəmadi görüşlərin bu əlaqələrin genişləndirilməsi işinə xüsusi töhfə verdiyi qeyd olunub.

Azərbaycan-Türkiyə tərəfdaşlığının son illərdə daha da möhkəmləndiyini bildirən F.Oktay iki ölkənin həyata keçirdiyi birgə irimiqyaslı layihələrin, xüsusilə nəqliyyat və enerji sahələrindəki təşəbbüslərinin bölgə üçün böyük önəm daşıdığını qeyd edib.

İclasda Azərbaycanla Türkiyə arasında qarşılıqlı faydalı əməkdaşlığın bütün istiqamətlərdə, o cümlədən siyasi, iqtisadi, ticari, nəqliyyat, enerji, kənd təsərrüfatı, səhiyyə, turizm, mədəniyyət və digər sahələrdə daha da genişləndirilməsi perspektivləri geniş müzakirə olunub, gündəlikdə duran məsələlərə dair məruzələr dinlənilib.

Sonda Azərbaycanın Baş naziri Əli Əsədov və Türkiyənin Vitse-prezidenti Fuat Oktay Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında iqtisadi əməkdaşlıq üzrə birgə Hökumətlərarası Komissiyanın 10-cu iclasının protokolunu və əməkdaşlığın bir sıra sahələrini əhatə edən fəaliyyət planlarını imzalayıblar.

Hər iki ölkənin aidiyyəti qurumlarının rəhbərləri "Azərbaycan Respublikası Hökuməti və Türkiyə Respublikası Hökuməti arasında toxumçuluq sahəsində əməkdaşlıq haqqında Saziş"i, "Azərbaycan Respublikası Hökuməti və Türkiyə Respublikası Hökuməti arasında bitkilərin mühafizəsi və karantini sahəsində əməkdaşlıq haqqında Saziş"i, "Azərbaycan Respublikası Qida Təhlükəsizliyi Agentliyi və Türkiyə Respublikası Halal Akkreditasiya Agentliyi arasında Əməkdaşlıq Protokolu"nu, "Azərbaycan Respublikası Kiçik və Orta Müəssisələrin İnkişafı Agentliyi və Türkiyə Respublikası Kiçik və Orta Müəssisələrin İnkişafı Təşkilatı arasında Mikro, Kiçik və Orta Müəssisələrin Maliyyə resurslarına çıxışının genişləndirilməsinə dair Niyyət Protokolu"nu və "Azərbaycan İxracın və İnvestisiyaların Təşviqi Agentliyi və Türkiyə İxracatçılar Məclisi arasında ikitərəfli əməkdaşlıq Anlaşması"nı imzalayıblar.

# Azərbaycan-Türkiyə biznes-forumu

Noyabrın 4-də Türkiyə Respublikasının Vitse-prezidenti Fuat Oktayın Azərbaycana səfəri çərçivəsində Heydər Əliyev Mərkəzində Azərbaycanın İqtisadiyyat və Türkiyənin Ticarət nazirliklərinin dəstəyi, Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondunun (AZPROMO) və Türkiyənin Xarici İqtisadi Əlaqələr Təşkilatının (DEİK) təşkilatçılığı ilə Azərbaycan-Türkiyə biznes-forumu keçirilib.

Forumda iki qardaş ölkənin hökumət nümayəndələri, qida, tikinti, nəqliyyat, logistika, sənaye, İKT, tekstil və digər sahələrdə fəaliyyət göstərən sahibkarlar iştirak ediblər.

AZƏRTAC xəbər verir ki, forumda çıxış edən Azərbaycanın Baş naziri Əli Əsədov Azərbaycan-Türkiyə qardaşlığı, dostluğu, sıx əməkdaşlıq və strateji müttəfiqlik münasibətlərinin hər iki dövlət başçısının yorulmaz səyləri nəticəsində bu gün ən yüksək zirvədə olduğunu vurğulayıb. Baş nazir ölkəmizdə yaradılan əlverişli investisiya mühiti barədə məlumat verərək bildirib ki, hazırda Azərbaycanda 5 minə yaxın Türkiyə şirkəti qeydiyyata alınıb və bu, xarici dövlətlər arasında ən yüksək göstəricidir. Qeyd edilib ki, biznes dairələrimizin birgə fəaliyyəti və sıx əməkdaşlığı Azərbaycan-Türkiyə münasibətlərinin daha da dərinləşməsinə və ölkələrimiz arasında ticarət dövriyyəsinin, investisiya qoyuluşunun artmasına töhfə verəcək. İqtisadi, ticarət, nəqliyyat və enerji sahələrində əməkdaşlığımız qarşılıqlı əlaqələrin inkişafında mühüm rol oynayır.

Qeyd edilib ki, 44 günlük Vətən müharibəsində Azərbaycanın şanlı Qələbəsindən sonra ikitərəfli əməkdaşlığımız üçün yeni imkanlar açılıb. Hazırda işğaldan azad edilmiş ərazilərdə bərpa və yenidənqurma işləri geniş vüsət alıb və türk şirkətləri bu işlərdə yaxından iştirak edirlər.

Baş nazir iqtisadi əlaqələrin inkişafında Azərbaycan-Türkiyə Hökumətlərarası Komissiyasının səmərəli platforma olduğunu diqqətə çatdırıb və qeyd edib ki, bu gün komissiyanın Bakıda keçirilmiş 10-cu yubiley iclasında ortaq maraq doğuran bir çox sahələr üzrə məsələlər müzakirə edilib.

Türkiyənin Vitse-prezidenti Fuat Oktay biznes-forum iştirakçılarını salamlayaraq Azərbaycanda olmaqdan məmnunluğunu ifadə edib, qardaş xalqlarımızı möhkəm mədəni-tarixi əlaqələrin birləşdirdiyini vurğulayıb. Vitse-prezident Azərbaycan-Türkiyə əlaqələrinin yüksək səviyyədə olduğunu, əməkdaşlığın genişləndirilməsində dövlət başçılarının qarşılıqlı səfərlərinin, aparılan danışıqların əhəmiyyətini qeyd edib. Diqqətə çatdırılıb ki, Azərbaycan-Türkiyə iqtisadi-ticarət əməkdaşlığı uğurla inkişaf edir, qarşılıqlı investisiya qoyuluşları həyata keçirilir, hər iki ölkənin iştirakı ilə enerji və nəqliyyat sahəsində qlobal və regional əhəmiyyətli meqalayihələr reallaşdırılır. Fuat Oktay biznes-forumun iqtisadi əməkdaşlığın genişləndirilməsi istiqamətində əhəmiyyətli olacağını vurğulayıb, sənaye, kənd təsərrüfatı, nəqliyyat-logistika, ticarət, müdafiə sənayesi və digər sahələrdə əlaqələrin inkişafı üçün geniş potensialı qeyd edib, biznes dairələrini daha fəal əməkdaşlığa, birgə investisiyaların yatırılmasına dəvət edib.

Forum çərçivəsində hər iki ölkənin dövlət qurumları və sahibkarlıq subyektləri arasında əməkdaşlığa dair 14 sənəd imzalanıb.

Biznes-forum iş adamları arasında ikitərəfli görüşlərlə davam edib, sahibkarlar əməkdaşlığın genişləndirilməsi və yeni əlaqələrin qurulması məsələlərini müzakirə ediblər.

# Üç nəfər qazi Milli Məclisdə işlə təmin olunub

Noyabrın 4-də Zəfər Gününün ildönümü ərəfəsində Milli Məclisin Sədri Sahibə Qafarovanın iştirakı ilə parlamentdə dövlət qulluğuna qəbul edilmiş bir qrup əməkdaşın andiçmə mərasimi keçirilib. Tədbirdə əvvəlcə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, mərasimdə çıxış edən Milli Məclisin Sədri bildirib ki, Prezident İlham Əliyevin kadr siyasətinə uyğun olaraq ölkədə peşəkar və bacarıqlı insanlara, xüsusilə də gənclərə lazımi şərait yaradılır. Digər dövlət qurumlarında olduğu kimi, Milli Məclisdə də işgüzar gənclər dövlət qulluğuna qəbul olunur. Fərəhli haldır ki, bu gün parlamentdə dövlət qulluğuna qəbul olunanların arasında 44 günlük Vətən müharibəsində şücaət göstərdiklərinə görə orden və medallarla təltif olunmuş 3 qazi vardır. İnanırıq ki, dövlət qulluğunda da onlar göstərilən etimadı doğruldacaq, dövlətə və Vətənə sədaqətlə qulluq edəcəklər.

Sonra dövlət qulluğuna qəbulla bağlı andiçmə mərasimi keçirilib. Qazilər - Nicat İlqar oğlu Abdurrahmanov, İzzət Zakir oğlu Balacayev və Bəşir Nəbi oğlu Hüseynzadə and içiblər. Milli Məclisin Sədri Sahibə Qafarova onlara xidməti vəsiqələrini təqdim edərək dövlət qulluğunda gələcək fəaliyyətlərində uğurlar arzulayıb.





* * *

Andiçmə mərasimindən sonra tədbir iştirakçıları Milli Məclisin İnzibati binasının foyesində xalqımızın Ümummilli Lideri, müasir Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin abidəsi önünə gələrək, Ulu Öndərin xatirəsini ehtiramla yad ediblər, abidənin önünə tər çiçəklər düzüblər.

Sonra parlamentin foyesində yaradılmış "Zəfər Guşəsi"nin açılış mərasimi keçirilib. Milli Məclisin Sədri Sahibə Qafarova qırmızı lenti kəsərək "Zəfər Guşəsi"nin açılışını edib.

"Zəfər Guşəsi"nin yuxarı hissəsində Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin "Qarabağ Azərbaycandır!" ifadəsi öz əksini tapıb. Mərkəzdə Vətən müharibəsində qazanılmış Zəfər münasibəti ilə Milli Məclisdə təsis olunmuş orden və medallar sərgilənib. Guşənin hər iki tərəfində müharibədə şəhid olmuş Vətən övladlarının adları həkk olunub, işğal dövründə dağıdılmış binalar, azad olunmuş ərazilərdə aparılan möhtəşəm quruculuq və bərpa işləri fotoşəkillərdə öz əksini tapıb.

Tədbir iştirakçıları burada guşənin önünə tər çiçəklər düzərək Vətən müharibəsində şəhid olmuş qəhrəman övladlarımızın xatirəsini ehtiramla yad ediblər.

***"Azərbaycan"***

# 2023-cü ilin dövlət büdcəsi müzakirə edilib

Noyabrın 4-də Milli Məclisin Gənclər və idman, Əmək və sosial siyasət, Aqrar siyasət, Regional məsələlər, Təbii ehtiyatlar, energetika və ekologiya komitələrinin birgə toplantısında "Azərbaycan Respublikasının 2023-cü il dövlət büdcəsi haqqında" qanun layihəsi birinci oxunuşda müzakirə olunub.

AZƏRTAC xəbər verir ki, tədbirdə çıxış edən Milli Məclis Sədrinin müavini, Gənclər və idman komitəsinin sədri Adil Əliyev bu günlərdə qeyd ediləcək Zəfər Günü, Bayraq Günü və qarşıdan gələn Konstitusiya Günü münasibətilə iclas iştirakçılarını təbrik edib.

Vitse-spiker bildirib ki, Prezident İlham Əliyevin yürütdüyü xarici siyasət və iqtisadi strategiya Azərbaycan iqtisadiyyatını dünyada baş verən siyasi-iqtisadi kataklizmlərdən qorumağa imkan verib. Bunun nəticəsində hazırkı böhranlı və çağırışlarla dolu beynəlxalq şəraitdə Azərbaycan iqtisadiyyatında artım müşahidə olunur.

Adil Əliyev qeyd edib ki, bu il ərzində Ermənistan tərəfindən dəfələrlə bizə qarşı silahlı təxribatların törədilməsi və ölkəmizin milli təhlükəsizliyini təhdid edən digər halların baş verməsi hərbi qüdrətimizin artırılmasını labüd edir və bu zərurət dövlət büdcəsinin hərbi xərclər hissəsində öz əksini tapıb. Eyni zamanda dövlətimiz büdcənin sosialyönümlü olmasına sadiq qalır.

Milli Məclis Sədrinin müavini diqqətə çatdırıb ki, digər prioritet istiqamət isə işğaldan azad edilmiş Qarabağ və Şərqi Zəngəzurun bərpasıdır. Bu yaxınlarda Zəngilan Beynəlxalq Hava Limanının açılışı və Zəngilanın Ağalı kəndinə doğma sakinlərinin qayıdışı bu istiqamətdə görülən işlərin uğurundan xəbər verir. O qeyd edib ki, Böyük qayıdış mühüm strateji məsələdir və təbii ki, bu amil 2023-cü ilin dövlət büdcəsində də nəzərə alınıb.

Sonra maliyyə naziri Samir Şərifov çıxış edərək bildirib ki, 2023-cü ilin dövlət büdcəsinin xərcləri 33 milyard 300 milyon manat məbləğində təklif olunur. 2023-cü il və sonrakı 3 il üzrə dövlət büdcəsi müdafiə və təhlükəsizlik, dövlət borcuna xidmət və digər xərclərin təmin edilməsi ilə yanaşı, iqtisadi artımı və sahibkarlığın inkişafını dəstəkləyən, həssas və aztəminatlı əhalinin sosial müdafiəsi, elm, təhsil, səhiyyə, sosial təminat və digər sahələrdə islahatların davamını təmin edən proqram və tədbirlərin maliyyələşdirilməsinə yönəldiləcək.

Nəzərə çatdırılıb ki, Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyev ölkəmizin müdafiə qabiliyyətinin və milli təhlükəsizliyinin daha da yüksəldilməsini, ordu quruculuğunun daim müasirləşdirilməsini ən ümdə və prioritet vəzifələr sırasına daxil edib. Cənubi Qafqazda dayanıqlı sülhün bərqərar olması rəşadətli ordumuzun gücünün və qüdrətinin daim artırılmasını tələb edir. Qeyd olunan çağırışlar fonunda növbəti ilin dövlət büdcəsi xərclərinin 24,2 faizi və yaxud 8 milyard 63 milyon manatı müdafiə və hüquq-mühafizə xərclərinə yönəldiləcək. Bu da cari illə müqayisədə 6,6 faiz çoxdur. Bununla yanaşı, əsas prioritet vəzifələrdən biri kimi qəbul edilən "Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nda nəzərdə tutulmuş tədbirlərin həyata keçirilməsinə 5 milyard 244 milyon manat, o cümlədən strategiyanın əsaslı xərclər komponenti üzrə 4 milyard 100 milyon manat vəsaitin ayrılması nəzərdə tutulur. Həmin əsaslı xərclərin 3 milyard manatlıq hissəsi məhz işğaldan azad edilmiş ərazilərdə bərpa və yenidənqurma işlərinin, Böyük qayıdışın təmin etdirilməsi üçün yaşayış və qeyri-yaşayış infrastrukturunun tikintisinə və digər tədbirlərə yönəldiləcək.

Ölkənin ərzaq təhlükəsizliyinin etibarlı və dayanıqlı təminatının, kənd təsərrüfatının aparıcı sahələrinin inkişaf etdirilməsinin mühüm əhəmiyyət kəsb etdiyini deyən nazir növbəti ildə bu istiqamət üzrə 1 milyard 202 milyon manat vəsaitin ayrılacağını bildirib.

Sonra iclasda Hesablama Palatasının sədri Vüqar Gülməmmədov çıxış edərək diqqətə çatdırıb ki, 2023-cü ilin dövlət büdcəsinin layihəsi ilə bağlı palatanın rəyində 3 əsas məsələyə - təqdim edilən sənədlərin tamlığına və mövcud qanunvericiliyin tələblərinə uyğunluğuna, büdcə parametrlərinin makrogöstəricilərə və strateji sənədlərə adekvatlığına və büdcə parametrlərinə dair hesablamaların əsaslılığına və doğruluğuna diqqət yetirilib.

Qeyd edilib ki, "Büdcə zərfi"ndə təqdim edilən sənədlərdə bir sıra yeniliklər tətbiq edilib. Belə ki, vergi və gömrük sahəsində tətbiq olunan güzəşt və azadolmaların dövlət büdcəsinin gəlirlərinə təsiri qiymətləndirilib, ilk dəfə olaraq qeyri-neft ÜDM-i müxtəlif ssenarilərlə təqdim edilib və onun fiskal göstəricilərlə əlaqələndirilməsi həyata keçirilib. Eyni zamanda məlumatların keyfiyyətinin və həcminin yüksəldilməsi istiqamətində də addımlar atılıb. "Büdcə zərfi"ndə Hesablama Palatasının rəylərində qeyd edilmiş bəzi məqamlar, eyni zamanda layihənin tərtib edilməsi zamanı müzakirələrdə qaldırılan məsələlər də nəzərə alınıb.

Sonra iclasda əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev çıxış edərək Dövlət Sosial Müdafiə Fondunun və İşsizlikdən Sığorta Fondunun növbəti il üçün nəzərdə tutulan büdcələri barədə məlumat verib. Bildirib ki, növbəti ilin büdcəsi gəlir və xərclər üzrə balanslaşdırılaraq 6 milyard 264 milyon manat məbləğində qiymətləndirilib. Bu isə cari ildəki məbləğdən 658 milyon və ya 12 faiz artıqdır. Bu gəlirlər çərçivəsində məcburi dövlət sosial sığorta üzrə gəlirlər 4 milyard 784 milyon manat proqnozlaşdırılır. Bu isə cari ilə nisbətən 10 faiz və ya 422 milyon manat artıqdır. Transfertin həcmi isə 1 milyard 468 milyon manat məbləğində müəyyən edilib. Dövlət büdcəsi tərəfindən dövlət öhdəliklərinin ödənilməsi məqsədi ilə həyata keçirilən bu transfertin ümumi gəlirdəki payı növbəti il ərzində 23 faiz təşkil edəcək.

Nazir bildirib ki, Dövlət Sosial Müdafiə Fondunun xərclərinin 97 faizi, yəni 6 milyard 78 milyon manatı əhaliyə ödənişlərin payına düşür. Bu da cari illə müqayisədə 12 faiz artıq deməkdir. Əmək pensiyalarının maliyyələşdirilməsinə 5 milyard 907 milyon manat və ya cari ildən 650 milyon manat artıq, məcburi dövlət sosial sığorta hesabına verilən müavinətlərə isə 170 milyon manat yönəldiləcək.

Sahil Babayev bildirib ki, əmək pensiyalarının orta aylıq məbləği cari ildə 371 manat, yaşa görə əmək pensiyalarının orta məbləği isə 400 manat təşkil edir. Növbəti ildə orta məbləğlərdə ciddi artım gözlənilir və yaşa görə göstəricinin 450 manatın üzərinə, ümumilikdə əmək pensiyalarının orta aylıq məbləğinin isə 420 manatın üzərinə çıxacağı proqnozlaşdırılır.

Sosial sahədə aparılan islahatların beynəlxalq təşkilatlar tərəfindən yüksək qiymətləndirildiyini deyən Sahil Babayev 2022-ci il ərzində Dövlət Sosial Müdafiə Fondu, DOST Agentliyi və nazirliyin digər sosial sahədə fəaliyyət göstərən strukturlarının 11 beynəlxalq mükafat əldə etdiyini qeyd edib. Eyni zamanda bu qurumlar xidmət keyfiyyətinin artırılması, paralel olaraq şəffaflığın, korrupsiyaya qarşı mübarizənin təmin edilməsi istiqamətində də 12 beynəlxalq ISO sertifikatı ilə təltif olunublar.

İşsizlikdən Sığorta Fondunun büdcəsi ilə bağlı məlumat verən nazir bildirib ki, növbəti ildə fondun büdcəsi 212 milyon 700 min manat məbləğində proqnozlaşdırılır. Burada sığorta haqları üzrə gəlirlər 159,6 milyon manat, 53 milyon manat isə ehtiyatdan cəlb edilən vəsait kimi proqnozlaşdırılır. İşsizliyə görə sığorta ödənişinin əhatə dairəsinin artırılması və 11 milyon manat olaraq həyata keçirilməsi proqnozlaşdırılır.

Sonra iclasda 2023-cü ilin dövlət büdcəsi layihəsi ilə bağlı Milli Məclisin komitə sədrləri öz fikirlərini açıqlayıblar.

Regional məsələlər komitəsinin sədri Siyavuş Novruzov deyib ki, Prezident İlham Əliyevin apardığı siyasət nəticəsində bu il müstəqillik dövrünün ən böyük büdcəsini qəbul edirik. Dünyada baş verən iqtisadi böhrana baxmayaraq, Azərbaycan iqtisadiyyatı davamlı şəkildə inkişafı edir, ölkədəki sosial məsələlərin həllinə, yeni iş yerlərinin açılmasına, abadlıq-quruculuq işlərinə xüsusi diqqət göstərilir.

Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev bildirib ki, 2023-cü ilin dövlət büdcəsi postmüharibə və postpandemiya dövründə qarşıya qoyulan məsələlərin həllinə yönəlik maliyyələşmə mexanizmlərini və imkanlarını özündə əks etdirir. Büdcə layihəsi, əvvəlki illərdə olduğu kimi, sosialyönümlüdür. Son beş ildə büdcənin sosialyönümlü xərclərinin iki dəfə artdığını söyləyən Musa Quliyev deyib ki, bu da Azərbaycan vətəndaşlarının sosial rifahının daim diqqətdə saxlanıldığını bir daha göstərir.

Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri Sadiq Qurbanov bildirib ki, növbəti ilin dövlət büdcəsində ətraf mühitin və təbiətin mühafizəsi, bioloji zənginliyin qorunması, torpaq və yer quruluşu, hidrometrologiya, meşə təsərrüfatı, balıqçılıq və ovçuluq, ərazilərin təmizlənməsi və digər sahələrlə bağlı ayrılan vəsait əvvəlki illə müqayisədə 79 milyon manat çoxdur. Ölkəmizdəki ekoloji vəziyyət və bununla mübarizə məsələlərinə toxunan Sadiq Qurbanov görülə biləcək tədbirlərlə bağlı təkliflərini səsləndirib.

Aqrar siyasət komitəsinin sədri Tahir Rzayev növbəti ilin dövlət büdcəsinin bu günün reallıqlarını özündə əks etdirdiyini bildirib. Qeyd edib ki, cari ildə Ümumi Daxili Məhsulun, valyuta ehtiyatlarının, əhalinin pul gəlirlərinin, əməkhaqlarının artımı Azərbaycan iqtisadiyyatının dayanıqlılığını və davamlılığını bir daha göstərir. Bütün bunlar Prezident İlham Əliyevin yürütdüyü sosial-iqtisadi siyasətin, eləcə də bu sahədə çalışan insanların peşəkarlığının nəticəsidir.

Sonra 2023-cü ilin dövlət büdcəsinin layihəsi ətrafında geniş müzakirələr aparılıb. Müzakirələrdə çıxış edən Milli Məclisin deputatları Şahin İsmayılov, Asim Mollazadə, Etibar Əliyev, Jalə Əliyeva, Soltan Məmmədov, Naqif Həmzəyev, Kamran Bayramov, Məlahət İbrahimqızı, Sevinc Hüseynova büdcə layihəsi, onun parametrləri, proqnoz göstəriciləri, gəlirləri, xərc istiqamətləri kimi məsələlərlə bağlı rəy və təkliflərini hökumət üzvlərinin diqqətinə çatdırıblar.

Maliyyə naziri Samir Şərifov, əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev, Hesablama Palatasının sədri Vüqar Gülməmmədov, ekologiya və təbii sərvətlər nazirinin müavini Vüqar Kərimov qaldırılan məsələlərə aydınlıq gətiriblər, deputatların suallarını cavablandırıblar, səsləndirdikləri təkliflərlə bağlı fikirlərini bildiriblər.

İclasın sonunda "Azərbaycan Respublikasının 2023-cü il dövlət büdcəsi haqqında" qanun layihəsi birinci oxunuşda Milli Məclisin plenar iclasına tövsiyə olunub.

# Növbəti ictimai dinləmə keçirilib

Noyabrın 4-də "Siyasi partiyalar haqqında" yeni qanun layihəsi ilə bağlı növbəti ictimai dinləmə keçirilib.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, ictimai dinləmədə Milli Məclisin birinci vitse-spikeri Əli Hüseynli, vitse-spiker Fəzail İbrahimli, parlamentin İnsan hüquqları komitəsinin sədri Zahid Oruc, Milli Məclis Aparatının rəhbəri Fərid Hacıyev, parlamentdə təmsil olunan partiyaların sədrləri, deputatlar, QHT nümayəndələri və politoloqlar iştirak ediblər.

İctimai dinləməyə Milli Məclisin İctimai birliklər və dini qurumlar komitəsinin sədri, Vətəndaş Həmrəyliyi Partiyasının sədr müavini Fəzail İbrahimli moderatorluq edib.

Tədbiri açan vitse-spiker Fəzail İbrahimli Azərbaycanda Prezident İlham Əliyevin təşəbbüsü və birbaşa rəhbərliyi ilə həyata keçirilən sistemli islahatlardan danışıb, iqtidar-müxalifət dialoqundan bəhs edib. O, altıncı çağırış Azərbaycan Respublikasının Milli Məclisində, onun komitələrinin rəhbərliyində Yeni Azərbaycan Partiyası ilə yanaşı, müxtəlif siyasi partiyaların təmsil olunmasını yeni siyasi konfiqurasiyanın bariz nümunəsi kimi xarakterizə edib. Qeyd olunub ki, Azərbaycanın şanlı Zəfəri, torpaqlarını işğaldan azad etməsi bölgədə yeni reallıqlar yaradıb.

Fəzail İbrahimli diqqətə çatdırıb ki, bütün bunların fonunda Azərbaycan parlamenti müasir dövrün çağırışlarından kənarda qala bilməzdi və beləliklə də Milli Məclisdə təmsil olunan siyasi partiyalar ölkəmizin müasir inkişaf reallıqlarına cavab verən "Siyasi partiyalar haqqında" yeni qanun layihəsinin hazırlanması ilə bağlı parlamentin sədri Sahibə Qafarovaya müraciət ediblər.

Yeni qanunun hazırlanmasının zəruriliyini vurğulayan sədr müavini qeyd edib ki, "Siyasi partiyalar haqqında" qanun 30 il bundan əvvəl qəbul edilib. Ötən dövrdə ölkənin ictimai-siyasi həyatında böyük dəyişikliklər baş verib, dövlət quruculuğu və vətəndaş cəmiyyətinin inkişafında böyük uğurlar əldə olunub, Azərbaycan qalib dövlət kimi ərazi bütövlüyünü bərpa edib, beynəlxalq arenada söz sahibinə çevrilib. Təbii ki, bütün bu amillər fonunda siyasi partiyalarla bağlı yeni qanun layihəsinin hazırlanması sosial sifarişə əsaslanır.

Fəzail İbrahimli bildirib ki, Milli Məclisin Sədri Sahibə Qafarovanın tapşırığına əsasən, bu qanun layihəsi parlamentin Hüquq siyasəti və dövlət quruculuğu, İctimai birliklər və dini qurumlar, İnsan hüquqları komitələrində hazırlanıb. O, qanun layihəsi ilə bağlı siyasi partiyalardan daxil olan təkliflərdən danışıb. Eyni zamanda Sosial Tədqiqatlar Mərkəzi tərəfindən qanun layihəsinin ayrı-ayrı bəndləri üzrə sorğular həyata keçirilib. Vitse-spiker diqqətə çatdırıb ki, bu gün keçirilən ikinci dinləmədə də qanun layihəsinin təkmilləşdirilməsi istiqamətində irəli sürülən rəy və təkliflərə xüsusi diqqət yetiriləcək.

Dinləmədə Milli Məclis Sədrinin birinci müavini, Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli çıxış edərək bildirib ki, "Siyasi partiyalar haqqında" mövcud qanun 1992-ci ildə qəbul edilib. Ötən illər ərzində bir çox Avropa ölkələrində siyasi partiyalarla bağlı qanunvericilik təkmilləşdirilib. Eyni zamanda Azərbaycanda "Normativ-hüquqi aktlar haqqında" Konstitusiya Qanunu qəbul edilib. Ona görə də bu sahədə olan təcrübənin Azərbaycan qanunvericiliyində tətbiqi, həm də milli konstitusion hüququn təsbiti tələblərindən irəli gələrək "Siyasi partiyalar haqqında" yeni qanun layihəsinin qəbulu zəruridir.

Əli Hüseynli layihənin hazırlanmasından danışıb, 20-dən çox ölkənin, o cümlədən Avropanın qabaqcıl ölkələrinin təcrübəsinin, həmçinin Venesiya Komissiyasının siyasi partiyaların fəaliyyətinin tənzimlənməsi üzrə tövsiyələrinin, siyasi partiyalardan daxil olan təkliflərin nəzərə alınması barədə məlumat verib.

O, siyasi partiyaların nümayəndələrinin iştirakı ilə keçirilmiş birinci ictimai dinləmənin çox faydalı olduğunu və layihənin təkmilləşdirilməsinə töhfə verdiyini deyib, bugünkü müzakirələrdə səslənəcək fikirlərin də ölkənin siyasi partiyalar haqqında qanunvericiliyinin inkişafına kömək edəcəyinə inamını ifadə edib.

İclasda çıxış edən Milli Məclisin İnsan hüquqları komitəsinin sədri, Sosial Tədqiqatlar Mərkəzi İdarə Heyətinin sədri Zahid Oruc qeyd edib ki, təqdim edilən yeni qanun partiyaların fəaliyyətinin təkmilləşdirilməsi məqsədi daşıyır. Komitə sədri Azərbaycanın siyasi sistemi və partiyalar institutunun öz inkişafının yeni mərhələsinə qədəm qoymasını tarixi zərurət və dövlətçiliyimizin gələcəyi aspektindən dəyərləndirib.

Zahid Oruc ilkin ictimai dinləmə zamanı partiyaların irəli sürdükləri təkliflərlə bağlı danışaraq bildirib ki, yeni təkliflər də nəzərə alınmaqla, yekunda "Siyasi partiyalar haqqında" yeni mükəmməl bir qanun qəbul olunacaq.

Dinləmədə Sosial Tədqiqatlar Mərkəzinin İctimai Rəy Departamentinin müdiri Elnur Çıraqov "Siyasi partiyalar haqqında" yeni qanun layihəsi ilə bağlı aparılmış sorğunun nəticələri barədə məlumat verib.

Tədbirdə Yeni Azərbaycan Partiyası İdarə Heyətinin üzvü, deputat Hikmət Məmmədov, Milli Məclisdə təmsil olunan siyasi partiyaların sədrləri Sabir Rüstəmxanlı (Vətəndaş Həmrəyliyi Partiyası), Fəzail Ağamalı (Ana Vətən Partiyası), Tahir Kərimli (Vəhdət Partiyası), Asim Mollazadə (Azərbaycan Demokratik İslahatlar Partiyası) çıxış ediblər. Partiya funksionerləri partiyaların fəaliyyəti ilə bağlı yeni qanun layihəsinin hazırlanmasını müsbət dəyərləndiriblər, layihənin geniş ictimai dinləmələrinin keçirilməsini yüksək qiymətləndiriblər və bu işin təşkilinə görə parlament rəhbərliyinə təşəkkürlərini bildiriblər. Çıxış edənlər partiyalarının "Siyasi partiyalar haqqında" yeni qanun layihəsi barədə mövqeyini bildirib, rəy və təkliflərini səsləndiriblər.

Sonra iclasda çıxış edən qeyri-hökumət təşkilatlarının nümayəndələri - "Cəmiyyətin və Vətəndaş Münasibətlərinin İnkişafı" İctimai Birliyinin sədri Əhməd Abbasbəyli, D.Əliyeva adına Azərbaycan Qadın Hüquqlarını Müdafiə Cəmiyyətinin sədri Novella Cəfərova, Bakı İnsan Hüquqları Klubunun rəhbəri Rəsul Cəfərov, Demokratiya və İnsan Hüquqları Komitəsinin sədri Çingiz Qənizadə, "İslahatçı Qadınlar və İnnovasiyalar" İctimai Birliyinin sədri Vüsalə Hüseynli, "Demokratiyanı Öyrənmə" İctimai Birliyinin sədri Mirəli Hüseynov, Konstitusiya Araşdırmaları Fondunun prezidenti Əliməmməd Nuriyev, "İqtisadi və Sosial Araşdırmalara Yardım" İctimai Birliyinin sədri Əyyub Kərimli, Vətəndaşların Əmək Hüquqlarının Müdafiəsi Liqasının sədri Sahib Məmmədov, "Ekonomiks" Beynəlxalq İqtisadi Araşdırmalar İctimai Birliyinin sədri Fikrət Yusifov, Milli QHT Forumunun prezidenti Rauf Zeyni, Beynəlxalq İnsan Hüquqları Cəmiyyəti Azərbaycan Milli Bölməsinin rəhbəri Səadət Bənənyarlı, Bakı Politoloqlar Klubunun rəhbəri Zaur Məmmədov, Sosial Strateji Tədqiqatlar və Analitik Araşdırmalar İctimai Birliyinin sədri İlqar Hüseynli, politoloqlar Şəbnəm Həsənova, Tural İsmayılov qanun layihəsi ilə bağlı fikirlərini bölüşüb, qeyd və təkliflərini səsləndiriblər.

Tədbiri yekunlaşdıran Milli Məclis Sədrinin müavini, İctimai birliklər və dini qurumlar komitəsinin sədri Fəzail İbrahimli hamını qarşıdan gələn Zəfər Günü ilə bağlı təbrik edib və qanun layihəsi ətrafında aparılmış səmərəli fikir mübadiləsinə görə iclas iştirakçılarına təşəkkürünü bildirib.

Bununla da "Siyasi partiyalar haqqında" yeni qanun layihəsi ilə bağlı ikinci ictimai dinləmə başa çatıb.

Dinləmədə Milli Məclisin deputatları Elşən Musayev, Sahib Alıyev, Azər Badamov, Nigar Arpadarai, Ramin Məmmədov, Anar İsgəndərov, Azay Quliyev, Ceyhun Məmmədov, Əminə Ağazadə, Soltan Məmmədov, Elşad Mirbəşir oğlu, Elnur Allahverdiyev, Könül Nurullayeva, Kamal Cəfərov, Nurlan Həsənov və digər rəsmi şəxslər iştirak ediblər.

***"Azərbaycan"***

# Elm və təhsil komitəsinin iclası

Noyabrın 4-də Milli Məclisin Elm və təhsil komitəsinin iclası keçirilib.

AZƏRTAC xəbər verir ki, komitənin sədri Bəxtiyar Əliyev gündəliyə 2 məsələnin daxil edildiyini diqqətə çatdırıb.

Komitə sədri əvvəlcə "Elektron imza və elektron sənəd haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" qanun layihəsini ikinci oxunuşda təqdim edib. O bildirib ki, sənəd ölkə Prezidentinin müvafiq sərəncamı ilə təsdiq edilmiş "Açıq hökumətin təşviqinə dair 2020-2022-ci illər üçün Milli Fəaliyyət Planı"nın 4.2-ci bəndinə əsasən hazırlanıb. Belə ki, Milli Fəaliyyət Planının 4.2-ci bəndinə görə, dövlət xidmətinin göstərilməsi üçün zəruri olan sənəd və ya məlumat digər dövlət qurumunda mövcud olduğu halda, həmin sənədin və ya məlumatın vətəndaşdan tələb edilmədən Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə müvafiq dövlət qurumundan alınması təmin edilir. Bununla əlaqədar "Elektron imza və elektron sənəd haqqında" qanuna müvafiq dəyişiklik təklif olunur. Dəyişiklik vətəndaşların sənəd və ya məlumatın toplanması və təqdim edilməsi ilə bağlı problemlərinin aradan qaldırılmasına, vətəndaş məmnunluğunun artırılmasına, ölkədə Elektron Hökumət İnformasiya Sisteminin funksionallığının daha da yüksəldilməsinə və qurumlararası elektron inteqrasiyanın güclənməsinə xidmət edir.

Sonra komitə sədri gündəliyin ikinci məsələsi - Azərbaycan Respublikasının Əmək Məcəlləsində, Ailə Məcəlləsində, Cinayət Məcəlləsində, Cinayət-Prosessual Məcəlləsində, "Uşaq hüquqları haqqında", "Vəkillər və vəkillik fəaliyyəti haqqında", "Təhsil haqqında", "Sosial xidmət haqqında", "Azərbaycan Respublikasında dövlət daktiloskopik və genom qeydiyyatı haqqında" və "Ümumi təhsil haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsi (birinci oxunuş) ilə bağlı məlumat verib.

Diqqətə çatdırılıb ki, qanun layihəsi "Uşaqların cinsi istismardan və cinsi zorakılıqdan müdafiəsi haqqında" Avropa Şurası Konvensiyasının təsdiq edilməsi barədə" Azərbaycan Respublikasının 2019-cu il 22 oktyabr tarixli Qanununun icrası ilə əlaqədar hazırlanıb. Layihədə təqdim edilmiş qanunlara və məcəllələrə təklif edilən dəyişikliklər konvensiyaya uyğun olaraq qabaqlayıcı tədbirlər, qurbanlara yardım və maddi cinayət hüququ normalarından irəli gələn öhdəliklərin milli qanunvericilikdə yerinə yetirilməsini nəzərdə tutur.

Komitə sədri bildirib ki, təklif edilən dəyişikliklərdə uşaqların cinsi istismarının və onlara qarşı cinsi zorakılığın bütün formalarının qarşısının alınması, belə zorakılığın qurbanı olmuş şəxslərə yardımın göstərilməsi nəzərdə tutulur. Eyni zamanda uşaqlarla işləyənlərə dair qoyulan tələblər, hüquqi şəxslərə dair cinayət hüququnun tətbiqi, valideynlik hüququndan məhrumetmə, yetkinlik yaşına çatmayan şəxslərin dairəsinin müəyyənləşdirilməsi, uşaqların müdafiəsi ilə bağlı məsələlər öz əksini tapıb. Bəxtiyar Əliyev bununla bağlı qabaqlayıcı tədbirlərin əhəmiyyətindən, maarifləndirmə işinin vacibliyindən danışıb. Bu sahənin dövlət tərəfindən diqqətdə saxlandığını söyləyib.

Sonra Parlament Aparatının Sosial qanunvericilik şöbəsinin müdiri Adil Vəliyev çıxış edərək adıçəkilən məcəllələrdə və qanunlarda nəzərdə tutulan dəyişikliklərin mahiyyəti barədə məlumat verib. O, qanun layihəsində 81 maddəyə əlavə və dəyişikliyin təklif edildiyini bildirib, dəyişikliklərin şəxsiyyətin cinsi toxunulmazlığı və cinsi azadlığı əleyhinə olan əməllərin qarşısının alınmasına yönəldiyini söyləyib.

Müzakirələr zamanı komitənin sədr müavini Musa Qasımlı, üzvləri Etibar Əliyev, Ceyhun Məmmədov, Anar İsgəndərov, Kamilə Əliyeva, Tamam Cəfərova və Fatma Yıldırım çıxış edərək təqdim olunan qanun layihələri barədə fikirlərini açıqlayıb, qeyd və təkliflərini səsləndiriblər.

İclasın sonunda gündəliyə daxil edilən hər iki qanun layihəsi Milli Məclisin plenar iclasına tövsiyə olunub.

Tədbirdə komitə üzvləri Ülviyyə Ağayeva, Afət Həsənova, Pərvin Kərimzadə və digər rəsmi şəxslər iştirak ediblər.

# 44 günə fəth olunan ZƏFƏR ZİRVƏSİ

**Əsrlər boyu Azərbaycan xalqı bir çox tarixi günlərə şahidlik etmiş, ağrılı-acılı dönəmlərlə yanaşı, qürurverici və sevincli anlarla dolu məqamlar yaşamışdır. Lakin əminliklə demək olar ki, Vətən müharibəsində qazanılan şanlı Qələbə zəngin tariximizin ən parlaq səhifəsi, indiki və gələcək nəsillərin hər zaman fəxr edəcəyi və iftixar duyacağı qəhrəmanlıq salnaməmizdir.**

Ötən əsrin 80-ci illərinin sonlarında və 90-cı illərinin əvvəllərində dünyada və xüsusən də regionda geosiyasi vəziyyətin mürəkkəbləşməsi Azərbaycan üçün Qarabağ ətrafında başlanan təlatümlü hadisələrlə, uzun illər ərzində Ermənistanın Vətənimizin bu tarixi ərazisinə olan əsassız iddialarının baş qaldırması ilə müşayiət olunmuşdur. Xarici himayədarlarının dəstəyinə arxalanan və bölgədə yaranmış qarışıqlıqdan istifadə edən Ermənistan illərdir hazırladığı məkrli planlarını həyata keçirmək üçün Azərbaycana qarşı hərbi təcavüz aktını həyata keçirməyə başlamışdır. Respublikamızın ərazi bütövlüyünün pozulması ilə nəticələnən Birinci Qarabağ müharibəsi zamanı Azərbaycan öz torpaqlarının 20 faizini itirmək məcburiyyətində qaldı, 1 milyona yaxın vətəndaşımız doğma yurd-yuvasından didərgin düşdü. Orduda maddi-texniki təchizatın aşağı olmasına, vahid rəhbərliyin olmamasına rəğmən bu savaşda Vətənimizin igid övladları Azərbaycanın suverenliyi naminə son damla qanına kimi vuruşaraq torpaqlarımızın toxunulmazlığı uğrunda canlarını fəda etmişlər.

Müharibə başladığı ilk gündən təhlükəsizlik orqanlarının əməkdaşları da doğma Vətənin müdafiəsinə qalxmış, döyüş meydanında əsl fədakarlıq nümunələri göstərmişlər. Birinci Qarabağ müharibəsində bu orqanın altı əməkdaşının "Azərbaycanın Milli Qəhrəmanı" adına layiq görülməsi deyilənlərin əyani təzahürüdür. Müqəddəs amal uğrunda qəhrəmancasına şəhid olmuş əməkdaşlarımızın əziz xatirəsi qəlbimizdə əbədi yaşayacaqdır!

Azərbaycan xalqına qarşı xüsusi amansızlıqla törədilən, kütləvi qətliam və soyqırımlarla qan yaddaşımıza həkk olunan bu müharibədə ərazilərimizin itirilməsinə xarici təzyiqlərlə bərabər Azərbaycanın ovaxtkı siyasi rəhbərliyinin səriştəsizliyi, ölkəni idarə edə bilmək qabiliyyətində və bacarığında olmaması, yalnız şəxsi mənafeləri güdərək hakimiyyəti öz əlində saxlamağı məqsəd kimi görməsi də şərait yaratmışdır. 1991-1993-cü illər ərzində respublikada cərəyan edən xaos, anarxiya və hökm sürən siyasi böhran ölkəni vətəndaş müharibəsi və yenicə qazanılan müstəqilliyin itirilməsi təhlükəsi ilə üz-üzə qoymuş, Azərbaycanın milli təhlükəsizliyi ciddi risk altına düşmüşdür.

Lakin 1993-cü ilin iyun ayında xalqın təkidli və israrlı tələbi ilə ikinci dəfə siyasi hakimiyyətə qayıdan Ulu Öndər Heydər Əliyev özünün uzaqgörənliyi, dərin zəkası, dəmir iradəsi və liderlik keyfiyyəti sayəsində ölkəni bu ağır vəziyyətdən çıxara bildi, dövlətin təhlükəsizliyinə qarşı yönələn xarici və daxili təhdidlərin qarşısını qətiyyətlə almağa və qazanılan müstəqilliyi qoruyub saxlamağa müvəffəq oldu. Ümummilli Liderin misilsiz səyləri və gərgin əməyi ilə 1994-cü ilin may ayında təcavüzkar dövlətlə atəşkəs razılaşması əldə olunduqdan sonra ölkədə ictimai-siyasi sabitlik bərqərar edildi. Qısa zaman ərzində qəbul edilən müdrik siyasi qərarlarla, gerçəkləşdirilən mühüm iqtisadi layihələrlə Azərbaycan dahi şəxsiyyət Heydər Əliyevin rəhbərliyi altında sülh və əmin-amanlıq şəraitində davamlı inkişaf yoluna qədəm qoydu.

Ümummilli Lider Heydər Əliyevin başladığı siyasi və iqtisadi islahatları uğurla davam etdirən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin uzun illər ərzində məharətlə və yüksək peşəkarlıqla həyata keçirdiyi diplomatik fəaliyyəti boyunca Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi nəticəsində torpaqlarımızın bir hissəsinin itirilməsi, vətəndaşlarımızın öz doğma yurdlarından qovularaq qaçqın və məcburi köçkün halına salınması, qarşı tərəfin təcavüz və təhdid ritorikasını sürdürməsi barədə bəyanatlar mötəbər təşkilatların kürsüsündən və beynəlxalq əhəmiyyətli tədbirlərdə davamlı olaraq səsləndirilmiş, münaqişənin dinc yolla həllinə nail olunması üçün bütün mümkün siyasi vasitələrdən istifadə edilmişdir. Həmçinin 1992-ci ildə konfliktin danışıqlar yolu ilə həllində vasitəçilik missiyasını yerinə yetirmək üçün təsis olunmuş Minsk qrupu münaqişənin dayandığı nöqtədə qalmasında əsas pay sahibi olmuş, qurumun fəaliyyətsizliyi və səmərəsizliyi mövcud vəziyyətin dayanıqlı olmasını şərtləndirmişdir. Prezident İlham Əliyev 2020-ci ilin 12 dekabr tarixində Minsk qrupunun həmsədrlərini qəbul edərkən demişdir: "Təəssüflər olsun ki, Minsk qrupu münaqişənin həllində heç bir rol oynamayıb. Halbuki bunu etmək üçün Minsk qrupu 28 il ərzində müvafiq mandata sahib idi. Mən son 17 il ərzində danışıqlarda iştirak etmişdim. Lakin müharibə zamanı dediyim kimi Minsk qrupunun ideyalarla çıxış etmək və yaradıcı olmaq istiqamətində müəyyən fəaliyyəti olsa da, bunlar heç bir nəticə verməmişdir. Reallıq bundan ibarətdir".

Ötən 30 ilə yaxın müddətdə Ermənistanın cəbhəboyu təxribatları mütəmadi xarakter almış, bu təxribatlar müəyyən dövrlərdə hərbi qulluqçularımızın və mülki əhalinin sırasından itkilərə, eyni zamanda sağlamlığa ciddi ziyan vurulmasına səbəb olmuşdur. Ermənistan silahlı qüvvələrinin 2016-cı ilin aprel, 2020-ci ilin iyul aylarında ordumuza qarşı Ermənistan-Azərbaycan sərhədində törətdiyi təxribatların qarşısı qətiyyətlə alınmış, düşmən xeyli sayda itki verməyə məcbur olmuşdur. 2020-ci ilin avqust ayında Ermənistanın diversiya qrupunun təmas xəttini keçərək terror aktları törətmək kimi düşmənin daha bir məkrli planı iflasa uğramışdır.

Son illər ərzində beynəlxalq hüquq normalarına zidd olan bu cinayətkar əməllərin törədilməsi ilə yanaşı, Ermənistan rəhbərliyinin müharibə ruhlu çıxışları, işğal altında olan ərazilərə qeyri-qanuni səfərlər etməsi, Ermənistanın hazırkı baş nazirinin "Qarabağ Ermənistandır və nöqtə" deməklə provokativ çıxışlara yol verməsi və təxribat dolu bəyanatlar səsləndirməsi, bu ölkənin ozamankı müdafiə nazirinin "yeni ərazilər uğrunda yeni müharibə" çağırışı, işğal altında olan ərazilərimizdə yerləşən separatçı quldur dəstəsinin başçısının Şuşada inaqurasiya mərasiminin və qanunsuz "parlamentin" Xankəndidən Şuşaya keçirilməsi ilə bağlı spekulyativ qərarların verilməsi və bununla da münaqişənin həlli ilə bağlı qeyri-konstruktiv mövqeyin davam etdirilməsi illərdir sürən sülh danışıqları prosesini sıfır nöqtəsinə gətirmiş oldu.

Xalqımız işğalçı ölkənin baş nazirinin milli heysiyyətimizə toxunan çıxışları qarşısında "Qarabağ Azərbaycandır və Nida işarəsi" deyən Prezidentinə, Ali Baş Komandanına inanır, ordusunun gücünə və rəşadətinə güvənirdi. Beləliklə, son dönəmlərdə münaqişə bölgəsində yaradılan gərginliklərlə, atılan qıcıqlandırıcı addımlarla, rəsmi şəxslərinin səsləndirdikləri fikir və bəyanatları ilə müharibəyə hazırlaşdığı açıq-aydın sezilən Ermənistan 2020-ci il sentyabr ayının 27-də cəbhə xətti boyunca Azərbaycana qarşı genişmiqyaslı təxribat törətməklə xalqımızın 30 illik səbir kasasını daşırdı. Silahlı Qüvvələrimizin Müzəffər Ali Baş Komandanının rəhbərliyi altında qüdrətli Azərbaycan Ordusu dövlətimizin başçısı tərəfindən "Dəmir yumruq" adlanan əks-hücum əməliyyatına - Vətən müharibəsinə başladı. Cəmi 44 gün ərzində Ali Baş Komandan cənab İlham Əliyevin yüksək sərkərdəlik məharəti, qəhrəman oğullarımızın igidliyi və şücaəti sayəsində yenilməz Azərbaycan Ordusu tarixi missiyanı uğurla başa vuraraq düşməni diz çökdürdü, 8 noyabr tarixində hər bir azərbaycanlının qürur yeri olan Şuşa şəhərini azad etməklə müharibənin məntiqi sonluğunu vurmuş oldu və Ermənistan kapitulyasiya aktını imzalamağa məcbur qaldı. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev xalqa müraciətində demişdir: "Bu bəyanat bizim şanlı qələbəmizdir. Şadam ki, bu gün bu müjdəni Azərbaycan xalqına verirəm. Hesab edirəm ki, bu bəyanatın imzalanmasının səbəblərindən biri də dünən qeyd etdiyimiz parlaq qələbəmizdir, tarixi qələbəmizdir, Şuşanın işğaldan azad edilməsidir, Şuşa Qarabağın tacıdır! Şuşanın azad edilməsi həm böyük siyasi, həm böyük strateji, eyni zamanda çox böyük mənəvi məna daşıyır. Biz Şuşaya qayıtdıq, biz Şuşanı qaytardıq, biz Şuşada yaşayacağıq və işğaldan azad edilmiş digər bütün torpaqlarda həyat qaynayacaq. İnsanlar o torpaqlara qayıdacaq, orada yaşayacaq, insanlarımızın 30 illik həsrətinə son qoyulur".

Döyüş əməliyyatlarının aparıldığı bütün müddət ərzində cəmiyyətimizin nümayiş etdirdiyi möhtəşəm səfərbərlik və vətənpərvərlik ruhu xalqımızın Ali Baş Komandanın ətrafında sıx birləşməsinin bariz ifadəsi olmaqla yanaşı, eyni zamanda Azərbaycanın bütün dünyaya ciddi mesajı kimi qəbul edildi. Dövlət başçısının çağırışına səs verən on minlərlə vətənpərvər gəncin Vətən torpaqları uğrunda döyüşmək üçün könüllü cəbhəyə yollanması, müharibədə əsgər və zabitlərimizin göstərdiyi şücaətlər xalqımızın qəhrəmanlıq nümunələri hesab olunur. Bu gün hamılıqla etiraf edilir ki, 44 günlük müharibədə xalqın və ordunun Ali Baş Komandana dərin inamı Vətən müharibəsinin tarixi qələbə ilə başa çatmasında mühüm rol oynamışdır. Şəhər və kəndlərimizin düşməndən azad edilməsi barədə məlumatların mütəmadi olaraq cənab Prezident tərəfindən əhaliyə çatdırılması ordumuzu və xalqımızı daha böyük uğurlara səsləmişdir.

Doğma Qarabağın, onun dilbər guşəsi olan Şuşa şəhərinin azad edilməsi və Vətən müharibəsinin tarixi qələbə ilə başa çatması hər bir Azərbaycan vətəndaşının qəlbində böyük qürur və iftixar hissi yaratmışdır. Ulu Öndərin vəsiyyətini layiqincə yerinə yetirən Ali Baş Komandanımızın Şuşanın azad olunması xəbərini müqəddəs məkanımız olan Şəhidlər xiyabanında xalqa müraciətində bütün dünyaya bəyan etdiyi zaman dediyi sözlər illərin həsrətinin bitdiyi an, Zəfər tariximizə vurulan möhür oldu. Prezident İlham Əliyev xalqa müraciətində demişdir: "Mən bu gün, eyni zamanda Ulu Öndər Heydər Əliyevin məzarını ziyarət etdim, onun ruhu qarşısında baş əydim. Ürəyimdə dedim, xoşbəxt adamam ki, ata vəsiyyətini yerinə yetirdim. Şuşanı azad etdik! Bu, böyük Qələbədir! Şəhidlərimizin, Ulu Öndərin ruhu şaddır bu gün! Gözün aydın olsun, Azərbaycan! Gözünüz aydın olsun "dünya azərbaycanlıları!"

Ulu Öndər hər zaman ictimaiyyət nümayəndələri, qaçqın və məcburi köçkünlərlə görüşlərində Qələbə gününün elə də uzaqda olmadığını, itirilmiş torpaqlarımızın işğaldan azad ediləcəyinə, vətəndaşlarımızın düşmən tapdağı altında qalmış həmin ərazilərə tezliklə qayıdacağına dərin inamını ifadə edir, xalqımızın həsrətinə tez bir zamanda son qoyulacağına əminliyini bildirirdi: "Arzu edirəm ki, sizinlə birlikdə yenidən Şuşaya gedək. İnanıram ki, biz gedəcəyik. Buna inanın. Şuşa təkcə şuşalılar üçün deyil, hər bir azərbaycanlı üçün əziz bir anlayışdır, deyə bilərəm ki, Azərbaycanın gözüdür, hər bir azərbaycanlı üçün iftixar mənbəyidir. Ona görə də Şuşa təkcə yaşayış məkanı deyildir. Şuşa bizim milli rəmzimizdir, mədəniyyətimizin, tariximizin rəmzidir. Şuşa hamı üçün əzizdir. Amma tək Şuşa yox, Laçın dağları da əzizdir. Laçın Azərbaycanın ən yüksək dağları, gözəl, səfalı meşələri, bulaqları, çayları olan bir diyarımızdır. Biz heç vaxt Laçınsız yaşaya bilmərik. Ağdam kimi gözəl bir şəhər, məkan, bağ-bağat, gözəl yer, Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı, Kəlbəcərin o yüksək dağları, çeşmələri, İstisuyu - biz onlarsız heç vaxt yaşaya bilmərik. Heç vaxt Azərbaycanı bu gözəl guşələrsiz təsəvvür edə bilmərik".

Müharibə gedişatında Cəbrayıl, Füzuli, Zəngilan, Qubadlı, Şuşa şəhərlərini, dörd qəsəbə ilə yanaşı, 300-ə yaxın kənd və bir sıra strateji əhəmiyyətli yüksəklikləri düşmən tapdağından azad edən ordumuz Ali Baş Komandanın rəhbərliyi altında hərb sahəsində yeni döyüş strategiyasının əsasını qoydu. Silahlı Qüvvələrimiz sahib olduğu yeni nəsil silahları döyüş meydanında məharətlə tətbiq edərək XXI əsrin işğal altında olan torpaqların azad edilməsi uğrunda aparılan müharibə formasını bütün bəşəriyyətə nümayiş etdirdi. Azərbaycan Ordusu Vətən müharibəsində qazandığı qələbəsi ilə dünyanın ən güclü, müasir, hazırlıqlı, yüksək döyüş qabiliyyətinə malik orduları sırasında layiqli yer tutduğunu əyani şəkildə sübuta yetirdi. Əbəs yerə deyil ki, hazırda dünyanın aparıcı hərbi müəssisələrində Vətən müharibəsinin aparılmasının forma və qaydaları dərindən öyrənilməkdədir.

Vətən müharibəsi dövründə və sonrakı vaxtlarda cənab Prezidentin rəhbərliyi altında Ermənistanın işğalçı siyasətinin ən mötəbər beynəlxalq tədbirlərdə tutarlı şəkildə ifşa edilməsi diplomatiyamızın böyük uğurları sırasındadır. 2020-ci ilin noyabr və dekabr aylarında müəyyən növbəliklə Ağdam, Kəlbəcər, Laçın rayonları Azərbaycana qaytarıldıqdan sonra cari ilin avqust ayının 26-da Laçın şəhərinin, Zabux və Sus kəndlərinin Azərbaycan Ordusunun nəzarətinə keçməsi isə dövlətimizin başçısının düşmən üzərində növbəti diplomatik qələbəsi və yürütdüyü uğurlu siyasi kursun təntənəsi idi.

44 günlük Vətən müharibəsində şanlı Qələbənin qazanılmasında digər aidiyyəti güc strukturları ilə yanaşı, Dövlət Təhlükəsizliyi Xidmətinin fədakar əməkdaşlarının da danılmaz payı vardır. Haqq savaşımızın başlandığı ilk gündən etibarən Xidmətin şəxsi heyəti düşmənlə mübarizə işinə səfərbər olunmuş, əsgər və zabitlərimizin müəyyən marşrutlar üzrə hərəkətinin təhlükəsizliyini, silahlı qüvvələrimizi qabaqlayıcı əməliyyat və əks-kəşfiyyat məlumatları ilə təmin etmək vəzifəsini uğurla icra etmişdir. Böyük iftixarla qeyd edirik ki, bu gün Dövlət Təhlükəsizliyi Xidmətinin sıralarında 6 Vətən Müharibəsi Qəhrəmanı xidmət edir. Şəxsi heyətin müharibə zamanı ön və arxa cəbhədə göstərdiyi fədakarlığa verilən yüksək qiymət Dövlət Təhlükəsizliyi Xidmətinin 7 əməkdaşının "Zəfər", 11 əməkdaşının "Qarabağ" ordeninə, xeyli sayda əməkdaşın başqa orden və medallara layiq görülməsində öz məntiqi ifadəsini tapır.

Qürurla bildiririk ki, Müzəffər Ali Baş Komandanımızın qətiyyətli idarəçiliyi altında Dövlət Təhlükəsizliyi Xidməti düşmənin ölkəmizin ərazisində törətmək istədiyi terror-təxribat planlarının və niyyətlərinin qarşısının alınması istiqamətində bütün qüvvə və vasitələrini səfərbərliyə almaqla ordumuzun qalibiyyəti üçün həvalə olunmuş səlahiyyətlər çərçivəsində hərtərəfli dəstək göstərmiş, Ali Baş Komandanın bütün göstəriş və tapşırıqlarını peşəkarlıqla yerinə yetirmişdir. Bununla yanaşı, Ermənistandan Azərbaycana qarşı kiber məkanda və informasiya təhlükəsizliyi sahəsində də genişmiqyaslı təhdidlər olmuş və dezinformasiya fəaliyyəti aparılmış, belə cəhdlərin də qarşısı uğurla alınaraq, düşmənə qarşı əks həmlələr müvəffəqiyyətlə həyata keçirilmişdir. Vaxtında əldə olunmuş kəşfiyyat məlumatları düşmənin əks-hücumlarının qarşısının alınmasında, Silahlı Qüvvələrimiz tərəfindən uğurlu hərbi əməliyyatların keçirilməsi və ayrı-ayrı yaşayış məntəqələrimizin az itki ilə düşməndən azad edilməsində həlledici rol oynamışdır.

Müharibə dövründə Dövlət Təhlükəsizliyi Xidməti tərəfindən İraq və Suriyadan gətirilmiş, terror qruplaşması ilə əlaqəli olan şəxslərin radio danışıqlarının əldə olunması, döyüşlərdə iştirak edən livanlı muzdlu-terrorçunun saxlanılaraq məsuliyyətə cəlb edilməsi Azərbaycana qarşı aparılan hərbi əməliyyatlarda müəyyən maddi qarşılıq müqabilində düşmən tərəfində xarici vətəndaşların iştirakını təsbit edən faktlar kimi vurğulanmalıdır.

Müharibədən sonrakı dövrlərdə ağır məğlubiyyətdən dərs çıxarmayan erməni silahlı birləşmələrinin törətdikləri təxribatların qarşısının alınması məqsədilə 2020-ci ilin dekabr ayında Xocavənd rayonunun Hadrut qəsəbəsində və 2022-ci ilin mart ayında Xocalı rayonunun Fərrux yüksəkliyində Dövlət Təhlükəsizliyi Xidmətinin xüsusi təyinatlı qüvvələrinin keçirdikləri uğurlu antiterror əməliyyatları, həmçinin 2021-ci ilin may ayında Kəlbəcər rayonunun Dəmirdağ yüksəkliyində Azərbaycan Ordusunun təminat yollarını minalayan Ermənistanın kəşfiyyat-diversiya qrupunun terrorçuluq fəaliyyətinin qarşısının alınması əməliyyatı da xüsusilə qeyd edilməlidir.

Azərbaycanın illərdir Ermənistanın işğalı altında qalan ərazilərini azad etməsi əməliyyatına hər cür maneçilik törədilməsini qarşısına məqsəd qoymuş bir sıra xarici dairələrin müharibə dövründə hadisələri manipulyasiya cəhdləri boşa çıxdı. Döyüş meydanında gedən gərgin savaşın fonunda informasiya mübarizəsi çərçivəsində də düşmən tərəfindən ölkəmizə qarşı çirkin piar kampaniyası aparılır, Dağlıq Qarabağ münaqişəsinin alovlanması, Vətən müharibəsinin gedişatı barədə uydurma və yalan informasiyaların beynəlxalq cəmiyyətə çatdırılmasına çalışılırdı. Lakin düşmən döyüş meydanında olduğu kimi informasiya mübarizəsi sahəsində də uğursuzluğa düçar olmuşdur. Dövlətimizin başçısı cənab İlham Əliyev qalib sərkərdə olmaqla yanaşı, düşmənə qarşı informasiya müharibəsində də baş rolda çıxış edirdi. Müharibənin getdiyi dövrdə ölkə Prezidenti 30-a yaxın xarici kütləvi informasiya vasitələrinə müsahibələrində Dağlıq Qarabağ münaqişəsinin tarixi və Azərbaycanın apardığı Vətən müharibəsinin gedişi barədə həqiqətləri dünyaya bəyan edir, ona ünvanlanan bəzi təxribat xarakterli suallara yüksək diplomatik məharətlə cavab verirdi. Eyni zamanda bu müsahibələrdə Prezident İlham Əliyev qardaş Türkiyə Respublikasının müharibə boyu Azərbaycana verdiyi dəstəyi də xüsusilə vurğulayırdı.

Təbii ki, şanlı Zəfərin əldə olunmasında qardaş Türkiyə xalqının və dövlətinin müharibənin başlandığı ilk gündən canı və qanı ilə bağlı olduğu Azərbaycana göstərdiyi siyasi və mənəvi dəstəyi xüsusi olaraq qeyd etməliyik. Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan başda olmaqla qardaş ölkənin digər rəsmi şəxslərinin Azərbaycanın ərazi bütövlüyünü təmin etməsi yolunda apardığı savaşın onun haqq işi olduğunu və dəstəyin sona qədər göstəriləcəyini bəyan edən fikirlər səsləndirmələri və bəyanatlar vermələri bu müqəddəs missiyanın uğurla başa çatdırılmasında mühüm rol oynamışdır.

> **"Azərbaycan 44 gün ərzində parlaq qələbə qazanaraq Ermənistanı məğlub etdi, işğala son qoydu. Bu 44 günün hər günü bizim şanlı tariximizdir".**
>
> **İlham ƏLİYEV,**
> **Azərbaycan Respublikasının Prezidenti**

Vətən müharibəsindən sonra hər iki dövlətin sarsılmaz birliyinin daha bir təcəssümü kimi Türkiyə və Azərbaycan prezidentlərinin 2020-ci ilin dekabr ayında Bakı şəhərində, Azadlıq meydanında keçirilən Zəfər paradında birgə iştirakı da bütün dünyaya Türkiyə-Azərbaycan qardaşlığını və dostluğunu bir daha göstərdi.

2021-ci ilin 15 iyun tarixində Şuşa şəhərində imzalanan müttəfiqlik münasibətləri haqqında Bəyannamə isə Azərbaycan və Türkiyə arasında strateji tərəfdaşlığı, xalqların maraq və mənafelərinin qorunmasını, iki dövlətin bir-birilərinin müstəqilliyinə, ərazi bütövlüyünə, təhlükəsizliyinə qarşılıqlı hərtərəfli dəstəyin göstərilməsini, bütün önəmli sahələr üzrə ikitərəfli əlaqələrin inkişaf etdirilməsinin vacibliyini rəhbər tutmaqla mövcud münasibətlərə yeni çalar verdi. Bəyannamədə Azərbaycanın və Türkiyənin milli təhlükəsizlik məsələləri ilə bağlı məsləhətləşmələrin aparılması üçün mütəmadi qaydada birgə iclaslarının keçirilməsinin nəzərdə tutulması dövlətlərin təhlükəsizliyinin təminatı üzrə qarşılıqlı əlaqələri daha yüksək səviyyəyə qaldırmışdır.

Hazırda Prezident İlham Əliyevin rəhbərliyi altında müasir və müstəqil Azərbaycan özünün ən qüdrətli dövrünü yaşayır. Vətən müharibəsində qazanılan, tariximizə qızıl hərflərlə yazılan Zəfərimiz Azərbaycanın nə dərəcədə sarsılmaz dövlət olduğunu, xalqımızın əzmini və həmrəyliyini bütün dünyaya nümayiş etdirdi. Dövlətimizin başçısının da dediyi kimi, biz bu torpaqları danışıqlar yolu ilə yox, şəhidlərimizin canı, qanı bahasına geri aldıq. Hər birimiz Vətən müharibəsində qazanılan tarixi qələbəyə görə şəhidlərimizə, bu yolda sağlamlıqlarını itirmiş müharibə iştirakçılarına borcluyuq.

Qeyd etmək lazımdır ki, Vətən müharibəsi dövründə əsir və itkin düşmüş hərbi qulluqçularımızın qaytarılması və axtarışı üzrə də lazımi işlər görülmüş və bu fəaliyyət hazırda da davam etdirilməkdədir. Azərbaycan Respublikası Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyası tərəfindən aidiyyəti dövlət orqanları və beynəlxalq qurumlarla əməkdaşlıq çərçivəsində həyata keçirilən operativ və təxirəsalınmaz tədbirlər nəticəsində 12 hərbçimizin döyüş əməliyyatlarının gedişində yaralanaraq əsir götürüldüyü məlum olmuş və beynəlxalq təşkilatların vasitəçiliyi ilə onlar qısa müddətdə azad edilərək Vətənə qaytarılmışlar. Lakin təəssüflər olsun ki, 6 hərbi qulluqçumuzun taleyi hələ də qeyri-müəyyən olaraq qalmaqdadır və onların axtarışı prosesi hazırda aktiv şəkildə davam etdirilir. İnanırıq ki, onların yaxınlarının və ailə üzvlərinin həsrətinə tez bir zamanda son qoyulacaq və hərbçilərimizin taleyinə tezliklə aydınlıq gələcəkdir.

Bu gün şəhid ailələrinin və müharibə iştirakçılarının üzləşdikləri çətinliklərin və problemlərin həlli, onları narahat edən məsələlərə xüsusi diqqət və qayğı göstərilməsi dövlət başçısının yürütdüyü sosialyönümlü siyasətin mərkəzində dayanan prioritet vəzifədir. Digər dövlət qurumları kimi öz səlahiyyətləri çərçivəsində Dövlət Təhlükəsizliyi Xidməti də bu yönümdə müəyyən fəaliyyət həyata keçirir, qeyd olunan kontingentə aid vətəndaşların Xidmətə etdikləri müraciətlərə xüsusi həssaslıqla yanaşılır, həlli yönümündə zəruri əməli addımlar atılır. Eyni zamanda qeyd etmək istərdik ki, Dövlət Təhlükəsizliyi Xidməti tərəfindən bu kateqoriyadan olan vətəndaşlarımızla mütəmadi görüşlər keçirilir, onların sosial problemlərinin həlli üçün müvafiq kömək göstərilir. Bununla yanaşı, Dövlət Təhlükəsizliyi Xidmətində çalışmaq istəyi ilə müraciət edən şəhid ailə üzvlərinin, müharibə ilə əlaqədar əlilliyi olan şəxslərin, müharibə veteranları və iştirakçılarının Xidmətdə işlə təmin olunması istiqamətində də müvafiq tədbirlər görülməkdədir.

Beləliklə, bu il Azərbaycan xalqı iki il bundan əvvəl tarixinə ən şanlı gün kimi düşmüş, Prezident İlham Əliyevin 3 dekabr 2020-ci ildə imzaladığı müvafiq sərəncamla Azərbaycan Respublikasında Zəfər Günü elan etdiyi 8 noyabr tarixinin növbəti ildönümünü böyük sevinc və fəxarətlə qeyd edir. Müzəffər Ali Baş Komandanın rəhbərliyi altında qazanılan bu qələbə ilə Azərbaycan xalqı qüdrətli xalq olduğunu, Azərbaycan dövləti qalib dövlət olduğunu bütün dünyaya göstərdi. Dövlətimizin başçısının da dediyi kimi, bu gün Azərbaycan xalqı müzəffər xalq kimi yaşayır. Bu gün Azərbaycan dövləti qalib dövlət kimi yaşayır. Biz bundan sonra müzəffər xalq və qalib dövlət kimi əbədi yaşayacağıq!

Qətiyyətlə inanırıq ki, "Düşməni torpaqlarımızdan qısa müddət ərzində qovduğumuz kimi, Qarabağı da qısa müddətdə bərpa edəcəyik" söyləyən Prezident İlham Əliyevin rəhbərliyi və birbaşa nəzarəti altında intensiv şəkildə genişmiqyaslı bərpa-quruculuq işlərinin aparıldığı və vətəndaşlarımızın Böyük qayıdışının həyata keçirildiyi Qarabağımız tezliklə keçmiş əzəmətini qaytararaq dünyanın ən çox ziyarət olunan və ən abad yerlərindən birinə çevriləcəkdir.

Ermənistanda revanşist hisslərlə yaşayan qüvvələr və onlara havadarlıq edən xarici dairələr isə regionda yaranmış yeni reallıqları qəbul etməli, Azərbaycanın təhlükəsizliyinə risk yaradacaq bütün çirkin əməllərdən çəkinməlidirlər. Əks halda nəzərə almalıdırlar ki, dövlət başçısının dediyi kimi, "Dəmir yumruq yerindədir!": "Erməni faşizmi məhv edilib, ancaq onun təzahürləri görünməkdədir. Bu, çox təhlükəli tendensiyadır, ilk növbədə, Ermənistan dövləti üçün. Mən bunu demişəm, bir daha deyirəm, əgər biz görsək ki, erməni faşizmi baş qaldırır, əgər biz görsək ki, xalqımıza, dövlətimizə yeni təhlükə mənbəyi yaranır, heç tərəddüd etmədən erməni faşizminin başını bir daha əzəcəyik. Bunu hər kəs bilsin! Müharibənin və Qələbənin rəmzi olan "Dəmir yumruq" yerindədir, bunu heç kim unutmasın!".

Bu gün "Azərbaycan Respublikasının işğaldan azad olunmuş ərazilərində müvəqqəti xüsusi idarəetmənin təşkili haqqında" Azərbaycan Respublikası Prezidentinin 29 oktyabr 2020-ci il tarixli fərmanına uyğun olaraq, 44 günlük Vətən müharibəsi zamanı azad olunmuş torpaqlarda yaradılmış Dövlət Təhlükəsizliyi Xidmətinin yerli idarə və şöbələri tərəfindən xidməti fəaliyyətdən irəli gələn vəzifələr uğurla icra olunur, əməliyyat şəraiti daim nəzarətdə saxlanılmaqla təhlükəsizliyin etibarlı təminatı məqsədilə kəsərli tədbirlər görülür. Ölkə Prezidentinin hər zaman diqqət və qayğısını hiss edən Dövlət Təhlükəsizliyi Xidmətinin əməkdaşlarının respublikamızın digər şəhər və rayonlarında olduğu kimi işğaldan azad olunmuş torpaqlardakı ərazi orqanlarında da öz xidmətlərini daha səmərəli, çevik və operativ təşkil etmələri üçün hərtərəfli şərait yaradılmış, maddi-texniki təchizat ən yüksək səviyyədə təmin olunmuşdur. Bu bir daha Ali Baş Komandan cənab İlham Əliyevin Dövlət Təhlükəsizliyi Xidmətinin şəxsi heyətinə göstərdiyi etibarın və etimadın bariz təcəssümüdür.

*Dövlətimizin başçısını və xalqımızı əmin edirik ki, Dövlət Təhlükəsizliyi Xidmətinin şəxsi heyəti dövlətimizin ərazi bütövlüyünə, suverenliyinə, ölkədəki ictimai-siyasi sabitliyə və təhlükəsizlik mühitinə yönələn hər cür təhdidlərin qarşısını bundan sonra da qətiyyətlə alacaq, doğma Vətənin qorunması və müdafiəsi yolunda ümdə vəzifələrin lazımi səviyyədə icrası üçün bundan sonra da bütün qüvvə və vasitələrini səfərbər edəcək, xidməti borclarını layiqincə və vicdanla yerinə yetirərək, dövlətçiliyimizin və müstəqilliyimizin keşiyində daim ayıq-sayıq, sərvaxt duracaqdır!*

**Əli NAĞIYEV,**
***Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin rəisi general-polkovnik***



# İlham Əliyevin Zəfər salnaməsi

**Azərbaycan xalqı tarixinin ən qüdrətli dövlətinin Zəfər salnaməsinin, ədalət uğrunda qətiyyətli qələbəsinin ikinci ilini böyük coşqu ilə qeyd edir. Çünki bu, son 200 illik tariximizdə qazandığımız ən böyük qələbədir.**

Qürurluyuq, alnımız açıq, başımız dikdir!

Bu Zəfər 30 il köksümüzə dağ çəkib qaysaqlanmayan yaralara da məlhəm olub. Daha işğal tarixlərinin acı xatirələrini deyil, qələbəmizin iftixarını, təntənəsini yaşayırıq...

İki il öncə haqq savaşına qalxan Azərbaycanın cəmi 44 günə qazandığı möhtəşəm qələbə 30 illik həsrətə son qoyub şanlı tariximizdə yeni səhifə açdı. Bu möhtəşəm qələbənin, Zəfərin baş memarı isə, əlbəttə ki, Müzəffər Komandan cənab İlham Əliyevdir.

Azərbaycanın ən yeni tarixini yazan Baş Sərkərdəmiz bütün nailiyyətləri ilə yanaşı, həm də işğal altında olan torpaqlarımızın xilaskarı oldu, çox qısa zaman ərzində Azərbaycanın uğur tarixini yazdı. Bütün çıxışlarında "Qarabağ Azərbaycandır!" - deyən Prezident İlham Əliyev onu gerçəkliyə çevirdi. Uzun illər beynəlxalq təşkilatların, bəzi böyük dövlətlərin himayə etdiyi işğalçı Ermənistan Azərbaycan Prezidentinin hərbi-siyasi diplomatiyası qarşısında diz çökdü.

Ali Baş Komandan uğurlu "Dəmir yumruq" əməliyyatı ilə bütün dünyaya həm də bacarıqlı, qətiyyətli Sərkərdə olduğunu isbatladı. Bu əməliyyat ilk növbədə xalq-ordu-dövlət birliyinin bariz təcəssümü oldu. Dünya müstəqilliyinin cəmi 29 yaşı olan Azərbaycanın hansı gücə sahib olduğuna şahidlik etdi və işğalçı Ermənistana illərlə havadarlıq edən hər hansı bir qüvvə haqq savaşımıza əngəl yarada bilmədi. Dünyanın ən böyük siyasi təşkilatı olan BMT-nin Təhlükəsizlik Şurasının illər öncə qəbul etdiyi və 2020-ci ilə qədər kağız üzərində qalan qətnamələrinin icrasını Azərbaycan güc yolu ilə reallığa çevirdi. Bununla da Ali Baş Komandan İlham Əliyev bir daha dünyaya bəyan etdi ki, yaşadığımız müasir dövrdə hüququn əsasları deyil, güc amili ən mühüm silahdır.

## Böyük Zəfərə aparan gerçəkliyin əsasları

Keçmiş Dağlıq Qarabağ münaqişəsinin cəmi 44 günə tarixə çevrilməsi qürurverici reallıqdır. Lakin həmin 44 gün üçün müvafiq şəraitin, yetərli gücün əldə edilməsi heç də qısa zamanda baş vermədi. Bu, illərlə çəkilən zəhmətin, aparılan müstəqil siyasətin, hücum diplomatiyasının və qətiyyətli qərarların sayəsində reallaşdı.

Ulu Öndər Heydər Əliyevin inkişaf konsepsiyasını uğurla davam etdirən layiqli varisi, 2003-cü ildə Azərbaycan xalqının inanaraq, güvənərək etimad mandatı verib özünə Prezident seçdiyi cənab İlham Əliyev 2020-ci ilə qədər, yəni 17 ildə elə bir siyasət, elə bir diplomatiya yürütdü ki, dünya ilk növbədə Azərbaycan həqiqətlərini görüb onları qəbul etməyə başladı. Getdikcə Ermənistanı işğalçı dövlət kimi tanıyan ölkələrin sayı artdı. Beynəlxalq təşkilatların qəbul etdiyi qərar və qətnamələrdə əsl reallıqlar öz əksini tapdı. Dünyanın əksər ölkələrində təşkilatlanaraq Azərbaycana qarşı müxtəlif kampaniyaların həyata keçirilməsinə hər cür dəstək verən erməni diasporu getdikcə həqiqətlər qarşısında aciz duruma düşdü. Azərbaycanın etibarlı tərəfdaşlarının sayı durmadan artdı. Qısa zamanda ölkəmiz Avropanın enerji təhlükəsizliyinin təminatçısına çevrildi. Azərbaycan qlobal miqyaslı layihələrin reallaşmasına həm müəlliflik etdi, həm də təşəbbüskarlıq göstərdi. Beynəlxalq siyasi arenada qazanılan uğurlar Azərbaycana siyasi dividendlər qazandırdı.

Azərbaycan reallaşdırdığı qlobal layihələrlə Avropanın enerji xəritəsini dəyişdi və çox keçmədi ki, ölkəmiz həm də beynəlxalq təşkilatlara rəhbərlik etməyə başladı. Təkcə BMT-dən sonra dünyada ikinci böyük beynəlxalq təşkilat olan Qoşulmama Hərəkatına uğurlu sədrliyi göstərmək yetərlidir.

İlham Əliyev yürütdüyü tam müstəqil siyasətlə, reallaşdırdığı qlobal miqyaslı layihələrlə ən islahatçı Prezident, sözünə, vədinə sadiq lider kimi nüfuzunu getdikcə artırdı. Elə bir beynəlxalq tədbir olmadı ki, cənab İlham Əliyev oradakı ali kürsüdə çıxış edərkən Ermənistanın Azərbaycana qarşı təcavüzü və münaqişənin sülh yolu ilə həllinə tərəfdar olduğunu bəyan etməsin.

Bütün bunlarla yanaşı, ölkə daxilində həyata keçirilən mütərəqqi sosial-iqtisadi islahatlar Azərbaycanda sürətli inkişafa real zəmin yaratdı. Məhz bunun səbəbi idi ki, Azərbaycan dünyanı bürüyən qlobal iqtisadi böhranlardan hər zaman ən az itki ilə çıxan ölkə oldu. Qısa zamanda Azərbaycan həm iqtisadi, həm də siyasi müstəqilliyini təmin edən ölkəyə çevrildi. Bütün bu uğurları Azərbaycan torpaqlarının 20 faizi işğal altında olan, daim ikili standartlar prinsipləri ilə üzləşən, qarayaxma, böhtan kampaniyaları ilə mübarizə aparan ölkə olaraq əldə etdi.

Təbii ki, iqtisadi güc artdıqca torpaqları işğal altında olan dövlət ordu quruculuğu, silahlı qüvvələrinin arsenalının gücləndirilməsi prosesini də reallaşdırmalı idi. Çünki uzaqgörən lider kimi İlham Əliyev bilirdi ki, hüququn gücünün həll edə bilməyəcəyi məsələni lazım gəldikdə hərbi güc həll edə bilər.

Məhz bu səbəbdən də cənab İlham Əliyev Silahlı Qüvvələrin Ali Baş Komandanı kimi ordu quruculuğuna dair bütün mühüm tədbirləri ardıcıl surətdə, dünya təcrübəsi nəzərə alınmaqla həyata keçirdi. Silahlı Qüvvələrin maddi-texniki bazasının möhkəmləndirilməsi istiqamətində atılan addımlar milli ordumuzun dünyanın ən qüdrətli silahlı birləşmələri sırasına daxil olmasına imkan yaratdı. Prezident İlham Əliyev dövlət quruculuğunda ordu ilə bağlı məsələlərin mahiyyətini açıqlayaraq bildirirdi ki, orduya hər il ayrılan xərclər artır və bu siyasət davam etdiriləcək. Əlbəttə ki, ölkəmizin artan iqtisadi qüdrəti imkan verirdi ki, ordumuzun maddi-texniki bazası daha da güclənsin.

2015-ci il noyabrın 24-də keçirilən beşinci çağırış Milli Məclisin ilk iclasında çıxış edən dövlət başçısı vurğuladı ki, bu gün əfsuslar olsun dünyada beynəlxalq hüquq normaları arxa plana keçib. İndi güc amili əsas rol oynayır. Kim güclüdür, o da haqlıdır. Ona görə də biz daha da güclü olmalıyıq. Cənab Prezident bir daha ölkənin hərbi potensialının möhkəmləndirilməsinin vacibliyini qeyd edərək həm siyasi, həm iqtisadi, həm də hərbi gücün daha da artırılmasının prioritet məsələ olduğunu dedi. Prezident haqlı olaraq məsələni belə əsaslandırdı ki, bu, həm Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli və eyni zamanda ölkəmizin təhlükəsizliyini təmin etmək üçün lazımdır.

Beləliklə, yeni inkişaf mərhələsinə qədəm qoyan Azərbaycan Silahlı Qüvvələrində böyük dəyişikliklər baş verir. Bu prosesə xüsusi diqqət göstərən Ali Baş Komandanın tapşırıqlarına uyğun olaraq müasir standartlara uyğun yeni-yeni hərbi hissələr qurulur, şəxsi heyətin həyat və məişət şəraiti daha da yaxşılaşdırılır, ordumuzun arsenalı ən müasir silah-sursatla, hərbi texnikalarla təmin edilir. Məhz bu qərarların sayəsində Silahlı Qüvvələrimiz Cənubi Qafqazın ən güclü ordusuna çevrilir.

2016-cı ildə düşmənin cəbhənin müxtəlif istiqamətindəki təxribatlarına cavab olaraq əks-həmlə əməliyyatı keçirən Azərbaycan Ordusu nəyə qadir olduğunu göstərir. Dördgünlük Aprel döyüşləri 1994-cü ildə Azərbaycanla Ermənistan arasında imzalanan atəşkəsdən sonra ilk ən şiddətli savaş sayılır. Aprel Zəfəri düşmənin canına vəlvələ salır. Çünki düşmən şahidlik edir ki, Azərbaycan Ordusunun təkcə xüsusi təyinatlı qüvvələrinin kiçik həmləsi ilə erməni əsgəri işğal altında saxladığı nə qədər böyük əraziləri, strateji yüksəklikləri qoyub geri qaçdı.

Bu döyüşlər nəticəsində Tərtər rayonunun Talış kəndi ətrafındakı yüksəkliklər, Cəbrayıl rayonunun Lələtəpə yüksəkliyi və Cocuq Mərcanlı, Goranboy rayonunun Gülüstan kəndi, Tərtərin Qazaxlar kəndi və Suqovuşan kəndi istiqamətində yollar düşməndən azad olundu.

2018-ci ildə isə uğurlu Günnüt əməliyyatı keçirildi və düşmənə sarsıdıcı zərbələr endirildi. Naxçıvan Muxtar Respublikasının Əlahiddə Ümumqoşun Ordusunun əks-həmlə əməliyyatı nəticəsində Şərur rayonunun Günnüt kəndi, Ağbulaq yüksəkliyi, Qızılqaya dağı, Qaraqaya dağı azad olundu, Dərələyəz mahalının Arpa kəndi isə Azərbaycan Ordusunun nəzarəti altına keçdi. Döyüşlər nəticəsində, ümumən, 11 min hektarlıq ərazi azad edildi və əməliyyat Azərbaycan Silahlı Qüvvələrinə İrəvan-Yeğeqnadzor-Gorus-Laçın-Xankəndi avtomobil yoluna nəzarət etməyə imkan verdi.

Bir sözlə, Azərbaycan Ordusunun Aprel və Günnüt zəfərləri həm də xalqımızın mübarizə ruhunu yüksəltdi, ümidlərə işıq saçdı və hər kəsə bəlli oldu ki, Ali Baş Komandanın qüdrətli ordusu işğal altında olan torpaqlarımızı geri qaytarmağa, hər cür döyüş tapşırığını yerinə yetirməyə qadirdir.

## İkinci Qarabağ savaşı, ilk qığılcım

2020-ci ilin iyulunda baş verən Tovuz döyüşləri İkinci Qarabağ müharibəsinin başlanmasını şərtləndirən qığılcım oldu. İyulun 12-də Ermənistan silahlı birləşmələrinin Azərbaycanın dövlət sərhədinin Tovuz rayonu istiqamətində törətdikləri təxribatların qarşısı qətiyyətlə alındı.

Tovuz döyüşlərində ordumuzun əsgər və yüksəkrütbəli zabitləri qəhrəmanlıq və igidlik nümunələri göstərərək, erməni işğalçılarının törətdikləri təxribatların qarşısını qətiyyətlə aldılar. Bu döyüşlərdə general-mayor Polad Həşimov, polkovnik İlqar Mirzəyev və daha bir neçə zabit, gizir və əsgərlərimiz qəhrəmancasına savaşaraq şəhidlik zirvəsinə ucaldılar.

Nəinki Ermənistan, bütün dünya şahidlik etdi ki, Azərbaycan Ordusunun generalları və zabitləri öz əsgərləri ilə çiyin-çiyinə döyüşür, onları ruhlandırır və nümunə göstərirlər.

Şəhidlərimizin son mənzilə salınmasında böyük xalq izdihamı yaşandı. Həmin günlər Azərbaycan xalqı yenə ayaqda idi. Hər kəs döyüşmək, işğal altında olan torpaqlarımızı azad etmək üçün Ali Baş Komandanın ətrafında sıx birləşdiyini bəyan edirdi. Düşmənə qarşı nifrət yüksək idi, axıdılan nahaq qanların qisasının alınması üçün hər kəs "savaş" deyirdi. Bu döyüş Azərbaycanda xalq-prezident-ordu birliyini bir yumruq ətrafında birləşdirdi.

Hər zaman olduğu kimi, yenə də heç bir beynəlxalq təşkilat, hətta münaqişənin sülh yolu ilə həlli üçün yaradılmış ATƏT-in sabiq Minsk qrupu, digər böyük dövlətlər Ermənistana təzyiq göstərmədilər, işğalçıya, təxribatçıya qarşı hər hansı sanksiya tətbiq etmədilər. Hər zaman bu cəzasızlıq mühitindən yararlanan Ermənistan təxribatlarından əl çəkmədi. Azərbaycanda isə hər kəsə bəlli idi ki, rəsmi İrəvan bu cür çirkin əməllərindən əl çəkən deyil. Çünki bu, Ermənistanın terrorçu rəhbərliyinin ölkədə daxili çaxnaşmaları yatırmaq, diqqəti cəbhəyə yönəltmək üçün istifadə ediyi köhnə "taktika" idi.

Nikol Paşinyanın ölkədə baş nazir seçilməsindən sonra vəziyyət əvvəlcə bir qədər dəyişdi. Baş nazir müxtəlif açıqlamalarında münaqişənin sülh yolu ilə həllinin mümkünlüyünü vurğulamaqla hətta özündən əvvəlki hakimiyyəti indiyədək problemin çözülməməsi işində də qınayırdı. Lakin zaman keçdi və Paşinyanın da əsl erməni xisləti ortaya çıxdı.

Əvvəlcə 2019-cu ilin mayında baş nazir Şuşada spirtli içki içib yallı getdi, ardınca Xankəndidə çıxışı zamanı "Qarabağ Ermənistandır və nöqtə" - deyib sərsəmlədi. Sonra isə "münaqişənin həlli Azərbaycan xalqı, Ermənistan xalqı və Dağlıq Qarabağın "xalqı" üçün məqbul olmalıdır" iddiasını səsləndirdi.

Prezident İlham Əliyev isə Paşinyanın bu sərsəm iddialarına Rusiyada qətiyyətli cavab verdi. Soçidə "Valday" Beynəlxalq Diskussiya Klubunun iclasının plenar sessiyasında iştirak edən Azərbaycan Prezidenti münaqişənin tarixi və mövcud durum barədə məlumat verdikdən sonra Paşinyanın nöqtəsinin qarşısına nida işarəsi qoyaraq "Qarabağ Azərbaycandır!" söylədi.

Paşinyanın sərsəm açıqlamaları, boş-boş iddiaları və Azərbaycanın işğal edilmiş torpaqlarında qeyri-qanuni məskunlaşmanın aparılması münaqişənin sülh yolu ilə həllinə tərəfdar olan xalqımızın səbir kasasını daşırmaya bilməzdi. Bu, azmış kimi işğalçı ölkə Azərbaycanı təxribatlara çəkmək üçün cəbhənin müxtəlif istiqamətlərinə hərbi texnikalar gətirib açıq-aşkar müharibəyə hazırlaşdığını göstərirdi. Hətta yeni müharibəyə hazırlaşdıqları üçün könüllülərdən ibarət qoşunun yaradıldığını da gizlətmirdilər. Azərbaycan Prezidenti isə bütün çıxışlarında, müsahibələrində dünyaya bəyan edirdi ki, Ermənistan müharibəyə hazırlıq görür, bunun qarşısı vaxtında alınmalıdır. Yenə də beynəlxalq təşkilatlar ənənələrinə sadiq qalaraq işğalçıya heç bir xəbərdarlıq etmədilər və bunun da nəticəsi 2020-ci ilin sentyabrın 27-də özünü büruzə verdi. Cəbhənin bütün istiqamətləri boyunca təxribatlara əl atan Ermənistan tarixinin ən səhv gedişini etdi. O səhv ki, işğalçı ölkəyə hələ uzun illər sağalmayacaq sarsıdıcı, ölümcül zərbə vurdu.

Düşmənin təxribatlarına cavab olaraq Ali Baş Komandan İlham Əliyev Azərbaycan Ordusuna illərlə gözlənilən əmri verdi - İrəli!

Azərbaycan Ordusu Müzəffər Komandanın "Dəmir yunruq" əməliyyatının icrasına başladı. Ölkədə prezident-xalq-ordu birliyi Azərbaycanı şanlı qələbəyə apardı. Sentyabrın 27-dən başlanan Zəfər yürüşü noyabrın 8-də Qarabağın ürəyi - Şuşada dayandı.

Azərbaycana hədə-qorxu gələn, illərlə düzəltdikləri istehkamlara güvənən Ermənistan cəmi 44 günə diz çökdü. Azərbaycanın igid oğullarının döyüş əzmi qarşısında erməni əsgəri silahını, bayrağını atıb qaçmaq məcburiyyətində qaldı.

Bu dövrdə ordumuz cəbhədə hər gün uğur qazanırdısa, Prezident İlham Əliyev diplomatik məharəti ilə Azərbaycana təzyiq etmək istəyən qüvvələrə elə tutarlı cavablar verirdi ki, xalqın ürəyi dağa dönürdü. 44 gün ərzində dünyanın elə bir mötəbər KİV-i qalmadı ki, Azərbaycan Prezidentindən müsahibə götürməsin. Bütün müsahibələrində dövlət başçısı bəyan edirdi ki, Azərbaycan haqq yolundadır və kimlərsə, hansısa telefon zəngləri bizi durdura bilməz.

Bu, tariximizə yazılan möhtəşəm bir dövr idi. Ordumuzun şəhər və rayonları ard-arda işğaldan azad etməsi, dövlət başçımızın xalqa müjdəli xəbərləri, qardaş Türkiyə və Pakistanın müharibə başlayan andan son günədək Azərbaycana birmənalı mənəvi dəstək verməleri xalqımızı daha da ruhlandırdı və ürəkləri dağa döndərdi. Qardaş Türkiyə rəsmən bəyan etdi ki, haqq savaşı aparan Azərbaycanı durdurmaq istəyən istənilən qüvvə qarşısında Türkiyəni görəcək. Bu, həqiqətən də, əsl qardaş qayğısı idi. Məhz bu birlikdən güc alan Azərbaycan Silahlı Qüvvələri uğurlu missiyasını şərəflə tamamladı.

Prezident İlham Əliyev 30 illik işğal dövründən sonra Şuşaya ayaq basan ilk dövlət başçımız oldu və Qalib Komandan kimi mədəniyyət paytaxtımızdan dünyaya mesaj verdi ki, beynəlxalq təşkilatların illərlə həll edə bilmədikləri məsələni Azərbaycan öz gücünə cəmi 44 günə bitirdi, işğalçı, terrorçu qruplaşmalar Azərbaycan torpaqlarından qovuldu.

Azərbaycan İkinci Qarabağ müharibəsində hələ heç bir dövlətin həyata keçirməmədiyi döyüş taktikasını nümayiş etdirdi. Hərbi ekspertlər Azərbaycanın haqq savaşını "smart müharibə" adlandırdılar. İkinci Qarabağ savaşına qədər heç bir müharibədə bu qədər PUA-lardan, zərbə dronlarından istifadə edilməmişdi. Ordumuzun həyata keçirdiyi döyüş taktikası Azərbaycanın hərbi qüdrətini bir daha nümayiş etdirdi. Ali Baş Komandan isə bu müharibəni XXI əsrin yeni savaşı adlandırdı.

Məhz bu müasir döyüş modeli ilə Azərbaycan Ordusu sentyabrın 27-dən noyabrın 9-dək davam edən savaşda 5 şəhəri, 4 qəsəbəni və 286 kəndi işğaldan azad etdi. Cəbrayıl şəhəri və rayonun 90 kəndi, Füzuli şəhəri və rayonun 53 kəndi, Zəngilan şəhəri, rayonun 3 qəsəbəsi və 52 kəndi, Xocavənd rayonunun Hadrut qəsəbəsi və 35 kəndi, Tərtər rayonunun 3 kəndi, Qubadlı şəhəri və rayonun 41 kəndi, Xocalı rayonunun 9 kəndi, Şuşa şəhəri, Laçın rayonunun 3 kəndi, həmçinin Ağdərə, Murovdağ və Zəngilan istiqamətlərində strateji yüksəkliklər azad olundu.

Vətən savaşında Ermənistan silahlı qüvvələrinin 4 milyard dollardan artıq silah-sursatı, hərbi texnikası məhv edildi. Düşmənə məxsus xeyli sayda zirehli texnika, silah-sursatlar, yük avtomobilləri hərbi qənimət kimi götürüldü. Bu gün onların hamısı Qənimətlər Parkında nümayiş etdirilir.

Noyabrın 10-da Rusiya Prezidenti Vladimir Putin, Azərbaycan Prezidenti İlham Əliyev və Ermənistanın baş naziri Nikol Paşinyan Qarabağ münaqişəsinin başa çatması ilə bağlı birgə Bəyanat imzaladılar. Bəyanatın müddəalarına əsasən noyabrın 20-də Ağdam rayonunun işğal edilmiş 73 faiz ərazisi, o cümlədən Ağdam şəhəri Azərbaycana təhvil verildi. Noyabrın 25-də Kəlbəcər şəhəri də daxil olmaqla, rayonun 147 yaşayış məntəqəsi işğaldan azad edildi. Dekabrın 1-də Laçın şəhəri və 126 yaşayış məntəqəsi bir güllə atılmadan Azərbaycana qaytarıldı. Sənədə əsasən hər iki ölkə üzərinə öhdəliklər götürdü.

## Şuşa Bəyannaməsi, dəmir iradə ilə yenidən qurulan Qarabağ və Şərqi Zəngəzur

Sözünə, vədinə sadiq lider kimi Prezident İlham Əliyev müharibədən sonra regionda yaranan yeni reallıqlar fonunda əməli işə başladı.

2021-ci il iyul ayının 15-də, Milli Qurtuluş Günündə Azərbaycan və Türkiyə prezidentləri cənab İlham Əliyevlə hörmətli Rəcəb Tayyib Ərdoğan Şuşadan dünyaya daha bir mesaj ünvanladılar. Şuşa Bəyannaməsini imzalayan qardaş prezidentlər bəyan etdilər ki, Azərbaycan və Türkiyə birliyi sarsılmazdır, əbədidir. Şuşa Bəyannaməsində ən önəmli məqamlardan biri də o idi ki, bundan sonra iki dövlətin ərazi bütövlüyünə, suverenliyinə üçüncü dövlət və ya dövlətlər tərəfindən təhdid və ya təcavüz edildiyi təqdirdə bir-birini qoruyacaqlar. Yəni birgə tədbirlər görülməsi üçün müdafiə ehtiyaclarının ödənilməsinə qərar veriləcək və Silahlı Qüvvələrin güc və idarəetmə strukturlarının əlaqələndirilmiş fəaliyyəti təşkil olunacaq. Əlbəttə ki, bu hadisə iki dost-qardaş ölkənin birliyinin növbəti təntənəsi kimi tarixə qızıl hərflərlə yazıldı.

Qalib Komandan kimi İlham Əliyevin postmüharibə dövründə qarşıya qoyduğu ən prioritet məsələlər Qarabağ və Şərqi Zəngəzurun minalardan təmizləndikdən sonra yenidən qurulması və Ermənistanla sülh müqaviləsinin imzalanması prosesi oldu.

Azərbaycan hər iki istiqamətdə aktiv fəaliyyətə başladı. İşğaldan azad edilən rayonların baş planları təsdiqləndi və bu sənədlərə uyğun olaraq tikinti-quruculuq işlərinə start verildi. Cəmi iki ildə Qarabağ və Şərqi Zəngəzurda Azərbaycan tarixində misli görünməmiş yenidənqurma işləri həyata keçirildi. Cəmi bir neçə aya Prezidentin Zəfər yolu adlandırdığı Füzuli-Şuşa avtomobil yolu istifadəyə verildi. Bundan başqa, hər iki iqtisadi rayonda 17 yol-nəqliyyat infrastrukturunun inşasına başlanıldı və hazırda onların bir neçəsi istifadəyə verilib, bir qismi bu il, bəziləri isə növbəti illərdə rahat gediş-gəlişi təmin edəcək.

2021-ci ilin aprel ayının 26-da Prezident İlham Əliyev Böyük qayıdış planının ilk qaranquşu olan Zəngilan rayonunun Ağalı kəndinin təməlini qoymaqla bir daha dünyaya Azərbaycanla Ermənistanın fərqini göstərdi. Erməni vandalları 30 ildə işğal etdikləri torpaqlarımızda daşı-daş üstündə qoymadıqları halda, Azərbaycan cəmi 1 ildə bu yerlərdə həyatı yenidən bərpa edir və illərlə yurdundan-yuvasından didərgin düşmüş insanları öz doğma torpaqlarına qaytarmaq üçün bütün imkanlarını səfərbər edib.

Azərbaycan dövləti öz iqtisadi qüdrəti hesabına reallaşdırdığı layihələr içərisində hava limanları xüsusi yer tutur. Cəmi 8 aya tikilib istifadəyə verilən Qarabağın ilk "hava qapısı" adlandırılan Füzuli Beynəlxalq Hava Limanı hazırda yerli və xarici qonaqların ixtiyarındadır.

Ötən ilin oktyabr ayının 26-da iki qardaş Prezident - cənab İlham Əliyevlə Türkiyə lideri Rəcəb Tayyib Ərdoğan Qarabağın ilk "hava qapısı" adlandırılan Füzuli Beynəlxalq Hava Limanının açılışını etdilər. Liderlər həmçinin yeni-yeni obyektlərin təməlini qoyub xeyir-dualarını verdilər. Az keçmədi ki, Zəngilanda Şərqi Zəngəzurun ilk aeroportu inşa edildi və bu il oktyabrın 20-də xalqımıza ikiqat bayram sevincini yaşatdı. Həmin gün Zəngilan şəhərinin işğaldan azad olunmasının ikinci ildönümü idi. Məhz həmin gün açılışı olan Zəngəzurun ilk "hava qapısı" Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın təyyarəsini qəbul etdi. Bir il əvvəl olduğu kimi, həmin gün də iki qardaş prezident təntənəli açılış mərasimində iştirak etdilər. Dövlət başçıları həm Zəngilanda, həm də Cəbrayılda yeni-yeni obyektlərin də təməlini qoydular.

Artıq işğaldan azad edilmiş torpaqlarımıza həyat qayıdıb. Zəngilanın "ağıllı kənd" konsepsiyası əsasında yaradılan Ağalı kəndində insanlar xoşbəxt həyat sürməyə başlayıblar. Burada yaşayış üçün bütün infrastrukturlar yaradılıb. Tezliklə işğaldan azad olunan bütün torpaqlarımızda həyat qaynayacaq.

Onu da xüsusi olaraq vurğulamalıyıq ki, Qarabağ və Şərqi Zəngəzuru möhtəşəm tikinti-quruculuq meydanına çevirən Azərbaycan dövləti bütün bunları yalnız öz iqtisadi qüdrəti hesabına, heç bir beynəlxalq təşkilatdan maddi yardım almadan həyata keçirməkdədir. Bütün bunlar dövlət büdcəsindən ayrılan vəsaitlər hesabına reallaşır. Düşmənin 30 ildə darmadağın etdiyi bu ərazilərdə hazırda su-elektrik stansiyaları, elektrik enerjisi stansiyaları, hava limanları, dəmir yolu xətləri, avtomobil yolları, körpülər, tunellər, magistral su xətləri, müasir yaşayış kompleksləri, sosial-iqtisadi infrastrukturlar, sənaye parkları və aqroparklar, habelə müxtəlif heyvandarlıq müəssisələri yaradılır.

Bütün bunlarla yanaşı, erməni vandallarının darmadağın etdikləri tarixi, mədəni-dini abidələrimiz də bərpa edilir. Bu prosesdə Heydər Əliyev Fondunun da böyük zəhməti var. Belə ki, Birinci vitse-prezident Mehriban xanım Əliyevanın ciddi tapşırıq və tövsiyələri əsasında fond mədəni-dini irsimizi xalqa yenidən qaytarmaq missiyasını uğurla həyata keçirməkdədir. İndiyədək xeyli sayda dini abidələrimizin bərpa prosesi reallaşdırılıb.

Ümumiyyətlə, Heydər Əliyev Fondu fəaliyyət göstərdiyi ilk gündən Azərbaycanda müxtəlif sahələri əhatə edən layihə və proqramlar həyata keçirir. Fondun tarixi, mədəni və dini abidələrin qorunub saxlanması və bərpası istiqamətindəki fəaliyyəti hər zaman təqdirəlayiqdir. Bu gün isə fond işğaldan azad edilmiş tarixi torpaqlarımızda xalqımızın milli sərvəti olan dini abidələrimizin, məscidlərimizin bərpasını həyata keçirməklə missiyasına sadiqliyini bir daha nümayiş etdirir.

Böyük Zəfərdən cəmi iki il ötür. 24 ay o qədər də uzun zaman deyil. Amma bu müddətdə görülən işlərin miqyası, həcmi Azərbaycanın iqtisadi qüdrətinin göstəricisidir. Bütün bunların icrası üçün son iki ildə dövlət büdcəsindən ümumilikdə 4 milyard 870 milyon manat vəsait ayrılıb. Gələn ilin dövlət büdcəsindən isə bu məqsədlə 3 milyard manat vəsaitin ayrılması planlaşdırılır. Bu da 2022-ci illə müqayisədə 12,4 faiz, 2021-ci illə müqayisədə isə 37,7 faiz çoxdur. Bu xərclərin növbəti ildə dövlət büdcəsi xərclərində xüsusi çəkisi 9 faiz təşkil edəcək. Göründüyü kimi, dövlət Qarabağ və Şərqi Zəngəzurda yenidənqurma işlərinin həyata keçirilməsi üçün ayırdığı vəsaiti ilbəil artırır.

Bütün bunlar ilk növbədə Azərbaycanın 10 noyabr üçtərəfli Bəyanatında götürdüyü öhdəliklərə sadiqliyinin bariz nümunəsidir. Azərbaycan həm öz torpaqlarına həyat qaytarır, həm də Zəngəzur dəhlizinin açılması istiqamətində üzərinə götürdüyü öhdəlikləri yerinə yetirir. Dəhlizin bir parçası olan avtomobil və dəmir yollarının inşası, demək olar ki, artıq başa çatmaq üzrədir.

Lakin müharibənin başa çatmasından iki il ötməsinə baxmayaraq, Ermənistan sülh müqaviləsinin imzalanması prosesini uzatdığı kimi öhdəliklərinin icrasını da reallaşdırmır. Bu da əlbəttə ki, Azərbaycanın irəli sürdüyü 5 baza prinsipinə uyğun deyil. Prezident İlham Əliyev dəfələrlə vurğulayıb ki, sülh sazişi yalnız həmin 5 prinsip əsasında imzalana bilər. Ermənistan rəhbərliyi buna razılıq versə də, hər dəfə müxtəlif danışıqlar zamanı hansısa bəhanəni uydurmaqla prosesdən yayınır.

Həm Rusiya Prezidenti Vladimir Putinin vasitəçiliyi ilə indiyədək keçirilən 3 görüşdə, həm də Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişelin təşəbbüsü ilə reallaşan 5 görüşdə Ermənistanın heç bir iddiası, təklifi nəzərə alınmayıb. Bütün bunlar bir daha göstərir ki, sülh gündəliyini Azərbaycan Prezidenti müəyyənləşdirir. Sülh müqaviləsi yalnız Azərbaycanın milli maraqlarının təmin olunması şərtləri əsasında imzalana bilər.

Oktyabrın 31-də Soçidə keçirilən sonuncu görüşdə Azərbaycan Prezidenti bir daha qətiyyətli mövqeyini ortaya qoyaraq bəyan etdi ki, Qarabağ münaqişəsi artıq tarixdir. Bu münaqişə iki ilə əvvəl həll edilib və yenidən bu barədə müzakirə aparmağın mənası yoxdur. Qalib Komandan Rusiya Prezidenti Vladimir Putinlə keçirdiyi təkbətək görüşdə səsləndirdi ki, üçtərəfli görüşdə konkret mövzu, sülh müqaviləsinin imzalanma prosesi və tərəflərin götürdükləri öhdəliklərin icra prosesi müzakirə edilsin. Bu, Azərbaycan Prezidentinin qətiyyətli və prinsipial diplomatiyasının növbəti təntənəsi kimi qiymətləndirilir. Üçtərəfli görüşdə qəbul olunan bəyanatda göstərilənlər də təsdiq etdi ki, sülh müqaviləsi yalnız Azərbaycanın milli maraqları, irəli sürülən 5 prinsip əsasında hazırlanmalı və bundan sonra imzalanmalıdır.

*Azərbaycanın qətiyyətli və uzaqgörən Prezidentinin həyata keçirdiyi siyasət onu göstərir ki, məğlub Ermənistan istənilən qədər bəhanə gətirib sülh müqaviləsinin imzalanmasını ləngitsə də, vaxtı uzatsa da, sonunda imzalanacaq sənəddə qalibin maraqları təmin ediləcək. Zəngəzur dəhlizinin açılması ilə region yeni nəqliyyat-logistika mərkəzi kimi imkanlarını genişləndirəcək və Cənubi Qafqazda sülhün, təhlükəsizliyin təminatı getdikcə daha da möhkəmlənəcək.*

**Səttar MÖHBALIYEV,**
***Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri, Milli Məclisin deputatı***

# Bəşərə örnəkdir zəfərim mənim

Düşmənin murdar nəfəsindən təmizlənmiş havaya, aydın səmaya, yağıların ayaq izlərinin silindiyi torpaqlarımıza baxanda insan qürur duyur.

Salınan yollara, çəkilən tunellərə, tikilən binalara, quraşdırılan elektrik stansiyalarına, istifadəyə verilən hava limanlarına, yaşayış evlərinə, məktəblərə nəzər salanda adamın üzü gülür, könlü açılır. Ata-baba yurduna qədəm qoyan, əyilib torpağı-daşı öpən, sevincindən gözyaşı axıdan soydaşlarımızın vətənə, od-ocağa sonsuz məhəbbətini duyanda Vətənin otu, mamırı, kolu, quru ağacı da gözümüzdə müqəddəsləşir.

Düşmən tərəfindən dağıdılmış, viran edilmiş şəhər və kəndlərimizin görkəmi nə qədər müdhiş olsa da, vətən övladları üçün cənnətdir, əvəz olunmayan, ən qiymətli, gözəl bir məkandır.

Bəli, Vətənin - Azərbaycanın hər qarışı əzizdir, müqəddəsdir. 44 günlük müharibə dövründə xalqımızın şücaəti, mübarizliyi, qəhrəmanlığı bunu bütün dünyaya göstərdi. Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin düşünülmüş siyasətinin, ordumuzun qüdrətinin, xalqımızın birliyinin nəyə qadir olduğunu Yer kürəsinin xalqları duydu, hiss etdi və haqqı - ədaləti dəstəkləyənlər səsimizə səs verdilər.

Dünya müstəqilliyə yeni qədəm qoyan və o qədər də böyük olmayan bir dövlətin rəhbərinin hünərli, qətiyyətli, cəsarətli, uzaqgörən olduğunu bir daha anladı. Azərbaycan Ordusunun, əsgər və zabitinin qəhrəmanlığına heyran oldu. Xalqımızın qüdrəti dar ayaqda özünü göstərdi. Xalq öz rəhbəri ətrafında bir yumruq kimi birləşdi.



Bəşəriyyət bir daha dərk etdi ki, haqqı - ədaləti susdurmaq olmaz. Düşmən nə qədər təcavüzkar, qəddar, vəhşi olsa da, faşistləri dəstəkləyənlər insanlıqdan, beynəlxalq normalardan kənar qalsa da, şəhidlərimiz qanları bahasına, qazilərimiz sağlamlığını itirməklə qələbəmizi təmin etdilər və Azərbaycanın hərb tarixinə öz adlarını qızıl hərflərlə yazdılar.

Zəfərimiz, qələbəmiz igid ata-babalarımızın qəhrəmanlıq ənənələrindən, üçrəngli bayrağımızı ucaldanların hünərlərindən, xalqımızın vətən, torpaq məhəbbətindən güc aldı.

Zəfərimiz şəhidlərimizin ruhunu sevindirdi, qazilərimizə qüvvət verdi, torpaq həsrəti ilə uzun illər qovrulanları, həsrətdə olanları istəklərinə çatdırdı, arzularına qovuşdurdu.

Zəfərimiz dünyaya xalqımızın mübarizlik və sülh mesajlarını çatdırmaqla haqq- ədalət uğrunda xalqları mübarizəyə həvəsləndirdi, düşmənin bağrına od qoydu, nəfəsini kəsdi, tifağını dağıtdı.

Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyev deyib: "İkinci Qarabağ müharibəsində qazanılmış qələbə böyük tarixi əhəmiyyətə malikdir. Bu, təkcə Azərbaycanın öz doğma torpaqlarının işğalçılardan azad edilməsi məsələsi deyil. Bu, eyni zamanda bütün dünyaya, bütün işğalçılara göstərdi ki, onların sonu bax belə ola bilər. İşğalçıların, qəsbkarların sonu belə olacaq".

Zəfər Günü - düşmən üzərində qələbə çaldığımız 8 Noyabr hər birimiz üçün, Azərbaycan xalqının qardaşları və dostları üçün əziz və unudulmaz gündür. Bu tarixi qələbənin ildönümünü mahnı ilə, şeirlə, musiqi ilə qeyd etmək, tarixləşdirmək, amalımıza çevirmək borcumuzdur.

Qələmə aldığım bu misralar da tək mənim deyil, elə bilirəm hər bir insanın ürəyinin səsidir, könlünün arzusudur.

*Qırx dörd gün xalqımın şücaətini,*
*Çevirdi tarixin şah əsərinə.*
*Canını, qanını, məhəbbətini*
*Şəhidlər bəxş etdi hər əziz günə.*
*Zalımın, cəlladın beli qırıldı,*
*İgid oğulların zərbələrindən.*
*Xainin, nadanın ömrü daraldı,*
*Haqqını haqsızdan alanda Vətən.*
*Arazım unutdu kədərin - sərin,*
*Şuşanın başından çəkildi duman.*
*Açıldı çöhrəsi Xarıbülbülün,*
*Güldü qoca tarix, sevindi zaman.*
*Ordum ədalətin polad möhrünü*
*Vurdu haqsızlığın, zülmün alnına.*
*Tarixə çevirdi hər anı, günü,*
*Düşmənin bağrını döndərdi qana.*
*Ali Baş Komandan, ordu və millət*
*Birləşib bir yumruq, bir qüvvət oldu.*
*Qəlblərdə kükrəyən cəsarət, qeyrət,*
*Vətənə, torpağa məhəbbət oldu.*
*Oğullar anladı, duydu, bildi ki,*
*Günahsız tökülən qan yerdə qalmaz.*
*Bəşər dərk etdi, dünya gördu ki,*
*Başçı mərd olanda torpaq basılmaz.*
*Qələbə - cəsarət, hünər, etibar*
*Vətən sevgisidir, ürək səsidir.*
*Zəfər ömrümüzə əbədi bahar*
*Haqqın-ədalətin təntənəsidir.*
*Ünvanı Qarabağ - Azərbaycandır!*
*Yurdumdan nur alır səhərim mənim.*
*Bəşərə örnəkdir, bir ərməğandır*
*Zəfərim, Zəfərim, Zəfərim mənim.*

***Tahir RZAYEV,***
***Milli Məclisin deputatı***

# Zəfər günündə Azərbaycan yenidən doğuldu



*Zahid, demə dünya nə sənindir, nə mənim*
*Sən sevmədiyin cümlə bu yerlər vətənimdir,*
*Vermən vətənin bir qarışın yadlara əsla!*
*Şəfqətli anamdır bu mənim, can verənimdir!..*
***H.İ.Əlizadə***

Şuşalı şair və dramaturq Həsən İxfa Əlizadədən iqtibas etdiyimiz misralar Zəfər gününə gedən yolda xalqımızın və onun liderinin qətiyyətinin, işğalla barışmazlığının və heç bir xarici təzyiqə baş əyməyəcək qədər qürurlu və güclü xarakterinin qısa və poetik ifadəsidir. Ümummilli Lider Heydər Əliyevin "Şuşa Azərbaycanın gözüdür" və "Şuşasız Qarabağ, Qarabağsız isə, ümumiyyətlə, Azərbaycan yoxdur" sözləri həmin xarakterin siyasi baxımdan bəyan edilməsi idi. Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin 44-günlük Vətən müharibəsinin ən qızğın çağında və xarici təzyiqlərin yüksəldiyi bir vaxtda "Şuşasız bizim işimiz yarımçıq qalar" bəyanatı bu milli xarakterin döyüş meydanından hayqırtısı idi. Məhz bu xarakter sayəsində Azərbaycan xalqı üzləşdiyi böyük çağırışlara ləyaqətlə cavab verə bilmişdir.

Hər bir xalqın, millətin, dövlətin tarixində çağırışlar olur. Onların gələcək taleyi, uğuru və ya uğursuzluğu, inkişafı və ya geriliyi məhz çağırışlara verdiyi cavablardan asılı olur. Çağırış dedikdə, sadəcə olaraq, hansısa problem, çətinlik və ya təhdid nəzərdə tutulmur. Çağırışlar həm də millətin kimliyini və qürurunu sınağa çəkir. Çağırışlar qarşısında sınmaq, əzilmək və tənəzzülə də düçar olmaq olar, millət kimi yenidən daha qürurlu, daha güclü və daha sarsılmaz doğulmaq da. Azərbaycan xoşbəxtdir ki, Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə tarixi çağırışdan qalib çıxdı, millət və dövlət kimi yenidən doğuldu, "dəmir yumruğ"a dönub daha qürurlu və güclü oldu.

Azərbaycan keçmiş SSRİ-nin dağılmasından sonra yenidən əldə etdiyi müstəqilliyi dövründə öz tarixinin, demək olar ki, ən ciddi çağırışı ilə üz-üzə qalmışdı. Beynəlxalq hüquqla müəyyən edilmiş və BMT tərəfindən tanınmış ərazilərimizin 20 faizi Ermənistan tərəfindən işğala məruz qalmış, suverenliyimiz pozulmuşdu. Bizə qarşı hökm sürmüş 30 illik çağırışa Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə 44 günlük Vətən müharibəsində ləyaqətli və qəhrəmancasına cavab verilmiş, torpaqlarımız düşmən tapdağından azad edilmiş, milli kimliyimizin və qürurumuzun əsas rəmzlərindən olan Şuşa azad edilmiş, ərazi bütövlüyümüz bərpa edilmiş, müstəqilliyimiz və suverenliyimiz tam bərqərar olmuşdur.

Böyük Zəfərlə tariximizin ən böyük çağırışını həll etdik. Amma çağırışlar davam edir və edəcək, çünki tarix, əslində, çağırışlardan ibarətdir. Yeni və təxirəsalınmaz çağırışlar qarşımızda durur: Zəfərimizin nəticələrini beynəlxalq səviyyədə tam surətdə tanıtmaq və təsbit etmək, işğaldan azad edilmiş torpaqlarımıza öz doğma sakinlərini qaytarıb məskunlaşdırmaq məqsədilə Böyük qayıdışı həyata keçirmək. Prezident İlham Əliyevin rəhbərliyi ilə bu gün Azərbaycan hər iki istiqamətdə fəal və yorulmadan çalışır, hətta bu fəaliyyət mücadilə səviyyəsində gedir. Vətən müharibəsində döyüşdə və səngərdə başladığımız Zəfər yürüşü indi beynəlxalq diplomatiya sahəsində, Qarabağ və Şərqi Zəngəzurun bərpa və yenidən qurulması işində əzmlə, qətiyyətlə davam edir.

Prezident İlham Əliyevin sıx və gərgin xarici səfərlər qrafikinə və işğaldan azad edilmiş Qarabağ və Şərqi Zəngəzurda aparılan işlərə baxmaqla bunu təsdiq etmək olar. Bu mənada son bir neçə həftə ərzində dövlət başçısının Bolqarıstan, Çexiya, Rusiya, Qırğızıstan, Qazaxıstan, Gürcüstan və Əlcəzairə səfərləri, həmin ölkələrdə iştirak etdiyi görüşlər və çıxışları qeyd olunmalıdır. Prezident İlham Əliyevin 14 oktyabrda Astanada Müstəqil Dövlətlər Birliyi Dövlət Başçıları Şurasının iclasında çıxışı, 31 oktyabrda Rusiyanın Soçi şəhərində Prezident Vladimir Putin ilə ikitərəfli görüşü, eləcə də Əlcəzairdə Ərəb Dövlətləri Liqasının 31-ci Zirvə toplantısında çıxışı 2020-ci ildə Vətən müharibəsində əldə etdiyimiz böyük Zəfərin nəticələrinin tam beynəlxalq tanınmasına və təsbitinə xidmət etmişdir.

Azərbaycan, Ermənistan və Rusiya rəhbərlərinin Soçidə 31 oktyabr 2022-ci il tarixli üçtərəfli Bəyanatında Ermənistan və Azərbaycan arasında sülh müqaviləsinin bağlanmasının vacibliyi qeyd edilmişdir. Soçı Bəyanatı 10 noyabr 2020-ci il üçtərəfli Bəyanatın ikinci ildönümü ərəfəsinə təsadüf edir. 10 noyabr Bəyanatı Azərbaycanın Vətən müharibəsində qazandığı qələbənin nəticəsində imzalanmışdır. Bu qələbə ilə Azərbaycanın ərazi bütövlüyü bərpa edilmişdir. Soçi Bəyanatında ərazi bütövlüyünün və sərhədlərin toxunulmazlığının qarşılıqlı tanınması bir daha əsas prinsip kimi vurğulanır.

Ərəb Dövlətləri Liqasının zirvə toplantısında çıxışı zamanı da Prezident İlham Əliyev Ermənistanın 30 il davam edən işğalına Azərbaycanın öz gücü ilə son qoyduğunu və zəfər çaldığını xüsusi olaraq qeyd etdi. Dövlət başçısı Fransanın Əlcəzairə qarşı törətdiyi zorakılıq və kütləvi qəddarlığın ona Ermənistanın Azərbaycana və azərbaycanlılara qarşı törətdiyi cinayətləri və vəhşilikləri xatırlatdığını vurğuladı. Prezident İlham Əliyev işğaldan azad edilmiş ərazilərimizin bərpası, yenidən qurulması və doğma sakinlərinin qayıtması məqsədilə həyata keçirilən Böyük qayıdış proqramı barədə də məlumat verdi.

2016-ci ilin Aprel döyüşlərindən sonra Cocuq Mərcanlıya başlayan qayıdış Böyük qayıdışın qaranquşu idi, anonsu idi. Zəngilan rayonunda inşa edilmiş "ağıllı kəndə" Ağalı kəndinin doğma sakinləri artıq qayıdıblar. Yəni Böyük qayıdış artıq başlayıb. Füzuli və Zəngilanda yeni inşa edilmiş beynəlxalq hava limanları fəaliyyətə başlayıb. Horadiz-Ağbənd dəmir yolunun və Bərdə Ağdam dəmir yolunun inşası tam sürətlə davam edir. Zəfər yolu və digər yollar istifadəyə verilib, yeni-yeni yollar çəkilməkdədir. Bu o deməkdir ki, Böyük qayıdışın eyni zamanda avtomobil yolu, dəmir yolu və hava yolu ilə həyata keçirilməsi çox yaxındadır. Beləliklə, Azərbaycan Vətən müharibəsinin kulminasiya nöqtəsi olan Zəfər günündə yenidən doğuldu.

***Adil ƏLİYEV,***
***Milli Məclis Sədrinin müavini,***
***Gənclər və idman komitəsinin sədri***

# Qələbənin əsasında qətiyyətli siyasət, təcrübəli idarəetmə bacarığı dayanırdı





Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) Mənəvi Dəyərlərin Təbliği Fondunun və Azərbaycan İlahiyyat İnstitutunun (Aİİ) birgə təşkilatçılığı ilə 8 Noyabr - Zəfər Gününə həsr olunmuş tədbir keçirilib. Öncə dövlətimizin ərazi bütövlüyü uğrunda şəhid olanların ruhu birdəqiqəlik ehtiram sükutu ilə yad edilib. Daha sonra Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Aİİ-nin rektoru Aqil Şirinov açılış nitqi ilə çıxış edərək tədbir iştirakçılarını Zəfər Günü münasibətilə təbrik edib. Bildirib ki, 44 günlük Vətən müharibəsində qələbəmizi bizə qazandıran müzəffər ordumuzun əsgər və zabitləri qarşısında baş əyir, şəhidlərimizə Allahdan rəhmət diləyirik. Ölkəmizin igid oğullarının Ali Baş Komandanın başçılığı ilə qəhrəmancasına döyüşərək öz qanları bahasına bu qələbəni bizə qazandırdığını vurğulayan rektor qeyd edib ki, Zəfərimizi təmin edən əsas amillərdən biri xalqımızın cənab Prezident İlham Əliyevin ətrafında yumruq kimi birləşməsi oldu.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı bildirib ki, Azərbaycan xalqı tarixində çox uğurlara imza atıb: "44 günlük Vətən müharibəsinin nəticəsində qazanılan möhtəşəm Zəfərə qədər gələn yola nəzər salsaq, Ulu Öndər Heydər Əliyevin dövlət, ordu quruculuğu istiqamətində apardığı siyasətin və məhz bu siyasətin Prezident cənab İlham Əliyev tərəfindən çox böyük uğurla, dəqiqliklə davam etdirilməsinin nəticəsini görərik".

Komitə sədri vurğulayıb ki, 30 ildən sonra 44 gün davam edən Vətən müharibəsində rəşadətli Azərbaycan Ordusunun möhtəşəm qələbəsinin əsasında Müzəffər Ali Baş Komandan İlham Əliyevin milli maraqları ifadə edən qətiyyətli siyasəti, yüksək şəxsi keyfiyyətləri və təcrübəli idarəetmə bacarığı dayanırdı.

Daha sonra Vətən müharibəsi iştirakçısı baş gizir, kəşfiyyat qrup komandiri İlqar Cahangirov, qazilər Mobil Əhmədzadə və Ayaz Allahverdiyev çıxış edərək Zəfərdən qürur hissi duyduqlarını, Ali Baş Komandan - xalq - ordu birliyindən ilhamlanaraq yüksək mübarizlik, vətənpərvərlik ruhu ilə döyüşlərə qatıldıqlarını qeyd ediblər.

Tədbirdə Xüsusi Təyinatlı Qüvvələrin kapitanı, 44 günlük Vətən müharibəsi şəhidi Həmidağa Hüseynzadə haqqında "Bayraq oldum, enmədim!" adlı film təqdim olunub.

Sonda şəhidin atası Bağı Hüseynzadə çıxış edərək oğlunun Vətən uğrunda şəhadətə ucalmasından qürur hissi duyduğunu bildirib. Şəhid atası gənclərimizi Vətənin hər zaman keşiyində durmağa, vətənpərvər olmağa çağırıb.

***"Azərbaycan"***

# Qürur və fəxarət tariximiz

Torpaqlarımızın azadlığı, ərazi bütövlüyümüzün bərpası ilə nəticələnən Vətən müharibəsinin başa çatmasından iki il ötür. 44 gün davam edən bu savaşda qazandığımız Zəfər nəinki müasir, bütün dövlətçilik tariximizə işıq salaraq, xalqımızın bütöv bir şərəf, qəhrəmanlıq, öz milli haqqı uğrunda mücadiləsinin salnaməsinə çevrildi. Bu müharibədə qazanılan hərbi-siyasi qələbə milli qürurumuzun təntənəsi oldu.

Bu gün dönüb keçmişə baxanda, tarixə ekskurs edəndə bizi bu qələbəyə aparan yollarda nə qədər gərgin zəhmətin, nə qədər güclü siyasi qətiyyətin, nə qədər möhkəm dəmir iradənin ortaya qoyulduğunu, hansı çətin maneələrin dəf olunduğunu daha aydın görürük. Elə buna görə idi ki, xalqımız torpaqlarımızın azadlığa qovuşacağına inamını heç vaxt itirmirdi. Əmin idik ki, Ulu Öndər Heydər Əliyevlə başlanan, möhtərəm Prezident İlham Əliyevlə davam edən siyasət mütləq torpaqlarımızın azadlığını, işğaldan qurtuluşunu təmin edəcək. Vətən müharibəsi xalqımızın bu inamını həqiqətə çevirdi, əminliyimizin əbəs olmadığını göstərdi.

Əlbəttə, tarixi Qələbəmiz barədə danışarkən bir neçə mühüm məqamı diqqətdən qaçırmamalıyıq. Bunlardan biri Azərbaycanın inkişafı, tarixinin ən qüdrətli dövlətinə çevrilməsidir. Məhz bu inkişafın yaratdığı imkanlar ordumuzda ən müasir islahatların həyata keçirilməsinə, Silahlı Qüvvələrimizə daxil olan bütün qoşun növlərinin döyüş bacarıqlarının artırılmasına yol açdı. Hələ müharibədən əvvəl aydın idi ki, Azərbaycan Ordusu regionun ən böyük gücüdür və bu, beynəlxalq reytinq agentliklərinin hesabatlarında da öz əksini tapmışdı. Eyni zamanda yaxşı xatırlayırıq ki, ordumuzla bağlı hər bir tədbirdə cənab İlham Əliyev bəyan edirdi ki, Ermənistanla aparılan sülh danışıqları nəticəsiz qalsa, Azərbaycan Ordusu öz sözünü deyəcək. Bu baxımdan Vətən müharibəsi Prezident İlham Əliyevin inkişaf siyasətinin və bu siyasətin tərkib hissəsi kimi Silahlı Qüvvələrimizin döyüş qabiliyyətinin artırılmasının nəticəsi oldu.

Bu qələbənin nümayiş etdirdiyi reallıqlardan biri də Azərbaycandakı güclü milli həmrəylik oldu. Bu həmrəyliyin təməli Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulub, möhtərəm İlham Əliyevin prezidentliyi dövründə isə daha da güclənib. Təsadüfi deyil ki, Vətən müharibəsində siyasi əqidəsindən, milli kimliyindən, sosial statusundan asılı olmayaraq hər kəs Ali Baş Komandan İlham Əliyevin ətrafında səfərbər olmuşdu. Azərbaycanda yaşayan bütün xalqların nümayəndələri 44 günlük müharibədə silaha sarılaraq vahid amal - Azərbaycan dövləti uğrunda döyüşdülər, canlarından keçdilər. Beləliklə, xalqımızın milli həmrəyliyi Vətən müharibəsində özünün tarixi sınağından layiqincə çıxdı və daha da sarsılmaz oldu.

Bu müharibədə döyüşən oğullarımızın böyük əksəriyyəti gənclər idilər. Hansı ki həmin gənclər Qarabağı və Birinci Qarabağ müharibəsini görməmişdilər. Amma respublikamızda həyata keçirilən mütərəqqi siyasətin nəticəsi olaraq onlar vətənpərvər və layiqli vətəndaş kimi böyüyərək formalaşmışdılar. Ona görə də gənclərimiz bu savaşda vətəni necə sevməyin, vətən torpaqları uğrunda necə savaşmağın ən mükəmməl nümunələrini yaratdılar. Bu mənada Vətən müharibəsi ölkəmizdə həyata keçirilən mütərəqqi gənclər siyasətinin məntiqi uğuru oldu. Bu il fevralın 2-də keçirilmiş Azərbaycan Gəncləri Gününün 25 illiyinə həsr olunmuş Gənclər Forumunda Prezident İlham Əliyev bu barədə danışaraq deyib: "Çox şadam, fəxr edirəm ki, Vətən uğrunda, torpaq uğrunda qabağa gedənlərin əksəriyyəti gənclər idi. Bu, hər birimiz üçün qürur mənbəyidir. Çünki elə bir gənc nəsil yetişdi ki, hətta Qarabağı görməyən, o acı tarixi görməyən gənclər Qarabağ uğrunda, Vətən uğrunda, milli ləyaqət uğrunda ölümə getdilər və şəhid oldular, qazi oldular və müzəffər ordumuzun şöhrətini yüksəklərə qaldırdılar. Əgər bu siyasət olmasaydı, əgər gənclər vətənpərvərlik ruhunda tərbiyə almasaydılar, bilmək olmazdı müharibənin nəticələri necə ola bilərdi".

Qürur hissi ilə deməliyəm ki, naxçıvanlı gənclər də bu savaşda öz hünərləri ilə qəhrəmanlıq səhifələri yazdılar. İstər Əlahiddə Ümumqoşun Ordunun sıralarında qulluq keçən, istərsə də könüllü şəkildə əlinə silah götürən naxçıvanlılar xalqımızın qəhrəmanlıq salnamələrinin müəlliflərinə çevrildilər. Naxçıvan Muxtar Respublikasında bütün şəhidlərimizin xatirəsi uca tutulur, əbədiləşdirilir. O cümlədən şəhid ailələri və əlillər davamlı sosial dəstəklə əhatə olunurlar.

Azərbaycanı Vətən müharibəsindəki Qələbəyə aparan yolda mühüm rol oynayan amillərdən biri də Prezident İlham Əliyevin müdrik xarici siyasəti oldu. Dövlət başçısı qətiyyətli siyasəti, müdrik diplomatiyası ilə Ermənistanı bütün siyasi platformalarda küncə sıxışdırdı, dalana dirədi, onun işğalçı siyasətini ifşa etdi. Bu siyasətin nəticəsində Ermənistan Vətən müharibəsi günlərində Azərbaycana qarşı beynəlxalq cəbhənin formalaşmasına nail ola bilmədi.

Biz bu savaşda yalnız Ermənistana deyil, həm də dünya erməniliyinə qalib gəldik. Hələ torpaqlarımızın işğal altında olduğu illərdə bilirdik ki, torpaqlarımızın azadlığı uğrunda mübarizəni, sadəcə, Ermənistanla yox, bu işğalçı ölkənin təəssübkeşi olan ölkələrlə, onun lobbiçiliyini edən siyasi mərkəzlərlə aparırıq. Ötən iki ilin reallıqları da təsdiq edir ki, Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin həyata keçirdiyi qətiyyətli siyasət 44 günlük müharibədə yalnız Ermənistanı deyil, dünya ermənliyini məğlub edib. Çünki bu iki ildə maskası cırılan Fransanın qatı şəkildə Ermənistanın müdafiəsinə qalxması göstərir ki, əslində, bu ölkə artıq tarixdə qalmış Minsk qrupunun həmsədri kimi özünün ikili standartlar siyasəti ilə işğala dəstək verib, Azərbaycan torpaqlarının Ermənistana ilhaq olunmasına çalışıb.

Vətən müharibəsindən ötən dövrdə də Prezident İlham Əliyev Azərbaycanın yeni reallıqlar fonunda milli maraqlarını qətiyyətlə təmin edir. Bu gün Qarabağ və Şərqi Zəngəzurda aparılan bərpa işləri dövlətimizin savaşdakı zəfərinin quruculuq meydanındakı davamıdır. Eyni zamanda Prezident İlham Əliyev öz qətiyyətli siyasəti ilə Ermənistanı müharibədən sonra yaranan reallıqların tələblərini yerinə yetirməyə məcbur edir. Bunu oktyabr ayında keçirilən Praqa və Soçi görüşləri də təsdiq edir. Bu görüşlərin hər biri göstərir ki, Qarabağ münaqişəsinin başa çatdığını və Rusiya sülhməramlılarının müvəqqəti olduqları ərazidə yaşayan ermənilərin məsələsinin Azərbaycanın daxili işi olduğunu bütün siyasi mərkəzlər qəbul edirlər.

Zaman keçəcək, illər ötəcək, amma biz və gələcək nəsillər 44 günlük savaş və Zəfər barədə hər zaman fəxrlə, qürurla bəhs edəcəyik. Çünki bu savaş, bu qələbə ilə məğlubiyyət damğasını üzərimizdən həmişəlik götürdük, qalib xalqa çevrildik.

Zəfər Günümüz mübarək olsun!

***Cəbi QULİYEV,***
***Milli Məclisin deputatı***





# İşğaldan azad edilən bütün ərazilərdə
# Azərbaycan işığı yanır

**Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Silahlı Qüvvələrinin və bütövlükdə xalqımızın yumruq kimi birləşib 30 illik qəzəb hissini Qələbə duyğusuna çevirməsinin ikinci ili tamam olur. Əslində, 44 günlük Vətən müharibəsindən iki il əvvəl Cənab Prezident İlham Əliyevin səsləndirdiyi "Qarabağ tarixi, əzəli Azərbaycan torpağıdır", "Qarabağ Azərbaycandır və nida" fikri dövlət başçısının dəyişməz mövqeyi, prinsipiallığı ilə yanaşı, qələbənin uzaqda olmaması ilə bağlı verdiyi müjdə idi.**

İllər ərzində iqtisadiyyat, sənaye, enerji sektoru və digər sahələrlə yanaşı, müdafiə sənayesinin dinamik inkişafı addım-addım bizi qələbəyə yaxınlaşdırırdı. Nəhayət, gözlənilən an yetişdi və "dəmir yumruq" sıxıldı. 44 gün ərzində "dəmir yumruq" döyüş meydanında düşmənin başına, yeri gələndə diplomatiya arenasında masaya çırpıldı. Nəticədə düşmənin kapitulyasiya aktını imzalamaqdan başqa yolu qalmadı. Bir çox rayonlar silah gücünə azad edildiyi halda, Kəlbəcər və Laçın kimi təbii istehkamlardan, Ağdam kimi hər qarışı minalanan ərazilərdən ibarət rayonlar məhz "dəmir yumruğ"un qorxusundan ən qısa vaxtda təhvil verildi. O "dəmir yumruğ"un ki, düşmənin qorxulu yuxularıydı və onun zəhmi bu ilin 26 avqustunda Laçın şəhəri, Zabux və Sus kəndlərini də təhvil verməyə düşməni məcbur etdi.

Ötən iki ildə zəfər sevincini xalqımız Qarabağ və Şərqi Zəngəzurun quruculuq və dirçəliş sevinci ilə paralel yaşayır. Cənab Prezidentin sistemli və düşünülmüş strategiyasına uyğun olaraq işğaldan azad edilən ərazilər ən müasir və dördüncü sənaye inqilabının axınına uyğun olaraq yenidən qurulur. Təbii ki, bu inkişaf və quruculuq işlərində energetiklərin də üzərinə böyük məsuliyyət düşür. Cənab Prezident demişkən, "hər bir ölkənin iqtisadiyyatı, inkişafı üçün elektroenergetika sahəsi başlıca rol oynayır və bu sahə inkişaf etməsə, heç bir başqa sahə inkişaf edə bilməz". Məhz buna görə də iki il ərzində cənab Prezidentin qarşıya qoyduğu hədəflərə çatmaq üçün "AzərEnerji" ASC tərəfindən işğaldan azad edilmiş ərazilərin ən qısa müddətdə Azərbaycanın ümumi enerjisisteminə qoşulması, dayanıqlı və fasiləsiz enerji ilə təchiz edilməsi, nəhayət, həmin rayonlarda yeni generasiya mənbələrinin yaradılması istiqamətində böyük həcmli işlər görülüb və görülməkdədir.

Cənab Prezidentin tapşırığı ilə 2020-ci ilin noyabrından başlayaraq azad olunmuş ərazilərdə tikinti-quruculuq işlərinə start verilib. Əslində elə müharibə gedən ərəfədə enerji obyektlərinin inşası ilə bağlı layihələndirilmə işləri aparılmışdı. Nəticədə müharibənin bitməsindən cəmi üç ay sonra, 2021-ci ilin fevral ayında ermənilər tərəfindən tamamilə dağıdılan, döyüşlər zamanı mərmi yağışı altında qalan Laçındakı 8 meqavat gücündə "Güləbird" Su-Elektrik Stansiyası yenidən quruları istismara verildi. Bununla da cənab Prezident İlham Əliyevin, birinci xanım Mehriban Əliyevanın, qızları Leyla Əliyevanın iştirakı ilə işğaldan azad edilən ərazilərdə ilk infrastruktur layihəsinin açılışı oldu. Energetiklər tək Güləbird istiqamətində deyil, ən qısa vaxtda Qarabağın hər tərəfini nura qərq etməkdə israrlı idilər. Məhz buna görə də 2020-ci il dekabrın 24-də Şuşada yarımstansiyanın tikinti işlərinə başlanıldı. Hədəf Azərbaycanın mədəniyyət paytaxtı olan Şuşanı Azərbaycanın ümumi enerjisisteminə qoşmaq, dayanıqlı və fasiləsiz enerji ilə təchiz etmək idi. Bunun üçün isə paralel olaraq qovşaq yarımstansiyasına çevriləcək Füzulidəki "Şükürbəyli" yarımstansiyası genişləndirilərək tam yenidən qurulmalı, "Şükürbəyli" yarımstansiyasından Şuşaya çətin dağlıq, meşəlik relyefdə, ağır iqlim şəraiti olmasına baxmayaraq, 75 km məsafədə 110 kV-luq ikidövrəli ötürmə xətti çəkilməli və nəhayət 110/35/10 kV-luq rəqəmsal "Şuşa" yarımstansiyası tikilməli idi. Nəticədə rekord müddətdə, 73 gün ərzində 75 km məsafədə Şuşaya ikidövrəli olmaqla, 110 kV-luq ötürmə xətti çəkildi. 2021-ci il may ayının 12-də isə cənab Prezident İlham Əliyevin, birinci xanım Mehriban Əliyevanın, qızları Leyla və Arzu Əliyevaların iştirakı ilə "Şuşa" yarımstansiyası işə salınaraq Şuşada daimi işığımız yandırıldı.

Bundan cəmi bir ay sonra 14 iyun tarixində Füzuli şəhərində "AzərEnerji" tərəfindən yeni tikilən 110/35/10 kV-luq "Füzuli" yarımstansiyasının açılışı oldu. Bu, cənab Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın iştirakı ilə Füzuli şəhərində istismara verilən ilk obyekt oldu.

Həmçinin işğaldan azad edilən ərazilərin böyük hissəsini mənbə olaraq elektrik enerjisi ilə qidalandıran və genişləndirilərək tam yenidən qurulan "Şükürbəyli" qovşaq yarımstansiyasını cənab Prezident məsafədən idarə olunan SCADA dispetçer idarəetmə sistemi vasitəsilə işə saldı.

Paralel olaraq 2021-ci ilin soyuq yanvar ayından başlayaraq Daşkəsəndən Kəlbəcərə sıldırımlı relyefdə, 3500 metr yüksəklikdəki Murov dağını aşmaqla 70 km məsafədə 110 kV-luq ikidövrəli ötürmə xətti çəkilir və Kəlbəcərdə 110/35/10 kV-luq "Kəlbəcər" yarımstansiyası tikilirdi. Nəhayət işlər başa çatdı. Cənab Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın iştirakı ilə 16 avqust tarixində 29 ildən sonra Kəlbəcərdə öz işığımız yandırıldı.

2021-ci il oktyabrın 3-də Suqovuşanın işğaldan azad olunmasının bir illiyi tamam olan gün "AzərEnerji" tərəfindən tam yenidən qurulan, ümumi gücü 7,8 meqavat olan "Suqovuşan-1" və "Suqovuşan-2" Kiçik Su-Elektrik stansiyalarının açılışı oldu. Bundan bir gün sonra 4 oktyabrda Cəbrayılın işğaldan azad olunmasının bir illiyində 110/35/10 kV-luq "Cəbrayıl" yarımstansiyası istismara verildi.

2021-ci il oktyabrın 20-də yeni tikilən 110/35/10 kV-luq "Zəngilan" yarımstansiyasının, 25 oktyabrda isə "Qubadlı" yarımstansiyasının cənab Prezidentin iştirakı ilə açılışı oldu. Buna qədər isə yeni tikilən "Cəbrayıl", "Qubadlı" və "Zəngilan" yarımstansiyalarını qidalandırmaq üçün Füzulidəki "Şükürbəyli" yarımstansiyasından - minalanmış ərazilərdən, çətin dağlıq, təpəlik relyefdən keçməklə, 109 km məsafədə ikidövrəli olmaqla, 110 kV-luq ötürmə xətti çəkilmişdi.

Energetiklərin başqa bir hədəfi ərazisi demək olar tamamilə minalanmış Ağdam şəhəri idi. 2021-ci ildən başlayaraq "Xındırıstan" yarımstansiyasından hər tərəfi minalanmış Ağdama 35 km məsafədə ikidövrəli 110 kV-luq ötürmə xətti çəkilməyə və iki yerdə 110/35/10 kV-luq "Ağdam-1", "Ağdam-2" yarımstansiyalarının, o cümlədən Qarabağın Regional Rəqəmsal İdarəetmə Mərkəzinin tikintisinə başlanıldı və 13 fevral 2022-ci ildə cənab Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın iştirakı ilə hər üç obyektin açılışı oldu.

2022-ci il mayın 26-da isə Azərbaycan-Türkiyə-Avropa ölkələrarası beynəlxalq enerji layihəsi çərçivəsində 330 kV-luq "Cəbrayıl" Enerji Qovşağının təməli qoyuldu. Oktyabr ayında isə ölkə rəhbərliyi 330 kV-luq "Cəbrayıl" Qovşaq Yarımstansiyasında tikintinin gedişatı ilə tanış oldu.

26 iyun 2022-ci ildə 4,4 meqavat gücündə "Kəlbəcər-1" Kiçik Su-Elektrik Stansiyası yenidən qurulduqdan sonra rayonda ilk istehsal obyekti olaraq istismara verildi. Bu stansiyadan başqa cənab Prezident Kəlbəcərdə 5 yerdə yenidən qurulan 8,33 meqavat gücündə "Çıraq-1", 3,6 meqavat gücündə "Çıraq-2", 6,33 meqavat gücündə "Qamışlı", 5,3 meqavat gücündə "Soyuqbulaq" və 3,4 meqavat gücündə "Meydan" Kiçik Su-Elektrik stansiyalarında, o cümlədən Laçın rayonunda tikilən 110/35/10 kV-luq "Qorçu" yarımstansiyası və ikidövrəli 110 kV-luq "Kəlbəcər-Laçın" ötürmə xəttinin inşası ilə tanış oldu.

Nəhayət, 26 avqust 2022-ci il tarixdə Laçın şəhəri, Zabux və Sus kəndləri Azərbaycan tərəfə təhvil verilən gün "AzərEnerji"nin texnika və mal-materialla dolu kalonu əraziyə daxil oldu və cəmi 4 gün ərzində görülən işlər nəticəsində sözügedən ərazilərə Azərbaycan işığı verildi. 21 sentyabr tarixində isə cənab Prezidentin iştirakı ilə "Laçın" Qovşaq Yarımstansiyasının təməli qoyuldu.

Beləliklə, bu günə kimi "AzərEnerji" tərəfindən işğaldan azad edilən ərazilərdə 400 km-dən artıq ikidövrəli olmaqla, fiberoptik kabellə təchiz edilən 110 kV-luq ötürmə xətti çəkilib. Ümumilikdə, 22 enerji obyekti üzrə 4 su-elektrik stansiyası, 10 rəqəmsal yarımstansiya və 1 Regional Rəqəmsal İdarəetmə Mərkəzi tikilərək istismara verilib. 5 yerdə kiçik su-elektrik stansiyası və 3 yerdə yarımstansiyanın tikintisi davam edir və yaxın aylarda başa çatacaq.

Qarabağ və Şərqi Zəngəzurda tikilən bütün enerji obyektləri rəqəmsallaşdırılıb. Burada qəzaların vaxtından əvvəl aradan qaldırılması, proseslərin idarə edilməsi, açılıb-qoşulma əməliyyatları avtomatlaşdırılıb və bir sözlə, işlər dördüncü sənaye inqilabına uyğun şəkildə rəqəmsal enerjisistem konsepsiyasına uyğun olaraq həyata keçirilib.

30 illik həsrətdən sonra bu gün işğaldan azad edilən bütün ərazilərdə artıq Azərbaycan işığı yanır.

Qeyd edim ki, işğaldan azad edilən ərazilərlə paralel olaraq, enerjisistemdə yenidənqurma, bərpa və modernləşdirmə prosesi uğurla davam etdirilir. Cənab Pezident İlham Əliyev ölkə iqtisadiyyatının digər sahələrinə olduğu kimi, elektroenergetika sisteminin inkişafına da xüsusi diqqət və qayğı göstərir. Bu diqqət və qayğının nəticəsidir ki, ölkənin hər bir regionunda əhalinin dayanıqlı və fasiləsiz enerji ilə təminatı üçün qabaqcıl texnoloji avadanlıqlardan istifadə olunmaqla irihəcmli layihələr həyata keçirilir. Elektroenergetika sisteminin yenilənməsi, müasir tipli elektrik stansiyaların tikintisi reallaşdırılır. Bu da ölkədə yeni generasiya güclərinin artım dinamikasına yeni töhfələr verir. Prezident İlham Əliyevin enerjisistemdə yürütdüyü strateji xətt Azərbaycanın bu gün dünya ölkələri arasında qabaqcıl yerlərdən birini tutmasına imkan yaradıb. Artıq Azərbaycan iqtisadi baxımdan bölgənin dinamik və sürətli inkişaf edən ölkəsi kimi region dövlətlərinin etibarlı tərəfdaşına çevrilib.

Qəbul edilən müxtəlif dövlət proqramları çərçivəsində bir çox layihələr icra olunub. O cümlədən "Azərenerji" Açıq Səhmdar Cəmiyyəti tərəfindən hazırlanan və dövlət başçısı tərəfindən qəbul edilən "Reabilitasiya Proqramı" çərçivəsində enerji sistemində təxirəsalınmaz tədbirlər həyata keçirilib. "İtirilmiş güc"lərin bərpa olunmasında, ixrac potensialının artırılmasında mühüm addımlar atılıb. Bundan əlavə, inkişaf mərhələlərindən ibarət 2019-2024-cü illər üzrə "Master Plan" hazırlanaraq təsdiq edilib. Bu sırada "Qarabağ Enerji Təchizatı Strategiyası" layihəsi xüsusi önəm kəsb edir.

Enerji sistemində etibarlılığın artırılması məqsədilə "Azərbaycan" İES-in hər biri ayrıca elektrik stansiyası statusunda olan 8 enerji bloku yenidən qurularaq 600 MVt-dək yük bərpa edilib. Bu stansiyanın ömrü ən azı 20 il uzadılıb. Cənubi Qafqazın ən böyük istilik elektrik stansiyasının 500 və 330 kV-luq yarımstansiyaları tamamilə yenidən qurulub.

Həmçinin iri layihələrdən 385 meqavatlıq "Qobu" Elektrik Stansiyasının və 1000 meqavat yükötürmə gücündə olan 330 kV-luq "Qobu" yarımstansiyasının, o cümlədən 400 meqavatlıq "Şimal-2" Elektrik Stansiyasının istismara verilməsi böyük əhəmiyyət kəsb edir. Xəzər dənizində suyun səviyyəsinin aşağı düşməsi ilə əlaqədar "Sumqayıt" Elektrik Stansiyasının dayanma təhlükəsinin qarşısını almaq məqsədilə MDB məkanında ilk dəfə olaraq estakada su nasos stansiyasının tikintisi başa çatıb. Eyni tipli layihə hazırda "Şimal" Elektrik Stansiyasında da icra olunur.

Prezident İlham Əliyevin 25 oktyabr 2022-ci ildə imzaladığı sərəncama uyğun olaraq, Cənubi Qafqazın ən böyük istilik elektrik stansiyası sayılan Mingəçevirdəki "Azərbaycan" İstilik Elektrik Stansiyasının ərazisində "AzərEnerji" tərəfindən əlavə 1280 meqavat istehsal gücündə yeni generasiya mənbəyi yaradılacaq.

"Azərbaycan" İES-in mövcud 7-ci və 8-ci enerji bloklarının 30 il müddətinə zəmanətli əsaslarla təmir edilən buxar turbinləri ilə 1280 meqavatlıq yeni stansiyanın əlaqələndirilməsi nəticəsində ümumi güc 1880 meqavat təşkil edəcək ki, bu da 1 kilovat-saat elektrik enerjisinin istehsalına sərf edilən şərti yanacağın 335 qramdan 225 qrama endirilməklə və hər kilovat-saatda 110 qram şərti yanacağı azaltmaqla ildə 800 milyon kub qaza qənaət olunmasına gətirib çıxaracaq.

Bu isə o deməkdir ki, yeni stansiyaya qoyulan investisiya maksimum 6 ilə geri qayıdacaq. Eyni zamanda yüksək effektivliyə malik generasiya kompleksinin formalaşdırılması ilə faydalı iş əmsalı 18 faiz artırılaraq 56 faizə çatdırılacaq və illik istehsal 12,5 milyard kilovat saat təşkil edəcək.

Yeni stansiyanın yaradılması ölkənin enerji dayanıqlılığının təmin olunması, əlavə generasiya güclərinin yaradılması, enerji tələbatının qarşılanması, ixrac imkanlarının artırılması, ətraf mühitin qorunması, elektrik enerjisinin istehsalında təbii qaza qənaət edilməsi, iqlim dəyişiklikləri ilə bağlı baş verən kataklizmlərin qarşısının alınması və regionda yeni iş yerlərinin açılması baxımından xüsusi əhəmiyyətə malikdir.

*Bu gün cənab Prezidentin uzaqgörən və sistemli enerji strategiyasına uyğun olaraq işğaldan azad edilən ərazilər də daxil olmaqla ölkəmiz nəinki Cənubi Qafqazın, bütövlükdə regionun qabaqcıl enerji dövlətinə çevrilib.*

*İşığımız gur, zəfərimiz bol, enerjimiz daimi olsun!*

**Baba RZAYEV,**
***"AzərEnerji" ASC-nin rəhbəri***































# Zəfər bayramı – təqvimimizin qızıl hərflərlə yazılmış tarixi

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 44 günlük Vətən müharibəsində ordumuzun gücü ilə tarix yazdı. Xalqımızı öz milli hədəflərinə çatdırdı, Azərbaycan dövləti ən yüksək zirvəsinə ucaldı, ən güclü dövrünə yetişdi. Qazanılan Zəfər möhtəşəm və qürurludur.

Bu Zəfər Ali Baş Komandan ətrafında birləşərək "Dəmir yumruq" yaradan xalqın qalibiyyətidir. Döyüş meydanında olduğu kimi, diplomatik müstəvidə də Azərbaycanın tarixi qələbəsidir.

Bu Zəfər Azərbaycan xalqının misli görünməmiş qəhrəmanlıq salnaməsidir.

Bu əlamətdar gün dövlətçilik ənənələri ta qədimlərə söykənən Azərbaycan xalqının birlik, şərəf, məğrurluq, qürur və ədalət bayramıdır, tariximizə qızıl hərflərlə yazılan, dünya hərb elminə dair dərsliklərə düşən, ordumuzun qüdrətini bütün dünyaya tanıdan böyük hadisədir. Hədd-hüdudu olmayan fərəh, xoşbəxtlik məhz budur!

Ən əsası isə bu sevincdən hamıya eyni dərəcədə pay düşməsidir. Bu, həmrəyliyimizin, birliyimizin gücünün yaratdığı nəticənin sevincidir. Azərbaycan Ordusunun qələbəsi tariximizi böyütdü, qətiyyətimizi artırdı. Bu xalqın hər bir təmsilçisinin köksünü dolduran, bizi birləşdirən, qürurlu edən qələbə ruhu ilə yeni bir başlanğıca qədəm qoyduq.

Qazandığımız Zəfər xalq olaraq bizi ölkə rəhbərinin ətrafında ali amal uğrunda "Dəmir yumruq" kimi birləşdirdi. Elə-obaya, vətənin torpağına-daşına, suyuna, aranına-dağına sonsuz sevgi və məhəbbətimizi nümayiş etdirdi. Böyük Qələbə torpaq uğrunda gözünü qırpmadan özünü fəda edən igid oğulların qəhrəmanlığı sayəsində əldə olundu. Xalqımızın ölkə rəhbərinə olan sevgisini, inamını, etimadını daimi yaşadan Qələbə oldu. Zəfər günü Azərbaycan xalqının və dünya azərbaycanlılarının Müzəffər Ali Baş Komandana əbədi minnətdarlıq bayramıdır.

Belə bir məşhur deyim var: ordu güclü olsa da, ona rəhbərlik edən sərkərdə zəifdirsə, həmin ordu məğlub olacaq. Əgər sərkərdə güclü və qətiyyətlidirsə, o zaman ordu qalib gələcək.

Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi altında şəhidlərimizin qanı-canı bahasına, qazilərimizin fədakarlığı sayəsində qazandığımız misilsiz qələbə regionda yeni reallıq yaratdı. Azərbaycan "münaqişənin hərbi həlli yoxdur" tezisinin yanlış olduğunu sübuta yetirdi.

8 noyabr 2020-ci il, Ümummilli Lider Heydər Əliyevin təbirincə desək, Azərbaycanın gözü, hər bir azərbaycanlı üçün iftixar nöqtəsi, mədəniyyətimizin və tariximizin rəmzi olan Şuşa şəhərinin işğaldan azad edildiyi tarixi gündür. Vətən müharibəsini qələbə ilə sonlandıran Zəfər günüdür. Qarabağ münaqişəsinə silahlı qüvvələrimizin şücaəti və qəhrəmanlığı ilə nida qoyulduğu, bizlərə yüksək fəxarət, hədsiz fərəh və qürur hissləri yaşadan əlamətdar gündür.

Mədəniyyətimizin, ruhumuzun paytaxtı olan Şuşa 28 il yarımdan sonra öz sahibinə qovuşdu, ayrılığa son qoyuldu. Azərbaycan igidləri dünyanın müharibələr tarixində yeni bir misilsiz hadisəyə çevrilən qəhrəmanlıqları ilə ümidlərimizi, arzularımızı, Şuşa xəyallarımızı gerçəkləşdirdilər.

Döyüş meydanında əldə edilmiş uğurlar danışıqlar masasında Azərbaycanı diktə edən tərəfə çevirdi. Rəşadətli ordumuzun qarşısında diz çökən düşmənin Azərbaycan Prezidentinin Vətən müharibəsinin ilk günlərindən bəyan etdiyi şərtləri qəbul etməkdən başqa çıxış yolu qalmadı və öz kapitulyasiyasını müəyyən edən bəyanatı imzalamağa məcbur oldu. "Qarabağ Azərbaycandır və nida işarəsi" ifadəsini Zəfərimizin rəmzinə çevirən Ali Baş Komandan İlham Əliyevin qürurla səsləndirdiyi bu ifadə həyatda öz təsdiqini tapdı.

Prezident İlham Əliyev hərbi sahədə olduğu kimi, diplomatiya və informasiya savaşı cəbhəsində də öz qətiyyəti, sarsılmaz iradəsi, cəsarəti ilə bütün təzyiqlərə məharətlə sinə gərdi, ölkəmizə qarşı informasiya blokadasını yardı, müharibə dövründə və müharibədən sonra dünyanın ən nüfuzlu telekanallarına, mətbuat orqanlarına 30-dan çox müsahibə verdi. Nümayişkaranə şəkildə düşmənin mövqeyini dəstəkləyən ölkələrin kütləvi informasiya vasitələrinin təmsilçilərinin ən qərəzli suallarına belə qətiyyətli cavab verməkdən yayınmadı. Azərbaycan Prezidenti nə dərəcədə hazırlıqlı və uzaqgörən olduğunu göstərməklə yanaşı, beynəlxalq hüquqa və ədalətə əsaslanaraq tutarlı arqumentlər üzərində qurulan aydın, məntiqli fikirlərlə, ölkəmizin haqlı olduğunu konkret faktlarla dünya ictimaiyyətinə çatdırdı. Ali Baş Komandan xalqını milli hədəflərinə yetirdi, ona imzasını atdı.

Azərbaycan Prezidentinin qədim yaşayış məskənlərimiz olan Ağdam, Kəlbəcər və Laçın rayonlarını bir güllə atmadan belə diplomatik yolla düşmən tapdağından azad etməsi isə dünya tarixində nadir hallarda rast gəlinən möhtəşəm uğurlardandır. Azərbaycan öz torpaqlarını işğaldan azad etməyə həmişə hazır olub. Qurulan təkmil idarəetmə sistemi, dövlət başçısı tərəfindən həyata keçirilən düşünülmüş, uzaqgörən, prinsipial siyasət nəticəsində daxili və xarici diplomatiyada qazandığımız böyük uğurlar bizi addım-addım Zəfərə yaxınlaşdırırdı.

Bu qələbə təkcə Ermənistan üzərində deyil, həm də ölkəmizə qarşı qeyri-dost münasibəti bəsləyən, bütün vasitələrlə təzyiqlər göstərməyə çalışan haqsız qüvvələr üzərində Zəfərdir.

Ölkə Prezidentinin 17 il ərzində yürütdüyü müdrik daxili və xarici siyasətin töhfəsi qalib, qüdrətli Azərbaycan oldu. Bu Zəfər bayramı bizim üçün qürur mənbəyidir. Bütün dünya - bizə dəstək olan və olmayan hər kəs Azərbaycanı qalib ölkə kimi tanıdı.

Azərbaycanın şanlı Zəfəri, Ermənistanın isə acınacaqlı məğlubiyyəti "Dağlıq Qarabağ"ın statusunun müəyyən edilməsi məsələsinin üstündən birdəfəlik xətt çəkdi, tarixi Azərbaycan torpaqlarında yeni erməni dövlətinin qurulması planlarını darmadağın etdi. Müzəffər Ali Baş Komandanın rəhbərliyi altında Azərbaycan xalqı bütün dünyaya sübut etdi ki, Qarabağ Azərbaycandır!

Döyüş meydanında göstərilən əzmkarlıq, liderlik iradəsi bu gün azad torpaqlarımızda aparılan bərpa-quruculuq işləri ilə davam etdirilir. Dövlət başçısının rəhbərliyi ilə düşməndən təmizlənmiş ərazilərimiz sürətlə yenidən qurulur, dirçəldilir, bu torpaqlara həyat gətirilir. Xalqımızın milli-mədəni irsinin qorunub saxlanmasında mühüm rol oynayan Heydər Əliyev Fondu quruculuq işlərində yaxından iştirak edir. Vaqifin Şuşadakı məqbərəsinin bərpası, "Xarıbülbül" festivalı, "Vaqif Poeziya Günləri", mədəni irsin bərpası artıq bu torpaqlarda insanlar üçün layiqli həyata, yeni bir başlanğıca doğru işıqlı yol deməkdir. Ölkəmiz indi regionun inkişafında, təhlükəsizliyində, sülh içində yaşamasında maraqlı olan hər kəsi inkişafa doğru səsləyir.

Azərbaycan bölgədə sülh tərəfdarıdır!

***Adil VƏLİYEV,***
***Sabunçu Rayon İcra Hakimiyyətinin başçısı***

YAP – 30

# Yeni Azərbaycan üçün yaranan partiya

1991-ci il oktyabrın 18-də Azərbaycan SSR Ali Soveti tərəfindən Müstəqillik haqqında Konstitusiya Aktı qəbul edildi və Azərbaycan xalqı özünün dövlət müstəqilliyini bərpa etdi.

Bu, xalqımızın həyatında tarixi hadisə idi və onun qarşısında böyük imkanlar açırdı. Müstəqil və qüdrətli dövlət qurmaq üçün ölkəmiz bütün imkanlara malik idi. Zəngin tarixi və mədəni sərvəti, zəhmətkeş cəmiyyəti, yetərli təbii sərvətləri Azərbaycanın dünyada layiqli yerini tutmasına imkan verirdi.

Bu imkanlara baxmayaraq, müstəqil Azərbaycan dövləti ilk günlərdən çox böyük problemlərlə üzləşməli oldu. Bunlardan ən böyüyü Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü idi. Respublikamız yeni həyatına resurslarını təcavüzkar qonşusunun hərbi həmlələrini dəf etməklə və müharibənin törətdiyi ağır fəsadları aradan qaldırmaqla yönəltməli oldu.

Müstəqil dövlət quruculuğu üçün ciddi maneə yaradan digər problem isə müstəqilliyimizin ilk illərində Azərbaycanda siyasi hakimiyyəti səriştəsiz, təsadüfi şəxslərin ələ keçirməsi oldu. Dövlətçilik və idarəçilikdə ya qüsurlu təcrübəsi olan, ya da heç təcrübəsi olmayan bu qüvvələrin müstəqil Azərbaycan dövlətçiliyi barədə nə dərin təsəvvürləri, nə də qarşıda duran problemlərin həlli ilə bağlı proqramları var idi.

Ulu Öndər Heydər Əliyev onlar haqqında sonradan belə deyirdi: "Bu adamlar respublikaya rəhbərliyin nə demək olduğunu bilmirdilər. Elə özləri də rəhbərliyə layiq deyildilər. Elə ona görə də qısa zamanda xalqın etimadını itirdilər. Bu acı təcrübədən hamı nəticə çıxarmalıdır".

Ayaz Mütəllibovun siyasi hakimiyyəti dövrü cəmiyyətdə qeyri-müəyyənlik və özbaşınalıq, müxtəlif siyasi qüvvələrin dağıdıcı fəaliyyəti dövrü kimi tarixdə qaldı. Ondan sonra hakimiyyətə zorakı və qeyri-sivil metodlarla gələn AXC-Müsavat cütlüyü iqtidarı dövründə milli dövlətçiliyin sosial-iqtisadi və siyası əsaslarını qura bilmədi. Hərbi quruculuq sahəsində pərakəndəliyi və naşılığı isə Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzünün qarşısını ala bilmədi.

Həmin dövrlərdə Azərbaycan xalqı çoxsaylı ağır problemlərdən qurtulmağın yeganə çıxış yolunu tanınmış siyasətçi Heydər Əliyevin siyasi hakimiyyətə qayıtmasında görürdü. Cəmiyyət də onun birinci siyasi hakimiyyəti dövrünün uğurlu nəticələrini, SSRİ rəhbərliyində olarkən müsbət imicini yaxşı xatırlayırdı.

1991-1993-cü illərdə ölkə ziyalıları Azərbaycanda Heydər Əliyevin əleyhinə qəbul edilmiş "yaş senzi"nin ləğvi üçün mübarizə apardı, onun siyasi proseslərdən kənarda saxlanmasına qəti etirazını bildirdilər. Həm Ayaz Mütəllibov iqtidarı, həm də AXC-Müsavat hakimiyyəti ölkə əhalisinin təcrübəli siyasətçiyə olan böyük inamını həzm edə bilmir, Heydər Əliyevi ictimai-siyasi proseslərdən kənarda saxlamaq üçün müxtəlif spekulyasiyalara əl atırdılar.

Ulu Öndər Naxçıvan əhalisinin təkidindən sonra Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri seçilməyə razılıq verdi. Onun ilyarım ərzində Naxçıvan bölgəsinə rəhbərlik etməsi bu tarixi ərazimizi Ermənistanın işğalından qorudu. Heydər Əliyevin uğurlu rəhbərliyi nəticəsində regionun sosial-iqtisadi problemləri əsasən həll edildi, uğurlu islahatlar həyata keçirildi. Onun təkidi ilə Rusiya qoşunları ərazidən çıxarıldı. Azərbaycan həqiqətləri beynəlxalq aləmdə daha geniş miqyasda səslənməyə başladı.

Heydər Əliyevin Naxçıvan bölgəsinə rəhbərliyinin uğurlu nəticələri barədə məlumatlar qısa zamanda bütün Azərbaycana yayılmağa başladı. Azərbaycanda vəziyyətin ağırlığını və problemlərin çoxaldığını görən insanlar zaman keçdikcə Heydər Əliyevin təcrübəsinə ciddi ehtiyac olduğunu görür və onun böyük siyasətə qayıtmasını tələb edirdilər.

Cəmiyyətin demokratik qüvvələri, bütövlükdə Azərbaycan xalqı öz istəklərində daha da qabağa gedərək Heydər Əliyevin böyük siyasətə qayıdışı ilə yanaşı, onun adı ilə bağlı nüfuzlu bir siyasi partiyanın yaradılmasını da zəruri hesab edirdi.

Sonradan Heydər Əliyev bu barədə belə deyirdi: "Bax, bu səpkidə Yeni Azərbaycan Partiyasının yaradılması məsələsi qaldırıldı... bu təklifi qəbul etmək üçün isə o vaxtlar imkan və şərait yox idi. ...Lakin bu proseslər, eləcə də tək Bakıdan deyil, Azərbaycanın bir çox şəhərlərindən, rayonlarından mənə, Naxçıvana ardı-arası kəsilmədən gələn məktublar elə bir şəraitə gəlib çıxardı ki, mən Yeni Azərbaycan Partiyasının yaranmasına razılıq verdim".

Əslində, Heydər Əliyevə ünvanlanan müraciət Azərbaycan vətəndaşlarının ictimai maraq və ümumi mənafelərinin ifadəsi idi.

16 oktyabr 1992-ci ildə "Əlincə" Xeyriyyə Cəmiyyətinin təsisçisi olduğu "Səs" qəzetində Azərbaycanın 91 tanınmış ziyalısının Heydər Əliyevə müraciəti dərc olundu. Müraciətdə vurğulanırdı: "Möhtərəm Heydər bəy! ...Respublikamızın, xalqımızın vəziyyəti gündən-günə ağırlaşır. Azərbaycan, sözün əsl mənasında, mənəvi böhran keçirir. Bunun da əsas səbəbi son illər respublikada mövcud olan və getdikcə daha da güclənən hakimiyyət böhranıdır. ...Yaşadığımız dövrün səciyyəvi cəhətlərinin, cəmiyyətin inkişaf meyillərinin iqtidar tərəfindən düzgün qiymətləndirilməməsi, fərsiz kadr siyasəti... respublikanın onsuz da ağır olan durumunu daha da dərinləşdirir".

Ziyalılar müraciətlərində həmin dövrdə Azərbaycanda mövcud olan siyasi partiya rəhbərləri arasında xalqın etimadını qazanmış, böyük sosial bazanı birləşdirə biləcək güclü siyasi liderin olmamasını qeyd edərək bildirirdilər: "...indiki və bu çətin, məsuliyyətli işi respublikada öz öhdəsinə götürməyə qadir yeganə şəxs sizsiniz!... yaratmaq istədiyimiz YENİ AZƏRBAYCAN PARTİYASINA... yeganə mütləq lider siz ola bilərsiniz... ...İstərdik ki, bu işləri bütün Azərbaycan üçün görəsiniz".

Həmin günlər rəsmi mətbuatın susmasına baxmayaraq, Heydər Əliyevin cavabını cəmiyyətlə yanaşı, AXC-Müsavat iqtidarı da səbirsizliklə gözləyirdi.

Səkkiz gündən sonra Azərbaycan ziyalılarının müraciətinə Heydər Əliyev "Yeni, müstəqil Azərbaycan uğrunda!" çağırışı ilə başlayan cavab verdi. Cavabda yazılırdı: "...Müraciətinizdən, mətbuatdan..., müxtəlif bölgələrdən məktublardan... aydın olur ki, respublikada ictimai-siyasi və sosial-iqtisadi vəziyyət son dərəcədə ağırdır".

Heydər Əliyev "əgər hansı ölkənin xalqı öz hüquqlarını anlayır və onları qoruya bilirsə, o zaman ən kiçik dövlət belə ən böyük məmləkət olur" fikrini irəli sürərək, Azərbaycanın ağır problemlərinin həlli üçün beş əsas vəzifə irəli sürür. Cavabın sonunda Ulu Öndər Yeni Azərbaycan Partiyasının yaradılmasının obyekiv zərurətdən doğduğunu vurğulayır və onun fəaliyyətində iştirak etməyə hazır olduğunu bəyan edir.

Heydər Əliyevin Azərbaycan ziyalılarının müraciətinə cavabı ölkədə böyük əks-səda doğurdu. Cavabdan dərhal sonra respublikanın hər yerində yeni partiyanın yerli strukturları formalaşdırıldı və YAP-ın təsis konfransına hazırlıq başladı.

Ancaq hakimiyyət orqanları YAP-ın yaradılmasına mane olmağa və Heydər Əliyevə qarşı geniş əks kampaniyaya başladı. Məhz bu səbəbdən də partiyanın təsis tədbirini paytaxt Bakıda keçirmək mümkün olmadı. Bu səbəbdən də Heydər Əliyev tərəfdarları təsis konfransını 1992-ci il noyabrın 21-də çətin şəraitdə Naxçıvan şəhərində keçirməli oldular. Sonralar Heydər Əliyev partiyanın YAP adlandırılması haqqında belə deyirdi: "Partiyanın "Yeni Azərbaycan Partiyası" adlandırılması təbiidir. Azərbaycan yeni müstəqil dövlətdir. Bu mənada partiyamız da yenidir... Mən həmişə proqrama yenidən baxanda bir daha görürəm ki, biz bu partiyanı yaradarkən onun siyasi-iqtisadi istiqamətini, siyasi yolunu düzgün müəyyən etmişik".

Belə çətin və mürəkkəb şəraitdə yaranan Yeni Azərbaycan Partiyası Azərbaycan cəmiyyətində öz tarixi missiyasını yerinə yetirməyə başladı. Müdrik Azərbaycan xalqı problemlərinin həllini özünün yetirdiyi və ona bacarıqla və sədaqətlə xidmət edən Böyük Azərbaycanlı Heydər Əliyevin rəhbərliyi ilə yaranan və fəaliyyət göstərən bir partiyada gördü. Zaman onun ehtimallarını doğrultdu.

Yeni Azərbaycan Partiyası həm müxalifətdə, həm iqtidarda olduğu dövrdə cəmiyyətdə avanqard qüvvəyə çevrildi. Yeni müstəqillik qazanmış dövlətin problemlərinin həllində Ulu Öndər Heydər Əliyevə böyük dəstək oldu.

2005-ci ildə Prezident İlham Əliyevi özünün sədri seçən YAP onun rəhbərliyi ilə uğurlu fəaliyyət göstərir. Heydər Əliyevin siyasi irsinə söykənən partiya quruculuq işlərində daim öndədir, xalqın yüksək etimadındadır. Tarixi köklərə bağlı olaraq partiya daim yenilənir, yeni qüdrətli və nüfuzlu Azərbaycan quruculuğunun onun üçün əsas amal olduğunu daim təsdiq edir.

Və 30 ilini şərəflə yaşamış bu siyasi qüvvə Heydər Əliyevin "Yeni Azərbaycan Partiyası - dünənin, bu günün və sabahın partiyasıdır" deyimini fəaliyyəti ilə sübut edir.

***Aydın MİRZƏZADƏ,***
***Milli Məclisin deputatı***

# YAP-ın təsis edilməsinin 30-cu ildönümü ilə əlaqədar silsilə tədbirlər davam edir

Yeni Azərbaycan Partiyasının (YAP) təsis edilməsinin 30-cu ildönümü ilə əlaqədar partiyanın Mərkəzi Aparatı tərəfindən hazırlanmış və İdarə Heyətinin qərarı ilə təsdiq edilmiş tədbirlər planına uyğun olaraq silsilə tədbirlər davam edir.



Tədbirlər planı çərçivəsində noyabrın 4-də partiyanın Qəbələ və Pirallahı rayon təşkilatları tərəfindən tədbirlər keçirilib.

Tədbirlərdə Ümummilli Lider Heydər Əliyevin və şəhidlərimizin əziz xatirəsi dərin ehtiramla yad edilib.

Keçirilən tədbirlərdə - Qəbələ rayonunda YAP Qəbələ Rayon Təşkilatının sədri Abil Ağasəfov, Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı Səbuhi Abdullayev, YAP İdarə Heyətinin üzvü, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədr müavini Aynur Sofiyeva, Milli Məclisin deputatı Aqiyə Naxçıvanlı, Pirallahı rayonunda YAP Pirallahı Rayon Təşkilatının sədri Emil Abasov, Pirallahı Rayon İcra Hakimiyyətinin başçısı Vasif İmanov, YAP Veteranlar Şurasının üzvü Tahir Məmmədov, YAP İdarə Heyətinin üzvü, Milli Məclisin deputatı Rauf Əliyev, "Yeni Azərbaycan" qəzetinin baş redaktoru Alqış Musayev, "Səs" İnformasiya Agentliyinin baş direktoru Bəhruz Quliyev və başqaları çıxış ediblər.

Çıxışlarda Yeni Azərbaycan Partiyasının 30 il ərzində keçdiyi zəngin və şərəfli inkişaf yoluna nəzər salınıb. Azərbaycan dövlətinin Ümummilli Lider Heydər Əliyevin ideyaları əsasında və Prezident İlham Əliyevin rəhbərliyi ilə möhtəşəm nailiyyətlər qazanaraq yeni zirvələr fəth etdiyi diqqətə çatdırılıb.

Tədbirlərdə YAP sıralarına yeni qəbul olunmuş şəxslərə üzvlük vəsiqələri və partiya fəallarına fəxri fərmanlar təqdim edilib.

Bundan əlavə, tədbirlər planına uyğun olaraq noyabrın 4-də YAP Xəzər Rayon Təşkilatının gənc fəalları Heydər Əliyev Mərkəzini ziyarət ediblər.




## 2022-ci il "Şuşa ili"dir

# Qədim şəhər, möhtəşəm tarix

## Şuşa Azərbaycanın zəngin şəhərsalma mədəniyyətinin bənzərsiz incisidir

**Qarabağ xanlığı 1747-ci ildə Nadir Şah Əfşarın ölümündən sonra tarixi Azərbaycan torpaqlarında yarandı. Kiçik Qafqaz dağlarının cənub-şərqində yerləşən Qarabağ xanlığı Azərbaycanın xeyli ərazisini əhatə edirdi. Xanlığın sərhədləri Araz çayından Göyçə gölünədək, Tərtər çayından bütün düzənlik və Yuxarı Qarabağı, Zəngəzuru, Bərgüşadı əhatə etməklə yanaşı, Mehri və Qarakilsə şəhərinə (indiki Ermənistan ərazisi) qədər uzanırdı.**

Qarabağ xanlığının banisi Azərbaycanın görkəmli dövlət xadimlərindən biri olan Pənahəli xan Cavanşir olmuşdur. Qarabağ xanı Pənahəli bəy Cavanşirlər elinin (tayfasının) Sarıcalı oymağından idi. Cavanşir elinin Sarıcalı oymağının başçıları XVIII yüzildə xanlıq yaratdıqdan sonra Sarıcalı-Cavanşir kimi tanındılar. Cavanşirlər tayfası Qarabağın qədim sakinlərindən olmuş və uzun müddət Azərbaycanın ictimai-siyasi həyatında mühüm rol oynamışdır.

Qarabağ xanlığı müstəqil dövlət elan edildikdən sonra başlıca vəzifə onun möhkəmləndirilməsinə nail olmaq idi. Pənahəli xanın bu sahədə ilk tədbirlərindən biri Qarabağın sürgün olunmuş türk əhalisini - Cavanşir, Otuziki və Kəbirli ellərini geriyə, doğma torpağa qaytarmaq oldu. Köçkünlərin geri qaytarılması və dədə-baba torpaqlarında yerləşdirilməsi Qarabağ xanlığını daha da gücləndirdi.

### Qarabağ xanlığının əsas paytaxt qalalarının salınması

Həmin dövrdə Pənahəli xan Sarıcalı-Cavanşir strateji əhəmiyyətli müdafiə qalalarının tikilməsini lazım bildi. Bu sahədə ilk addımlardan biri qədim Azərbaycan - türk tayfası bayatların adı ilə bağlı olan Bayat qalasının tikilməsi oldu. Beləliklə, Pənahəli xan Cavanşir 1748-ci il yanvar ayının 2-də Ağcabədi yaxınlığında Kəbirli mahalında xanlığın ilk paytaxtı olan Bayat qalasının bünövrəsini qoydu. Xan bütün ailəsini, qohumlarının və bayat elinini böyüklərini oraya topladı. Ətrafda olanlar, hətta Pənahəli xanın rəftar və məhəbbətini eşidən Təbriz və Ərdəbil vilayətlərinin bir çox əhalisi və sənətkarları da öz ailələri ilə birlikdə gəlib Bayat qalasında yerləşdilər.

Pənahəli xanın "Qarabağ hakimi" kimi tanınmasında Şəki xanlığının Qarabağ üzərinə uğursuz yürüşü mühüm rol oynamışdı. Şəki xanı Hacı Çələbi özünün 1748-ci ildəki uğursuz Bayat yürüşündən sonra Pənahəli xanın qəhrəmanlığı o zaman Qarabağda yaşayan bütün türk tayfalarının müharibəsiz olaraq onun tabeliyinə keçməsini şərtləndirdi.

Bununla yanaşı, Bayat döyüşü bu qalanın gələcək tarixi sınaqlara dözə bilməyəcəyini də üzə çıxardı. Ona görə də yeni qala salınmasına daha çox ehtiyac var idi. Həmçinin Bayat qalasının strateji mövqeyi zəif, iqlimi isti olduğundan orada uzun müddət böyük hərbi qüvvə saxlamaq da mümkün deyildi. Bu səbəbdən də Pənahəli xan tərəfindən Ağdamın 10 kilometrliyində yerləşən "Şah bulağı" adı ilə məşhur olan bulağın yanında inşaat işlərinə başlanıldı və kiçik qala-şəhər halına salındı.

Qarabağ tarixçilərinin məlumatına görə, Pənahəli xanın iqamətgahını Bayat qalasından Şahbulaq qalasına köçürtməsi XVIII yüzilliyin 50-ci illərinə təsadüf edir. 1749-1750-ci illərdə Tərnəküt adlandırılan ərazidə, Şahbulağının üstündə Şərq memarlıq üslubunda, Orta əsr qalalarına məxsus əzəmətli görünüşdə məşhur Şahbulaq qalası yerli inşaat materialları olan əhəngdən və dağ daşlarından inşa olunmuşdu.

Bunda əlavə, kompleks yaşayış evlərindən, bazar meydanı, hamam və məsciddən ibarət olmuşdur. İki ilə başa çatan kompleksin mühafizə divarları yaxınlığında Qarabağ xan sarayı yerləşirdi. Qala plana əsasən, düzbucaqlı formada inşa edilmişdir. Tədqiqatçıların fikirlərinə görə, Şahbulaq qalasının memarlıq üslubu Qarabağ xanlığında inşa edilən bir sıra tikililərin, o cümlədən Qarabağın mərkəzi Şuşa şəhərinin inşaat işlərinə də əhəmiyyətli təsir göstərmişdir. Şuşa qalası bütün qaladaxili qəsrlərinin memarlıq-planlaşdırma və strukturu baxımından, demək olar ki, Şahbulaq qalasının xüsusiyyətlərini təkrarlayırdı. Şuşa qalası keçilməz, əlçatmaz bir yerdə inşa edilmişdi, hətta ən güclü düşmənin belə onu mühasirəyə almasına imkan vermirdi. Qarabağ xanlığının paytaxtı Şuşa qalasına köçürüldükdən sonra Şahbulaq qalası xanlığın yay iqamətgahına çevrildi. Mühüm memarlıq abidəsi olan Şahbulaq qalası Birinci Qarabağ müharibəsinə qədər yaxşı mühafizə edilərək saxlanılmışdı. Keçmiş SSRİ dövründə Ağdam səhərinə gələn bütün xarici qonaqlar bu abidəni ziyarət edirdilər. Bu baxımdan, abidə kompleksi həmişə diqqət mərkəzində olmuş və demək olar ki, Ağdamın simvoluna çevrilmişdi.









### Qarabağ xanlığının paytaxtı - Şuşa qalasının və şəhərin qədim məhəllələrinin salınması

Şuşa qalası uzun illər boyu Azərbaycanın Qarabağ xanlığının paytaxtı olmuşdur. Qarabağ xanlığının əsasının qoyulması və Şuşa şəhərinin onun paytaxtına çevrilməsi Pənahəli xanın (1693-1763) adı ilə bağlıdır. Qarabağ xanı Pənahəli xan Cavanşirlər tayfasının Sarıcalı oymağından idi. Bu Azərbaycan tayfası Qarabağın qədim sakinlərindən olmuş və uzun müddət bölgənin ictimai-siyasi həyatında mühüm rol oynamışdır. Şuşa qalasının salınması 1750-1751-ci illərdən hesab edilir. Tarixi mənbələrə görə, 1750-ci ildə hündür, sıldırım dağ üstündə qalanın inşasına başlandı və həmin əsrin sonrakı illərində qala divarlarının çəkilməsi davam etdirildi. Qarabağ xanı Pənahəli xan 1752-ci ildə Şuşanı paytaxt elan edib oranı möhkəmləndirmiş, Qala-şəhərə çevirmişdi. Şəhər bir müddət Pənahəli xanın şərəfinə "Pənahabad", sonradan isə "Şuşa qalası" və "Şuşa" adlandırılmışdır.

XVIII əsrin ikinci yarısından başlayaraq Şuşanın əhalisi sürətlə çoxalmış və Azərbaycanın mühüm, strateji əhəmiyyətli şəhərlərindən birinə çevrilmişdir. Hələ Pənahəli xanın hakimiyyəti dövründə (1747-1763) şəhərdə böyük tikinti işləri aparılmış, sonra İbrahimxəlil xanın dövründə (1763-1806-cı illər) isə Qarabağ xanlığı daha da güclənmişdir. Xanlığın ərazisində Əskəran, Ağoğlan qalaları, Şuşa qalasının divarları və digər diqqətəlayiq, strateji əhəmiyyətli qalalar tikilmişdir. Şəhər qısa müddət ərzində xeyli böyümüş, təbii gözəlliyi, hündür binaları və möhtəşəm qala divarları ilə diqqəti cəlb etmişdir.

Şəhərdə 17 məhəllə var idi ki, onların hər birinin məscidi, bulağı və hamamı mövcud olmuşdur. Pənahəli xanın hakimiyyəti illərində (1747-1763) şəhərin salınmasının ilkin mərhələsində ən qədim məhəllələr sonralar şəhərin relyefinə uyğun olaraq, "Aşağı məhəllə" adlandırılmışdır. "Aşağı məhəllə" 9 məhəllədən təşkil olunmuşdur: Seyidli, Çöl Qala, Çuxur Məhəllə, Quyuluq, Dördlər Qurdu, Qurdlar, Merdinli, Hacı Yusifli, Culfalar. Şuşanın bir şəhər kimi formalaşmasının ikinci mərhələsi İbrahimxəlil xanın hakimiyyəti illərinə (1763-1806) təsadüf edir. Bu mərhələdə "Yuxarı məhəllə" adlanan ikinci məhəllə formalaşmışdır. "Yuxarı məhəllə" 8 məhəllədən təşkil olunmuşdur: Saatlı, Mamayı, Köçərli, Xocamircanlı, Ağadədəli, Dəmirçilər, Təzə Məhəllə, Hamamqabağı.

### Şuşa şəhərinin qala qapıları, mərkəzi meydan və küçələri

Şuşa qalası üç əsas qapıya malik olmuşdur: Gəncə, İrəvan və Ağoğlan qapıları. Hər üç qapının adı tarixi mənbələrdə tez-tez xatırlanır, həmçinin onların adı Şuşanın XIX əsrdə çəkilmiş bütün baş planlarında qeyd edilir.

Gəncə qapısı - Şuşa qalasının üç əsas qapısından biri olmaqla qalanın şimal tərəfində yerləşir. Pənahəli xanın hakimiyyəti dövründə inşa edilmiş qapı, artıq XVIII əsrdən etibarən Gəncə qapısı adlandırılırdı. Şuşa qalasının bu qapıdan çıxan yolu şəhəri Gəncə şəhəri ilə birləşdirirdi. Şuşa qalasının şimal qapısı hesab edilən Gəncə qapısı qala divarlarının ortasında - Ağoğlan və İrəvan qapılarının arasında yerləşir. Şuşa qalasının digər qapıları ilə müqayisədə Gəncə qapısı müasir dövrümüzə daha yaxşı saxlanmış vəziyyətdə çatmışdır.

İrəvan qapısı - Şuşa qalasının üç əsas qapısından biri olmaqla qalanın qərb tərəfində yerləşir. Pənahəli xanın dövründə inşa edilmiş bu qala qapısı XVIII əsrdən etibarən İrəvan qapısı və ya Xəlfəli qapısı adlandırılırdı. Bu qapıdan çıxan yol, Şuşa şəhərini Xəlfəli kəndi ilə, oradan isə İrəvan şəhərinə gedən yol ilə birləşdirirdi.

Ağoğlan qapısı - Şuşa qalasının üç əsas qapısından biri olmaqla qalanın şərq tərəfində yerləşir və şəhərin aşağı hissəsinə girişi təmin edirdi. XIX əsrdə qalanın aşağı tərəfində, şərq qapısı yaxınlığında Şuşa həbsxanası inşa edilmişdir. Həbsxananın inşa edilməsi zamanı qala divarlarının bir hissəsi və müdafiə qüllələri həbsxana divarları kimi istifadə edilmişdir. Bu zaman qapı da həbsxanaya giriş kimi dəyişdirilərək yenidən formalaşdırılmışdır (39, s.32-34).

Şuşanın mərkəzi meydan və küçələri sırasında, ilk növbədə, "Bazarbaşı" və ya "Divanxana meydanı" adlanan yerin adını qeyd etmək lazımdır. "Bazarbaşı" adlanan yer Gəncə qapısından keçdikdə Şuşa qalası daxilində yerləşən ilk və ən böyük şəhər meydanıdır. Şəhərin ən böyük ticarət küçəsi olan "Rastabazar" öz başlanğıcını məhz bu meydandan götürür.

XIX əsrin I yarısında Şuşada aparılan yenidənqurma işləri zamanı Xan sarayını əhatə edən qala divarlarının bir hissəsi, o cümlədən meydan ərazisində yerləşən tikililər sökülmüş, bundan sonra "Divanxana meydanı" ictimaiyyətə açılmışdır. Həmin dövrdən sonra bu meydan həm də "Bazarbaşı" adlandırılmağa başlanılmışdır. Müasir dövrümüzə kimi saxlanılmış bu adın verilməsinin əsas səbəbi o zamanlar inkişaf etdirilən və ticarət sıraları yerləşdirilmiş "Rastabazar" küçəsinin öz başlanğıcını məhz bu meydandan götürməsidir.

"Divanxana meydanı"nda Qarabağ xanının Divanxanası yerləşmiş, XX əsrin 60-70-ci illərində qədim Divanxana binasının yerində Mədəniyyət evi inşa edilmişdir. 1992-ci ildə Şuşa şəhəri Ermənistan silahlı qüvvələri tərəfindən işğal edildikdən sonra isə Mədəniyyət evi dağıdılmış, bina tamamilə məhv edilmişdir.

"Meydan" adlanan yer Şuşanın əsas şəhər meydanıdır. Şuşa qalasının Gəncə qapısı yaxınlığındakı "Bazarbaşı"ndan başlanğıcını götürən Şuşanın əsas ticarət magistralı olan "Rastabazar" küçəsi məhz "Meydan"da tamamlanır, beləliklə, "Meydan" və "Bazarbaşı"nı əlaqələndirir. "Meydan"ın əsas memarlıq elementləri dini və ticarət binalarıdır ki, bu xüsusiyyət də XVII-XVIII əsrlər Azərbaycan şəhərlərində salınmış meydanlar üçün xarakterikdir.

"Aşağı meydan" və ya "Torpaq meydanı" adlanan yer Şuşa şəhərinin ən qədim şəhər meydanlarından biridir. Şuşa şəhərinin aşağı hissəsində yerləşir. "Aşağı meydan" xalq arasında həm də "Torpaq meydanı" adı ilə tanınır. Bu adın yaranmasının səbəbi isə Şuşanın digər şəhər meydanlarından fərqli olaraq buranın daşlarla döşənməməsi və torpaq örtüyə malik olması ilə əlaqəlidir. Şuşa şəhərinin tarixi qeyd edilməmiş baş planında "Aşağı meydan"ın qərb tərəfində yerləşən, bir-birinə bitişik iri ictimai binalar mövcud olmuşdur. Həmin binaların heç biri dövrümüzə qədər gəlib çatmamışdır.

"Rastabazar" adlanan küçə Şuşa şəhərinin mərkəzində yerləşməklə yanaşı, "Bazarbaşı" və "Meydan"ı birləşdirən, XIX əsrin II yarısından etibarən isə həm də əsas ticarət mərkəzi rolunu oynayan tarixi küçədir.

"Şeytan bazar" adlanan küçə Şuşa şəhərinin mərkəzində yerləşməklə "Meydan"dan başlayan və "Rasta bazar" küçəsinin davamı olan tarixi küçədir. Qarabağ xanının vəziri və şair Molla Pənah Vaqifin malikanəsi bu küçədə yerləşmişdir.

"Aşağı bazar" adlanan küçə isə Şuşanın mərkəzində yerləşən üç əsas magistral küçədən biridir. "Aşağı bazar" və "Rastabazar" küçələrinin kəsişməsi nəticəsində şəhərin əsas ticarət və ictimai mərkəzi olan "Meydan" formalaşır. Şəhərin ən qədim və mühüm ticarət küçəsi olan "Aşağı bazar" küçəsi "Aşağı meydan" və "Meydan"ı birləşdirir.

XIX əsrin birinci yarısına kimi Şuşanın əsas ticarət küçəsi olmaqla yanaşı, həmin dövrdə "Aşağı bazar" küçəsi həm də uzun mərkəz rolunu oynayırdı. Qarabağ tarixçisi Baharlının verdiyi məlumata görə, həmin dövrdə "Aşağı bazar" küçəsində ticarət sıraları ilə yanaşı, karvansara və hamamlar, o cümlədən Uğurlu bəy hamamı yerləşirdi.

### Şuşada qədim tarixə malik şəhərsalma mədəniyyəti, sənətkarlığın və ticarətin inkişafı

Şuşanın ticarət mərkəzinin bənzərsiz görkəmi onun magistralına bitişik iri bazar meydanı ilə tamamlanırdı. Şəhərin "Meydan" deyilən əsas meydanı "Rastabazar" küçəsi boyunca tikilmiş ibadətgah və ticarət təyinatlı tikililərdən, birmərtəbəli dükanlardan, ikimərtəbəli karvansaradan və qoşa minarəli yaraşıqlı Cümə məscidindən ibarət idi. Şuşada XIX əsrin ikinci yarısında "Bazarbaşı" deyilən yerdən "Şeytan bazar"a qədər uzanan üstü örtülü ticarət mərkəzi olan "Rastabazar"ın sıra ilə düzülən və daşları bir-birinə qurğuşunla bərkidilən sütunlardan, tağlardan ibarət olan və qalereyanı xatırladan səkiləri başdan-başa örtülü olduğundan bütün fəsillərdə quru və təmiz qalırdı. Orta əsr Şərq üslubunda zövqlə tikilən bu bazar həm də şəhərə xüsusi yaraşıq verirdi.

XVIII əsrin ikinci yarısında Yaxın Şərqə, Türküstana və Avropaya gedən karvan yolları ayrıcında yerləşən Azərbaycanın tarixi, mədəni və strateji əhəmiyyətə malik şəhəri sayılan Şuşa özünün yunu, xalçası, ipəyi, dərisi, parçası və çini qabları ilə dünya bazarları miqyasına çıxa bilmiş, istehsal etdiyi sənaye və kənd təsərrüfatı məhsullarını şuşalı tacirlər Tehran, Təbriz, İstanbul, Bağdad, Səmərqənd, Moskva, Həştərxan kimi böyük şəhərlərdə satırdı.

Göründüyü kimi, istehsal prosesinin sürətlə inkişafı şəhərin iqtisadiyyatının möhkəmlənməsinə kömək etmiş, əhalinin sosial vəziyyətinə müsbət təsir göstərmişdi. Bu dövrdə Şuşada bir sıra əzəmətli məscid, mədrəsə və karvansaranın tikilməsi də, məhz onun xarici bazarlardan götürdüyü qazanc sayəsində mümkün olmuşdu.

XVIII əsrin 80-ci illərində şəhərin dövrəsinə möhtəşəm qala divarları çəkilib başa çatdırıldı. Bu dövrdə şəhərdə çoxsaylı sənətkar məhəllələri yaranır, ticarət daha sürətlə inkişaf edirdi. Şuşalı tacirlər Təbriz, Tehran, İsfahan, İstanbul, Bağdad, Səmərqənd, Moskva, Leypsiq, London, Mançester, Marsel və başqa şəhərlərlə ticarət əlaqələri saxlayırdı. Şəhərdə "Pənahabadi" adlı gümüş sikkələr zərb edilirdi.

Şəhərin ticarət həyatında bazarlarda, karvansaralarda və şəhər meydanlarında yerləşən dükanlar da mühüm rol oynayırdı. XX əsrin əvvəllərində şəhərdə 1464 dükan qeydə alınmışdı ki, bunların da bazarlarla birlikdə illik ticarət dövriyyəsi 6 milyon rubla çatmışdı.

Məşhur rəssam V.Vereşşagin Şuşanı görəndən sonra yazmışdı: "Bu şəhərin evləri düzgün formalı, qəşəng və hündür olub, çoxsaylı və gözəl pəncərələrlə işıqlandırılır. Qayalıqlar qoynunda yerləşən bu şəhər elə həmin qayalıqlardan götürülmüş daşlardan tikilmişdir. Şəhərin bütün küçələrinə enli daş plitələr döşənmiş, evlərin damları tirlərdən düzəldilmişdir".

Tarixi mənbələrdə XVIII əsrin sonu - XIX əsrin əvvəllərində artıq Şuşada çoxlu sayda manufakturaların və 2 mindən çox sənətkarın fəaliyyət göstərdiyi bildirilir. 1809-cu ilin məlumatına görə, o dövrdə Şuşada 1500 toxucu dəzgahı fəaliyyət göstərirdi. Bu da ən azı 1500 sənətkar demək idi. Tarixi mənbələrdə XVIII əsrin sonu - XIX əsrin əvvəllərində artıq Şuşada çoxlu sayda manufakturaların və 2 mindən çox sənətkarın fəaliyyət göstərdiyi bildirilir. XIX əsrin 60-cı illərində Şuşada illik ticarət gücü 78 milyon rubla bərabər olan ipəksarıma fabrikləri fəaliyyət göstərirdi ki, çox keçmədən həmin müəssisələrin illik istehsal gücü 117 milyon rubla çatmışdı.

XIX əsrin ikinci yarısında tikinti işləri Şuşada daha geniş vüsət almışdı. Xurşidbanu Natəvanın, Gövhər ağanın, Cəfərqulu xanın, Uğurlubəyin, Fərzəlibəyin, Nəcəfqulu ağanın, Hacı qulunun, Səfibəyin tikdirdiyi yeni tipli saray və imarətlər şəhərə xüsusi gözəllik verirdi. Dövlət tərəfindən əsası qoyulan bir sıra məktəb binaları, Qarabağın imkanlı adamlarının sayəsində ucaldılan məscid və hamamlar ozamankı memarlıq abidələrinin ən gözəl nümunələrindən sayılırdı. 1873-cü ildə Vyana şəhərində açılmış beynəlxalq sərgidə Şuşanı təmsil edən nümayəndələr də iştirak etmiş və onların sərgidə nümayiş etdirdikləri eksponatlar xaricilərdə dərin maraq oyatmışdı.

1840-cı il inzibati-ərazi bölgüsü zamanı Şuşa qəzası yaradıldıqda Şuşa şəhəri yenə mərkəz olmuşdu. 1873-cü il kameral təsvirinə görə, Şuşada 24552, 1886-cı il siyahısına görə, 26806, 1897-ci il Ümumrusiya siyahıyaalmasına görə isə 25581 nəfər əhali qeydiyyata alınmışdı. 1897-ci il Ümumrusiya siyahıyaalmasına görə, Şuşada 2272 nəfər zadəgan, 270 nəfər din xadimi, 1416 nəfər tacir, 2738 nəfər sənətkar, 97 nəfər dövlət məmuru, 334 nəfər hərbçi və başqaları qeydə alınmışdı.

1903-cü ildə Tiflisdə nəşr olunmuş "Kavkazskiy Vestnik" jurnalının 43-cü səhifəsində göstərildi ki, "Şuşanın görünüşü Orta əsr Avropa şəhərlərini xatırladır. Bu şəhərin tacirləri ipək-barama alverində üstün mövqeyə malik olub, Tiflis, Moskva və Marsel şəhərləri ilə birbaşa ticarət əlaqəsi saxlayırlar". "Qafqaz" qəzetinin icmalçısı isə 1868-ci il 24 may tarixli şərhində göstərmişdi: "Şuşa gündən-günə yox, saatdan-saata böyüyür, onun ticarəti inkişaf edir, şəhər əhalisi varlanır. Buraya hər tərəfdən dəstə-dəstə adam axışıb gəlməkdədir. Beləliklə, şəhərdə 25 min əhali yaşadığını cəsarətlə söyləmək olar".

### XX əsrin sonunda Ermənistanın Azərbaycana hərbi təcavüzü, Şuşanın işğalı və mədəni soyqırımı siyasəti

XX əsrin 80-ci illərinin sonu - 90-cı illərinin əvvəllərində SSRİ rəhbərliyinin ermənilərə himayədarlığı sayəsində hadisələr getdikcə daha da mürəkkəbləşdi və Ermənistan Respublikası Azərbaycan ərazilərinə hərbi qüvvə göndərərək açıq təcavüzə başladı. 1992-ci ilin əvvəllərindən başlayaraq Ermənistan silahlı qüvvələri bir-birinin ardınca Qarabağın dağlıq hissəsində azərbaycanlılar yaşayan sonuncu yaşayış məntəqələrini də işğal etdi.

1992-ci il mayın 8-də Şuşanın Ermənistan silahlı qüvvələri tərəfindən işğalı nəticəsində rayonun 25 məktəbi, 31 kitabxanası, 17 klubu, 8 mədəniyyət evi, 4 texnikumu, 2 institut filialı, 7 uşaq bağçası, 4 kinoteatrı, 5 mədəniyyət və istirahət parkı, 2 sanatoriya, turist bazası, 2 mehmanxana, Azərbaycan Xalçası Dövlət Muzeyinin Şuşa filialı, Şuşa Dövlət Dram Teatrı, Şuşa Televiziyası, Şərq musiqi alətləri fabriki, Dövlət Rəsm Qalereyası, Uşaq sağlamlıq məktəbi talan edilmiş, yandırılmış və dağıdılmışdır.

Bununla yanaşı, işğala qədər Şuşada memarlıq abidəsi sayılan 850-dən çox yaşayış binası və 300-dək mədəniyyət və tarixi abidə var idi. Bunların içərisində Son Tunc və İlk Dəmir dövrü abidəsi sayılan Şuşa və Şuşakənd daş qutusu qəbirləri, Daş dövrü abidəsi olan Şuşa mağara düşərgəsi, XVIII əsrə dair Şuşa qalasının divarları, Gəncə qapısı, Pənah xanın sarayı və kitabxanası, İbrahim xanın bürcü və qəsri, Xan sarayı və karvansara, M.P.Vaqifin məqbərəsi və büstü, Yuxarı məscid mədrəsəsi, Hacıqulların malikanəsi, İkimərtəbəli karvansara, Mehmandarovların malikanə kompleksi, Gövhər ağa, Xocamircanlı, Merdinli, Saatlı, Köçərli məscidləri, Xurşidbanu Natəvanın evi və bulağı, Ə.B.Haqverdiyevin, Q.B.Zakirin, M.M.Nəvvabın, S.S.Axundovun, Y.V.Çəmənzəminlinin evləri, Mamay bəyin evi, məscidi və bulağı, Behbudovların, Fərəməzovların, Zöhrabbəyovun, Bəhmən Mirzənin evləri, Üzeyir bəy Hacıbəylinin, Bülbülün ev-muzeyləri, Xan Şuşinskinin, tarzən Sadıqcanın evləri, Real məktəbin binası, Şirin su hamamı, Meydan bulağı, İsa bulağı və s. tarixi mədəniyyət nümunəsi erməni işğalçıları tərəfindən talan edilmiş, dağıdılmış və ya məhv edilmişdir.

### Şuşanın işğaldan azad edilməsi Zəfər Günü kimi tarixə yazıldı

Azərbaycan Prezidenti İlham Əliyev hələ 2020-ci il oktyabrın 16-da, 44 günlük İkinci Qarabağ müharibəsinin 20-ci günündə Türkiyənin "A Haber" televiziya kanalına müsahibəsində demişdi: "Şuşanın Azərbaycan xalqının qəlbində xüsusi yeri var. Bu, bizim tarixi şəhərimizdir, qədim mədəniyyət ocağıdır. Şuşa Azərbaycan xalqına bir çox istedadlı, dahi şəxslər bəxş edibdir. Əlbəttə ki, Şuşasız bizim işimiz yarımçıq olar. Ona görə təbii ki, Şuşanın işğaldan azad edilməsi bizim hədəflərimizin arasında xüsusi yer tutur. Biz buna çalışmalıyıq, biz buna nail olmalıyıq".

İkinci Qarabağ müharibəsinin taleyində həlledici gün məhz 2020-ci il noyabrın 8-i oldu. Şuşa şəhərinin işğalçılardan azad edilməsi müharibənin sonrakı gedişinə, eləcə də taleyinə ciddi təsir göstərdi və Azərbaycanın hərb meydanında olduğu kimi, diplomatiya meydanında da uğurlarını şərtləndirdi.

Azərbaycanın milli və dövlətçilik maraqlarını daim üstün tutan Prezident, Ali Baş Komandan İlham Əliyev 2020-ci il noyabrın 8-də Şuşa şəhərinin azad olunması münasibətilə xalqa müraciətində demişdir: "İyirmi səkkiz il yarım işğal altında olan Şuşa azad edildi! Şuşa indi azaddır! Biz Şuşaya qayıtmışıq! Biz bu tarixi Qələbəni döyüş meydanında qazandıq. 2020-ci il noyabrın 8-i Azərbaycan tarixində əbədi qalacaqdır. Bu tarix əbədi yaşayacaq. Bu, bizim şanlı Qələbəmizin, Zəfərimizin günüdür!"

Azərbaycan Prezidentinin dekabrın 3-də imzaladığı sərəncama əsasən, noyabrın 8-i bayram günləri sırasına daxil edildi və hər il Azərbaycanda Zəfər Günü kimi təntənəli şəkildə qeyd ediləcək. Azərbaycan Respublikasında Zəfər Gününün təsis edilməsi haqqında Prezidentin sərəncamında vurğulanır ki, Azərbaycanın hərbi sahədə qazandığı qələbələr, xüsusilə Şuşanın düşmən əsarətindən qurtarılması müharibənin taleyində həlledici rol oynadı, Ermənistanın öz məğlubiyyətini etiraf etməsi və kapitulyasiyası ilə nəticələndi, Ermənistanı Kəlbəcər, Ağdam və Laçın rayonlarını Azərbaycana qaytarmağa məcbur etdi.

Prezident İlham Əliyevin Şuşanın Azərbaycan xalqı üçün tarixi əhəmiyyətini, yüksək mədəni-mənəvi dəyərini nəzərə alaraq, 2022-ci ilin "Şuşa ili" elan edilməsi haqqında imzaladığı sərəncamda deyilir ki, bənzərsiz tarixi görkəmini və formalaşdırdığı özünəməxsus mühiti həmişə qoruyub saxlayan bu şəhər yetirdiyi böyük şəxsiyyətləri ilə ədəbi, mədəni, elmi və ictimai fikir salnaməmizə əlamətdar səhifələr yazmışdır.

***Elçin ƏHMƏDOV,***
***Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının professoru, siyasi elmlər doktoru***

# Xalq bizimlə, biz də Ali Baş Komandanımızla qürur duyuruq



Bakı Şəhər İcra Hakimiyyətinin nəşr etdiyi "ZƏFƏR MEMUARLARI. Döyüşçülər sərkərdə və müharibə haqqında" kitabından istifadə olunub

## KƏRİMOV ƏLİ VALEH OĞLU
**kapitan**

*1989-cu il oktyabrın 14-də Naxçıvan Muxtar Respublikasının Kəngərli rayonunda anadan olub. 1996-2005-ci illərdə orada orta məktəbdə oxuyub.*

*2005-2008-ci illərdə Naxçıvandakı Heydər Əliyev adına Hərbi Liseydə, 2008-2012-ci illərdə isə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində xüsusi təyinatlı ixtisası üzrə təhsil alıb.*

*2012-ci ildə leytenant rütbəsi ilə Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzində kurs keçib, 2013-cü ildən Xüsusi Təyinatlı Qüvvələrdə xidmətə başlayıb.*

*Türkiyədə təməl komando, xizəkçilik, dağçılıq, antiterror, xüsusi qüvvələr kursu keçib. 2020-ci ildə Türkiyədə dərin qar, şiddətli soyuqlar zamanı müharibə və xizəkçilik kurslarında müəllim kimi xüsusi təyinatlılara dərs keçib. Hazırda Xüsusi Təyinatlı Qüvvələrdə hərbi xidmətdədir.*

*Vətən müharibəsi iştirakçısıdır.*

*"Azərbaycan Bayrağı" ordeni və "Xocavəndin azad olunmasına görə", "Füzulinin azad olunmasına görə", "Şuşanın azad olunmasına görə", Azərbaycan Silahlı Qüvvələrinin 90, 95, 100 illik "Yubiley" və 3-cü dərəcəli "Qüsursuz xidmətə görə" medalları ilə təltif edilib.*

*Ailəlidir, 1 övladı var.*



*Müzəffər Azərbaycan Ordusunun şanlı zəfəri ilə başa çatan Vətən müharibəsi biz döyüşçülər üçün həm də bir sınaq, imtahan oldu. Sınaqdan uğurla, imtahandan yüksək qiymət almaqla çıxdıq. Vətənin dar günündə onun köməyinə yetişən minlərlə igid qanları ilə tarix yazdı. Onlar həm də adlarını Zəfər tariximizə həkk etdirdilər.*

*Vətən müharibəsi Ali Baş Komandanımız İlham Əliyevin 17 il ərzində necə bir qüdrətli ordu yaratdığını göstərdi. Həmin ordu illərlə Qarabağda möhkəmlənən düşməni 44 günə qarşısında diz çökdürdü, təslim aktına imza atdırdı.*

*Fəxr edirəm ki, müzəffər Azərbaycan Ordusunun qalib zabiti kimi yazılan şərəfli tarixdə mənim də imzam var.*





### Hərbçi ailəsinin kəşfiyyatçısı

Uşaqlıqdan hərbiyə marağım olub. Birinci Qarabağ müharibəsi iştirakçısı olan atam uzun illər hərbidə feldşer işləyib. Qardaşım da hərbi mundir daşıyıcısıdır.

Orta məktəbdə oxuyanda artıq qərar vermişdim ki, mütləq hərbçi olacağam. Səkkizinci sinfi bitirib Naxçıvandakı Heydər Əliyev adına Hərbi Liseyə sənəd verdim və qəbul olundum. Üç il oxuduqdan sonra - 2008-ci ildə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinə qəbul olundum. Bir il sonra ixtisas seçimi oldu və mən tərəddüd etmədən kəşfiyyat ixtisasını seçdim. Bu ixtisası seçərkən valideynlərin yazılı ərizəsi olmalı idi. Mən də evə gəlib valideynlərimə dedim və ərizə yazıb razılıqlarını bildirdilər.

2012-ci ildə ali məktəbi bitirib bir il Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzində kurs keçdim. 2014-cü ildə leytenant rütbəsində Naxçıvan Xüsusi Təyinatlı Qüvvələrində xidmətə başladım.

Müxtəlif illərdə həm Naxçıvanda, həm də Türkiyədə bir çox təlimlərdə iştirak etdim. Qardaş ölkədə xizəkçilik, dağçılıq, antiterror, xüsusi qüvvələr kursu keçdim. 2020-ci ildə isə Türkiyədə dərin qar, şiddətli soyuqlar zamanı müharibə və xizəkçilik kurslarında müəllim kimi təlimçi oldum.

Daim hazırlıq keçdik, istənilən döyüş tapşırıqlarını yerinə yetirmək üçün çalışdıq. Tabeçiliyimdə olan əsgərlərin əsl xüsusi təyinatlı kimi yetişməsi üçün əlimdən gələni əsirgəmədim. Çünki biz bilirdik ki, torpaqlarımız düşmən tapdağında uzun müddət qalmayacaq. Ali Baş Komandanımız bütün çıxışlarında bəyan edirdi ki, Azərbaycan xalqı bu işğalla barışmır və barışmayacaq. Qarabağ Azərbaycanın əzəli torpağıdır və biz o yurda qayıdacağıq. Əgər sülh yolu ilə alınmasa, biz başqa variantlara əl atacağıq. Biz onu da görürdük ki, düşmən başqa dövlətlərin himayəsində qalaraq, sülh danışıqlarından yayınır və bəhanələr gətirir. Bu isə müharibəni qaçılmaz edirdi.

Ona görə də Ali Baş Komandanımız hər il hərbi büdcəmizi artırırdı və bu artımlarla Silahlı Qüvvələrin arsenalı modernləşirdi. Ordunun maddi-texniki təchizatı gündən-günə yaxşılaşdırılırdı. Ən son silahlar, ağır artilleriya, hərbi texnikalar alınırdı. Hərbi qulluqçular dövlətin qayğısını hiss edirdilər və bütün bunlar ordunun döyüş ruhunu artırırdı.

2016-cı ildə Aprel döyüşləri, 2018-ci ildə Günnüt əməliyyatı, 2020-ci ilin iyulunda Tovuz döyüşləri isə bizə tezliklə böyük savaşın



başlanacağı mesajını verirdi. Bu döyüşlərdə düşmən Azərbaycan Silahlı Qüvvələrinin nəyə qadir olduğunu gördü, amma işğalçı Ermənistan elə bildi ki, Azərbaycan onun havadarlarından çəkinib müharibə etməyəcək.

Tovuz hadisələri zamanı yüksəkrütbəli zabitlərimizin şəhid olması xalqı ayağa qaldırdı. Ali Baş Komandanımız hər kəsi vahid amal ətrafında səfərbər etdi, nəticədə isə "Dəmir yumruq" əməliyyatı ilə düşmənin başı əzildi. Ermənistana elə bir zərbə vuruldu ki, hələ uzun illər özünə gəlmək üçün yollar axtaracaq.

### Savaş xəbərini toy-bayramla qarşıladıq

Sentyabrın 27-də Ali Baş Komandanın əmri ilə Azərbaycan Ordusu haqq savaşına başladı. Bizə də xəbər gəldi ki, hazırlaşın, savaşa yollanırıq. İnanın ki, hərbi hissədə sanki toy-bayram idi, hamı sevinirdi. Amma bir qorxumuz var idi - müharibədə iştirak edə bilməmək. Müharibə başlayan andan günlərimizi sayırdıq. Çox darıxırdıq, komandirlərimizi bezdirmişdik. Müraciət edəndə deyirdilər ki, hələ gözləyin, komanda veriləndə gedəcəyik.

Biz oktyabrın 11-də Naxçıvandan yola düşdük və ilk olaraq, Füzuli-Xocavənd istiqamətində toplandıq. Burada Naxçıvan Xüsusi Təyinatlı Qüvvələrin komandanı, polkovnik Tehran Mənsimov şəxsi heyət qarşısında çıxış edib Birinci Qarabağ savaşındakı təcrübəsindən, müharibədə bizi nələrin gözlədiyindən, nələrlə qarşılaşa biləcəyimizdən danışdı və öz tövsiyələrini verdi. Polkovnik dedi ki, Vətənin işğalda olan bir metr torpağı uğrunda savaşıb onu geri almaq fəxarətdir.

Daha sonra Bakıdakı Xüsusi Təyinatlı Qüvvələrlə birləşdik və qruplara bölündük. Bir qrupun komandiri mən idim, digərlərinin rəhbərləri isə mayor Mircəlal İsaqov, kapitan Nihat Babayev (şəhid), kapitan Qurban İlhamov və baş leytenant Coşqun Əhmədov idi. Biz qruplarımıza uyğun olaraq döyüş tapşırıqları alır və onu yerinə yetirirdik.

Gecə yola çıxıb əməliyyata başladıq. Məngələnata yüksəkliyinə qalxmalı idik. Eni 2 kilometr olan hündürlüyü ələ keçirmək tapşırığı almışdıq. Yüksəkliyə qədər olan ərazi şumlanmışdı. Bu da hərəkət tempini zəiflədirdi. Hər tərəfdə erməni hərbçiləri yerləşmişdi. Amma biz onların gözləmədiyi istiqamətdən hücum edib tapşırığı yerinə yetirdik. Bu savaşda şəhid vermədik, cəmi üç yaralımız oldu.

Sonra başqa bir tapşırıq aldıq - bu dəfə Yuxarı Yağlıvənd kəndinin sağ cinahındakı yüksəkliyi düşməndən təmizləməli idik. Polkovnik Tehran Mənsimov tapşırıq verdi ki, əməliyyatı kapitan Nihat Babayevin və mənim qrupum həyata keçirməli, baş leytenant Coşqun Əhmədovun qrupu isə bizim arxamızda düşmənin sol cinahdan gözlənilə bilən hücumunun qarşısını almaq üçün mövqe tutmalıdır. İlk baxışdan fikirləşirsən ki, arxamızda mövqe tutmaq nə qədər doğru qərar ola bilər? Amma səhər açılanda baş verən hadisə göstərdi ki, Tehran Mənsimov çox mükəmməl və düşünülmüş qərar verib. Sən demə, biz gecə iki qrupla hərəkət edərkən düşmən böyük qüvvə ilə sol cinahdan yüksəkliyə yaxınlaşıb. Səhər biz hücum əməliyyatına başlayanda düşmənin mühasirəsinə düşəcəkdik. Amma Coşqun Əhmədovun kiçik qrupu buna imkan vermədi. Ermənilər 80-90 nəfər heyətlə bizim 15 nəfər igidimizə qarşı döyüşdə məğlub olaraq geri çəkilmək məcburiyyətində qaldılar. Amma təəssüflər olsun ki, bu savaşda həmin qrupdan iki nəfər qəhrəmancasına savaşaraq şəhid oldu.

Qələbə qazandıqca daha da ruhlanırdıq. Sanki uçurduq və dayanmaq istəmirdik. Düşmən silahını atıb qaçırdı və bu da bizə əlavə stimul olurdu: həm torpaqlarımızı geri qaytarırdıq, həm də xeyli silah-sursatı düşməndən qənimət kimi götürürdük.

Füzulinin Dilağarda kəndi istiqamətində də döyüşlərdə iştirak etdik. Maraqlısı o idi ki, biz düşmənin fikirləşdiyinin tam əksini edirdik.







Qurduqları müdafiə istehkamları kənarda qalırdı. Biz onlara gözləmədikləri anda, gözləmədikləri yerdən zərbə endirirdik.

Ali Baş Komandanımızın söylədiyi kimi, bu, bizim haqq savaşımız idi və biz öz torpaqlarımız uğrunda döyüşürdük; erməni əsgəri kimi təcavüzkar deyildik, öz torpağı uğrunda döyüşən əsgərlər, zabitlər idik. Biz bilirdik ki, erməni əsgəri nəyə qadirdir. Onların bütün döyüş və müdafiə taktikalarını əzbər bilirdik. Ona görə də inamlı və əzmli



idik. Ali Baş Komandanımızın zəfər müjdələri isə bizi həddindən artıq ruhlandırırdı.

### Ermənilər yaralananda bağırırdılar, bizimkilər isə gülə-gülə şəhid olurdular

Sonra biz Bakının "Həmlə" taboru ilə birləşdik və bir yerdə əməliyyatlar keçirdik. Taborun komandiri polkovnik-leytenant Cavid Fərhadov əsgərlərlə birlikdə ən öndə döyüşürdü. Bu isə taborun döyüş ruhunu daha da artırırdı.

Füzulinin Divanalılar kəndini birlikdə azad etdik. Bir istiqamətdən biz, digər istiqamətdən "Həmlə" taboru hərəkət edib kəndi düşməndən təmizlədik. Yaddaqalan döyüş səhnələrindən biri elə bu kənddə oldu: kəndi təmizləyərkən bir erməni hərbçisi ilə yaxın məsafədə gözlənilmədən qarşı-qarşıya gəldim. Erməni məndən cəld tərpənib atəş açdı. Güllələr xoşbəxtlikdən önümdəki ehtiyat avtomat daraqlarına dəydi. Mən isə onu boğazından və ağzından güllələdim.

Kənddən çıxmamışdıq, düşmən kənardan snayper və minaatanlarla bizi atəş altında saxlayırdı. Bu dəfə düşmənin snayperinə tuş gəldim. Amma güllə üstümdəki əl qumbarasına dəyib istiqamətini dəyişdi. Tez özümü kənara atdım və 10 dəqiqə uzanıqlı vəziyyətdə qaldım ki, snayper məni vurulmuş bilsin. Əgər məsafə yaxın olsaydı, qumbara partlaya bilərdi və ümumiyyətlə, sağ qalmaq ehtimalım olmazdı.

Onu da deyim ki, bizim igidlərimiz şəhid olacaqlarını bilə-bilə ölümün üstünə gülə-gülə gedirdilər. Bu, sadəcə, möcüzə idi. Axı insan ölümünü bilə-bilə qorxmadan necə irəliləyə bilər?!

Bu, Vətən, torpaq sevgisi idi. Bu, vətənpərvərliyin, igidliyin ən ali məqamı idi. Erməni əsgəri yaralanan kimi bağırmağa, kömək çağırmağa başlayırdı, yalvarırdı. Amma bizimkilər yaralananda bildirmək istəmirdilər ki, təxliyə olunacaqlar, döyüşləri yarımçıq qalacaq. İgidlərimizin əksəriyyəti gülərək şəhid olurdu, "kəlmeyi-şəhadət"ini söyləyib şəhid olan qardaşlarımızın simasında təbəssüm yaranırdı. Biz nə yaralanmaqdan, nə də şəhid olmaqdan qorxurduq.

Oktyabrın 29-da yeni tapşırıq aldıq: Füzulidəki Üryandağ yüksəkliyi istiqamətində irəliləməli idik. Mənim, kapitan Nihat Babayevin və baş leytenant Coşqun Əhmədovun qrupu birlikdə hərəkət etdik. Əməliyyata gecə başladıq. Düşmənlə qızğın döyüşlər getdi. Dəh-



şətli döyüş idi. Öndə mən gedirdim və düşmən səngərinə yaxınlaşıb girmək istəyəndə hiss etdim ki, ayağımdan güllə dəydi.

Güllə sağ ayağımdan girib sol ayağımdan çıxmışdı. Yaralı vəziyyətdə döyüşə davam etdim. Həmin anda qızğın döyüş gedirdi və o məqamda ilkin tibbi yardım göstərmək mümkün deyildi. Düşmən başımıza güllə yağdırır, minomyotdan atırdı.

Qruplarımız düşmən səngərinə doğru irəlilədilər və əməliyyatı uğurla başa vurduq. Amma təəs-



süflər olsun ki, bu döyüşdə 3-cü qrupun komandiri, dostum kapitan Nihat Babayev snayperlə vuruldu və qəhrəmancasına şəhid oldu. Digər qrupun komandiri Coşqun Əhmədov da düşmənin atdığı əl qumbarası nəticəsində ağır yaralandı. Həmin döyüşdə ümumilikdə beş silahdaşımız şəhidlik zirvəsinə yüksəldi.

Bizə kömək gələcəkdi, ancaq yaralılar ağır idi, ona görə də təxliyə qrupunu gözləmədik. Amma mənim yaramın ağrısı getdikcə şiddətlənirdi və hər iki ayağım qan içində idi. Qrupumuzun sanitarı Anar yanıma gəlib ilkin tibbi yardım etmək istəyəndə snayper onun da ayağından vurdu. Birtəhər birbirimizə yardım etdik. Ağrıkəsici vurub ayağımızı sarıdıq. Sonra polkovnik Tehran Mənsimovla əlaqə saxlayıb vəziyyəti məruzə etdim. Dedim ki, tapşırıq uğurla yerinə yetirilib. Amma 5 şəhidimiz, 12 yaralımız var. Onların içərisində vəziyyəti kafi olanlar tez təxliyə edilməlidirlər. Yüngül yaralılar ağır yaralılara yardım göstərərək ərazini tərk etdik. Şükürlər olsun ki, təxliyə olunan yaralıların hamısı sağ qaldı və onlar bu gün xidmətlərini davam etdirirlər. Mən də hospitala yerləşdirildim və bir müddət müalicə olundum. Yəni bu, mənim Vətən müharibəsində son döyüşüm oldu.

Oktyabrın 30-da məni Füzulidəki hospitala gətirdilər. Müayinədən sonra ayaqlarımda əməliyyat aparıldı və sonra məni Göyçay rayon Mərkəzi Xəstəxanasına göndərdilər. 10 gün orada müalicə aldım. Qələbə xəbərini də orada eşitdim və həm sevindim, həm də kədərləndim. Sevincim bəllidir, lakin kədərlənməyimin səbəbi özümün orada olmamağım, şəhid olan döyüş yoldaşlarımın bu şad xəbəri eşitməmələri idi. Amma onların ruhları şad oldu. Çünki qanları yerdə qalmadı, qisasları alındı və Azərbaycan 28 ildən sonra öz doğma torpaqlarını düşmən tapdağından azad etdi.

Onu da deyim ki, bu döyüşdə bizi ruhlandıran əsas məqamlardan biri yüksək komandanlığın da öndə döyüşməsi idi. Yəni bu müharibədə polkovniklər də əsgərlə çiyin-çiyinə döyüşürdülər. General sıravi əsgərə "qardaşım", "döyüş yoldaşım", "dostum" deyirdi. Bu, hər kəsi ruhlandırırdı. Bu savaşda arxadan heç kim komanda vermirdi; əmr verən əsgərinin yanında komanda verirdi və öz bölməsinin necə irəlilədiyini, hansı çətinlikləri yaşadığını döyüş meydanında görürdü.

### Şanlı zəfərin memarı Ali Baş Komandandır

Bu qələbədə mənim də payımın olması böyük fəxarət hissidir. Qalib ordunun qalib zabiti olmaq çox qürurvericidir. Mən də tarixə düşdüm! Övladlarıma, nəvələrimə nələrisə danışa biləcəyəm. Onlar bizimlə fəxr edəcəklər.

Çünki düşməni əzə-əzə, "bu yolda öldü var, döndü yoxdur" deyə-deyə irəliləyən, son damla qanına qədər döyüşən igidlərimiz 44 günlük haqq savaşımızda illərin həsrətinə son qoydular. Bu igidlər illərdir közə dönmüş gözləri Şuşaya doğru yol çəkən, qələbə xəbəri üçün səbirsizlənən, məğlub kimi gəzməyə məhkum olunmuş bir xalqın kimliyini, mənliyini özünə qaytardı. Düşməni əzib haqqımızı geri aldıq.

Bu, həqiqətən də, tarixi hadisədir. Bu savaş təsdiq etdi ki, Azərbaycan xalqı ümummilli məsələdə birlik nümayiş etdirir. Gördüyüm həqiqət bu oldu ki, savaşda hərbçi də, müəllim də, jurnalist də, həkim



də, o cümlədən digər peşə sahibləri əldə silah çiyin-çiyinə düşmənə qarşı döyüşdülər. Biz öndə döyüşürdük, xalqımız isə bizə hər cür dəstək verirdi. Bu da döyüşçüləri ruhlandırır, daha da həvəsləndirirdi.

Şanlı qələbənin döyüşçüləri bizik, memarı isə Ali Baş Komandanımızdır. Əgər İlham Əliyev kimi sərkərdəmiz olmasaydı, bu qələbə də olmayacaqdı və biz indi də gözükölgəli hərbçi kimi yaşayırdıq. Əgər xalq biz döyüşçülərlə qürur duyursa, biz də Ali Baş Komandanımızla fəxr edirik.

*Hazırda tam sağlam şəkildə Vətənin keşiyində dayanaraq sevdiyim işimi davam etdirirəm və hər zamankı kimi Ali Baş Komandanın istənilən əmrlərini, tapşırıqlarını yüksək səviyyədə yerinə yetirməyə, bu yolda qanımdan, canımdan keçməyə hazıram.*





# Müzəffər Sərkərdənin qüdrətli Ordusu



## Yüksək diqqət, böyük qayğı

### Şəhid ailələrinə, müharibə əlillərinə və iştirakçılarına hərtərəfli sosial dəstək davamlıdır

"…Vətən uğrunda öz canlarını fəda etmiş qəhrəman övladlarımızın ailə üzvləri dövlət tərəfindən qayğı ilə əhatə olunmalıdır və biz bunu bu gün əyani şəkildə görürük. Öz sağlamlığını itirmiş, yaralanmış qazilər bütün dövlət orqanları tərəfindən daim qayğı ilə əhatə olunmalıdır və biz bunu təmin edirik".

2021-ci il iyulun 14-də Prezident İlham Əliyevin Xocasən qəsəbəsində şəhid ailələrinə və müharibə əlillərinə mənzillərin və avtomobillərin təqdim olunması mərasimindəki çıxışında vurğuladığı kimi, Azərbaycanda bu təbəqədən olan insanların sosial rifahının yaxşılaşdırılması dövlət siyasətinin prioritetidir.

Dövlət başçısı həmin çıxışında xüsusilə vurğuladı ki, ölkəmizin bu sahədə tətbiq etdiyi prinsiplər öz unikallığı ilə seçilir: "Çünki bir çox ölkələrdə müharibələr, münaqişələr olub, ancaq mən elə bir ölkə tanımıram ki, müharibələrdə həyatını itirmiş insanların yaxınlarına bu dərəcədə diqqət göstərilsin".

#### "Bizim qəhrəman döyüşçülərimiz gələcək həyatda da daim mənim nəzarətim altında olacaqlar"

Azərbaycan xalqı hər zaman qəhrəman şəhidlərimizin ruhunu əziz, igid qazilərimizin şücaətini uca tutur. Bu kateqoriyadan olan vətəndaşlarımıza dövlətimiz tərəfindən də böyük qayğı və həssaslıqla yanaşılaraq, onların sosial rifahlarının yüksəldilməsi istiqamətində mühüm işlər görülür.

Şəhid ailələrinin, qazilərin hərtərəfli qayğı ilə əhatə olunması, onların bütün sosial ehtiyaclarının ödənilməsi birbaşa Prezident İlham Əliyevin diqqətində olan və gündəliyindəki əsas məsələdir.

Təsadüfi deyil ki, Vətən müharibəsinin qələbə ilə yekunlaşmasından cəmi bir gün sonra, 2020-ci il noyabrın 11-də Prezident İlham Əliyev birinci xanım Mehriban Əliyeva ilə birlikdə 1 saylı Kliniki Tibbi Mərkəzdə müalicə olunan hərbçilərlə görüşə getmişdi. Torpaqlarımızın azadlığı uğrunda qəhrəmanlıqla savaşaraq yaralanan döyüşçülərimizlə zəfər sevincini bölüşən Müzəffər Ali Baş Komandan, "...Mənə arxalana bilərsiniz. Bizim qəhrəman döyüşçülərimiz gələcək həyatda da daim mənim nəzarətim altında olacaqlar", - deyə Azərbaycan dövlətinin ən ali səviyyədə qəhrəman oğullarımıza daim dayaq, dəstək olacağını, onları şəxsən özünün diqqəti altında saxlayacağını vurğulamışdı.

#### Genişmiqyaslı sosial dəstək

İkinci Qarabağ müharibəsindən əvvəl, eləcə də sonrakı dövrdə şəhid ailələri və müharibə əlilləri daim diqqət mərkəzindədir və onların məişət problemləri dövlət xətti ilə həll olunur.

Prezidentin imzaladığı müvafiq fərman və sərəncamlara uyğun olaraq şəhid ailələrinin və müharibə əlillərinin sosial müdafiəsinin gücləndirilməsi istiqamətində həyata keçirilən tədbirlər sistemli və ardıcıl şəkildə həyata keçirilir.

Prezidentin 2021-ci il 25 yanvar tarixli sərəncamı ilə bu kateqoriyadan olanlara 2021-2025-ci illərdə 11 min mənzil və ya fərdi evin verilməsi nəzərdə tutulub.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin məlumatına əsasən, Prezidentin göstərişi ilə Vətən müharibəsindən sonra icra olunan genişmiqyaslı sosial dəstək paketi şəhid ailələri, müharibə iştirakçılarından ibarət artıq 119 min şəxsi əhatə edib, onlara sosial dəstək yönümlü 243 min xidmət göstərilib.

Bu sosial dəstək paketinin bir istiqaməti kimi, postmüharibə dövründə şəhid ailələrinə və müharibə ilə əlaqədar əlilliyi olan şəxslərə 4 min, ümumilikdə ötən dövrdə 13 minədək mənzil və fərdi ev təqdim edilib.

Bu kateqoriyalardan olan vətəndaşlara 2022-ci il üzrə 1500 mənzil və fərdi ev verilməsi nəzərdə tutulub ki, artıq onlardan 1000-i təqdim edilib.

44 günlük Vətən müharibəsi şəhidlərinin ailələrinin, həmin müharibə ilə əlaqədar əlilliyi olan şəxslərin də 2021-ci ilin əvvəlindən mənzillə təminatı həyata keçirilir.

44 günlük Vətən müharibəsində yaralanaraq əlilliyi müəyyən olunmuş hərbçilərimiz avtomobillə də təmin edilirlər. Postmüharibə dövründə 300-dən çox, ümumən ötən dövrdə 7500-dən çox avtomobil müharibə ilə əlaqədar əlilliyi olan şəxslərə verilib.

Hər zaman şəhid ailəsi üzvləri və qazilərin sağlamlığı diqqət mərkəzində saxlanılır. Dövlət başçısının tapşırığına əsasən, 2019-2021-ci illərdə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin 12 reabilitasiya və sosial xidmət müəssisəsi əsaslı təmir olunaraq yenidən qurulub və ən müasir avadanlıqlarla təchiz edilərək istifadəyə verilib.

Postmüharibə dövründə nazirliyin reabilitasiya müəssisələrində müharibə ilə əlaqədar əlilliyi olan 2600-ə yaxın şəxsə reabilitasiya xidmətləri göstərilib, həmin kateqoriyadan olan 1654 şəxsə isə 26260 reabilitasiya vasitəsi verilib.

Müharibə əlillərinin yüksək texnologiyalı protezlərlə təminatı işləri də uğurla aparılır. Prezidentin tapşırığına uyğun olaraq, ümumilikdə müharibə ilə əlaqədar əlilliyi olan 353 şəxs 368 ədəd yüksək texnologiyalı 4-cü nəsil müasir protezlə təmin edilib.

#### Uğurlu humanitar siyasət

Şəhid ailələrinin, müharibə əlillərinin və qazilərin sosial rifahının yaxşılaşdırılması, sağlamlığının qorunması istiqamətində Mehriban xanım Əliyevanın rəhbərliyi altında Heydər Əliyev Fondu da müstəsna işlər gerçəkləşdirir.

Xatırladaq ki, Heydər Əliyev Fondu "2016-cı ilin Aprel döyüşlərində yaralanmış əsgər və zabitlərin yüksəktexnologiyalı protezlərlə təmin edilməsi" layihəsini həyata keçirib. Ötən müddət ərzində yüzlərlə zabit və əsgər yüksəktexnologiyalı protezlərlə təmin olunub.

Eləcə də Vətən müharibəsində şəhid olanların ailələrinə, həmçinin qazilərə hərtərəfli kömək göstərilir. Yaralılar yüksəktexnologiyalı protezlərlə təmin olunur, dünyanın ən nüfuzlu xəstəxanalarına müalicəyə göndərilir.



Göründüyü kimi, ölkəmizdə əhalinin həssas qruplarına, şəhid ailələrinə və qazilərə dövlət tərəfindən daim böyük diqqət və qayğı göstərilir. Sosial dövlət olan Azərbaycanda bu kateqoriyadan olan insanların rifah halının yaxşılaşdırılması üçün nümunəvi proqramlar həyata keçirilir.

***Yasəmən MUSAYEVA,***
***"Azərbaycan"***

# 5 noyabr 2020-ci il

## Azərbaycan: ZƏFƏR gündəliyi



Noyabrın 5-nə keçən gecə Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində Azərbaycan Ordusu bölmələrinin mövqelərini və yaşayış məntəqələrimizi müxtəlif atıcı silahlar, top və minaatanlardan atəşə tutur.

Döyüş əməliyyatları müxtəlif intensivlikdə, əsasən, cəbhənin Ağdərə və Xocavənd istiqamətlərində davam edir. Düşmən cəbhənin bəzi sahələrində şəxsi heyət və hərbi texnikada itkilər verərək geri çəkilməyə məcbur edilir.

Qoşunlarımız əməliyyat şəraitinə nəzarət edir.



❖ ❖ ❖

Səhər saatlarınadək Goranboy və Tərtər rayonlarının yaşayış məntəqələri Ermənistan silahlı qüvvələrinin bölmələri tərəfindən fasilələrlə atəşə tutulur.

Səhər saat 07:50-də Ağcabədi rayonunun Qiyaməddinli kəndinə düşmən tərəfindən 4 ədəd mərmi atılır.

❖ ❖ ❖

Cəbhənin Ağdam istiqamətində gedən döyüşlərdə Azərbaycan Ordusunun bölmələri tərəfindən Ermənistan silahlı qüvvələrinin 41-ci artilleriya alayının batareyalarına atəşlə zərər vurulur. Nəticədə şəxsi heyət arasında ölən və yaralananlar var.

Atəş zərbəsi ilə düşmənin xeyli sayda sursatı partladılır, artilleriya qurğuları tam sıradan çıxarılır.

❖ ❖ ❖

Ermənistan silahlı qüvvələrinin bölmələri Ermənistan-Azərbaycan dövlət sərhədində yerləşən Azərbaycan Ordusunun bölmələrinin mövqelərini minaatan və atıcı silahlardan atəşə tutur.

❖ ❖ ❖

Ermənistan silahlı qüvvələri döyüş meydanında silah-sursatını, texnikasını qoyub qaçır. Müdafiə Nazirliyi qənimət olaraq ələ keçirilən hərbi texnikaların görüntüsünü yayır.

❖ ❖ ❖

Saat 14:40-dan başlayaraq Ermənistan silahlı qüvvələrinin bölmələri Tərtər



şəhərini, rayonun Səhləabad kəndini, eləcə də Ağdam rayonunun Hacıturallı və Əfətli kəndlərini artilleriya atəşinə tutur.

Azərbaycan Ordusunun bölmələri tərəfindən düşmənin atəş nöqtələrinə qarşı cavab tədbirləri görülür.

❖ ❖ ❖

Cəbhənin Tərtər istiqamətində Azərbaycan Ordusunun bölmələri tərəfindən həyata keçirilən əməliyyat nəticəsində düşmənin hərbi infrastrukturuna ciddi ziyan vurulur.

Düşmənə endirilən artilleriya zərbələri ilə Ermənistan silahlı qüvvələrinin 10-cu dağatıcı diviziyasının Tonaşen kəndində yerləşən 7-ci dağatıcı alayının qərargahı, əsgər kazarmaları, sursatla dolu avtomobil texnikaları və digər hərbi infrastrukturu dağıdılır.

❖ ❖ ❖

Müdafiə Nazirliyinin Mətbuat xidmətinin mətbuat katibi, polkovnik-leytenant Anar Eyvazov Hərbi İnformasiya Mərkəzində brifinq keçirərək cəbhədəki son vəziyyətlə bağlı məlumat verir.

Qeyd edilir ki, Ağdərə və Xocavənd istiqamətlərində davam edən döyüşlərdə düşmənin hücumları, Ermənistan-Azərbaycan dövlət sərhədinin Zəngilan rayonu hissəsində isə diversiya cəhdlərinin qarşısı qətiyyətlə alınır. Ali Baş Komandanın rəhbərliyi ilə aparılan əks-hücum əməliyyatı nəticəsində məğlubiyyətə məhkum edilmiş Ermənistan çıxış yolunu yenə də yanlış olaraq dezinformasiya və feyk məlumatlar yaymaqda görür. Azərbaycan Müdafiə Nazirliyi Ordumuzun uğurları barədə döyüş meydanında müasir avadanlıqlarla çəkilmiş foto və videogörüntülər əsasında məlumat çatdırır. Bütün videotəsvirlərdə aydın şəkildə görünür ki, Azərbaycan Ordusu yaşayış



məntəqələri və mülki infrastrukturu atəşə tutmur, dəqiq zərbələrlə yalnız legitim hərbi hədəfləri məhv edir: "Hazırda qoşunlarımız əməliyyat şəraitinə tam nəzarət edir. Qələbə bizimlədir".

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

## Ermənistan: məğlubiyyətin xronikası

Qarabağ müharibəsi işğalçı Ermənistanın böyük zərbələr alması ilə müşayiət olunur. Hərb cəbhəsi ilə yanaşı, diplomatik müstəvidə Ermənistanın dalana dirənməsi ölkədəki siyasi gərginliyi pik həddə çatdırıb. Ermənistanda artıq etiraf edirlər ki, Azərbaycan Dağlıq Qarabağ məsələsində öz şərtlərini rahatlıqla diktə etməkdədir.



Ermənistan rəhbərliyi problemin dinc müstəvidə həlli məqsədilə onlara verilən şansı lazımınca dəyərləndirmədi. Bu gün isə əzəli Azərbaycan torpaqlarından qaçmağa məcburdurlar. Artıq Dağlıq Qarabağdakı qondarma "respublikanın" administrasiyası Yerevana köçürülüb. Bu barədə separatçıların lideri Arayik Arutyunyanın feysbuk səhifəsində məlumat paylaşılıb. Bildirilir ki, onlar "fəaliyyətlərini" Ermənistanda "davam etdirəcəklər".

Beləliklə, Azərbaycan işğal olunmuş ərazilərdə ermənilərin yaratdığı qondarma idarəçiliyə son qoyub. Separatçılar rəsmən Qarabağı tərk etməyə məcbur olublar və qondarma rejimin paytaxtı artıq Yerevandır. Qarabağda isə hazırda bir idarəetmə sistemi var və onu da Azərbaycan Ordusu inamla həyata keçirir.

Ümumiyyətlə, daim sosial şəbəkələrdə fəal olan separatçıların liderini son günlərdə görən olmayıb. Onun adından sosial şəbəkələrdə məlumatlar yayılsa da, görüntüsü yoxdur. İstisna edilmir ki, separatçı ordunun rəhbəri kimi A.Arutyunyan da Azərbaycan Ordusu tərəfindən məhv edilib.

❖ ❖ ❖

Ermənistanın Azərbaycanla müharibə aparmaq üçün potensialı tamamilə tükənib. Bir müddət əvvəl cəbhəyə göndərməyə adam tapmayan N.Paşinyan qocaları, qadınları və uşaqları döyüşə cəlb etməyə başlamışdı. Bunun da bir faydasının olmadığını görən baş nazir son ümidini cinayətkarlara bağlayıb. Belə ki, Ermənistanda yenidən bir qrup məhkum cəbhəyə göndərilmək üçün həbsdən azad edilib. Ermənistanın baş prokurorluğundan verilən məlumata görə, bundan əvvəl həbsdə olan 16 nəfər də döyüşə göndərilib.

Hazırda həbsdə olan digər məhbuslardan ibarət dəstənin yaradılması nəzərdən keçirilir. Ölkənin ədliyyə naziri Rüstəm Badasyan Ermənistanda məhbuslardan ibarət könüllü dəstələrin Dağlıq Qarabağa döyüşlərə göndərilməsi məsələsinin nəzərdən keçirildiyini təsdiqləyib. O bildirib ki, məhbusların cəbhəyə yollanması üçün onların barəsində verilən həbs qərarlarını dəyişmək lazımdır.

Vaxtilə cinayət törətmiş həmin məhbusların Qarabağ uğrunda döyüşməyəcəkləri isə gün kimi aydındır. Onlar ilk fürsətdəcə hazırda xaos səbəbindən cinayətkarlığın baş alıb getdiyi Ermənistana qaçacaqlar.

❖ ❖ ❖

Azərbaycan Ordusuna qarşı döyüşlərdə məğlub olan Ermənistanda fərarilik halları getdikcə artır. Ölkədə cəbhəyə getməkdən yayınanlar sərt şəkildə cəzalandırılırlar, hətta onların qohumları girov saxlanılırlar.



Hüquqşünas Robert Hayrapetyan sosial şəbəkədəki hesabında yazıb ki, yeni doğulmuş körpələrə yalnız ataları könüllü olaraq cəbhəyə getdikdə və anaları xəstəxanalarda girov saxlanıldıqda şəhadətnamə verilir: "Hər dəqiqə vətənpərvərlikdən danışanlar zəif insanlarımıza qarşı ikiüzlülükdən başqa bir şey etmirlər. Uşaq doğulduqdan bir gün sonra doğum haqqında şəhadətnamənin yalnız uşağın atasının cəbhəyə könüllü getməsi barədə təsdiq sənədinin təqdim edilməsi şərti ilə veriləcəyini necə etmək olar? Uşaqları və analarını girov götürürsünüz, yoxsa onlarla danışıqlar masasında oturmağa qərar vermisiniz? Sizdə beyin var?"



Bu arada Dağlıq Qarabağdan mülki ermənilərin qaçışı daha da sürətlənib. "Qraparak" qəzeti yazır ki, ermənilər Xankəndi şəhərini tərk etməkdə davam edir. Xüsusən son günlər əhali intensiv şəkildə şəhərdən çıxıb və sakinlərin azalması ilə küçələr boş qalıb. Xankəndinin "mer"i David Sarkisyan qeyd edib ki, sentyabrın 27-də Dağlıq Qarabağda hərbi əməliyyatlar başlayana qədər şəhərdə 56 min sakin yaşayıb: "İndi isə bu rəqəm 17 min təşkil edir. Sakinlərin əksəriyyəti Ermənistana köçüb".

❖ ❖ ❖

Rusiyanın "rusbankrot.ru" nəşri yazıb ki, müharibə silah tədarükçüklərinə nəhəng gəlir gətirsə də, döyüş iştirakçılarını iflasla üz-üzə qoyur. Ermənistanla Azərbaycan arasında münaqişə də bu baxımdan istisna deyil. Dağlıq Qarabağda bir aydan çoxdur ki, davam edən döyüş əməliyyatları kreditlər içində çabalayan Ermənistan iqtisadiyyatını daha da ağır vəziyyətə salıb. Məqalədə qeyd olunur ki, bu müddət ərzində Ermənistan 250-dən çox tank, hava hücumundan müdafiə sistemləri, yüzlərlə yük maşını, artilleriya vahidi itirib.

Komanda məntəqələrinin və silah anbarlarının məhv edilməsi də ölkə iqtisadiyyatına əhəmiyyətli zərbə vurub. Mütəxəssislərin hesablamalarına görə, Ermənistanın müharibə itkiləri bir neçə milyard dollar təşkil edir. Məqalədə bildirilir ki, indi Yerevan qarşısında ciddi sual dayanır: kreditlər necə qaytarılacaq? Çünki yeni borcların alınması, ya da milli valyutanı dəyərsizləşdirmək bahasına yeni pullar çap etmək heç nəyi həll etməyəcək: "Artıq bu ilin iyulunda Ermənistanın dövlət borcu rekord həddə - 8 milyard dollar həddinə çatmışdı. "Fitch" reytinq agentliyi bu ilin sonunadək ölkə iqtisadiyyatının defoltla üzləşəcəyini proqnozlaşdırırdı. Bununla belə Yerevan xaricdən borc almaq ümidini də itirib, çünki ölkədə müharibə gedir, bundan başqa, koronavirus pandemiyası davam edir, ölkə iqtisadiyyatı hələ də tətbiq olunmuş məhdudiyyətlərdən özünə gələ bilməyib".

Bu arada Dağlıq Qarabağdan Ermənistana külli miqdarda silah-sursat daşınması ilə bağlı ölkə mediası çoxlu faktlar aşkarlayıb. "4rd.am" saytı yazır ki, Ermənistanın Vayk şəhərində polis şöbəsinə daxil olan operativ məlumatlar əsasında Qarabağdan qayıdan avtomobillərə baxış zamanı silahlar, dəbilqələr, güllə keçirməyən jiletlər, hərbi bıçaqlar, xeyli sayda güllə və digər hərbi avadanlıqlar götürülüb.



Ermənistanın Sünik və Sisian polis bölmələrinin əməkdaşları tərəfindən Qarabağdan qayıdan "UAZ" markalı avtomobilə baxış keçirilərkən maşında gizlədilmiş "Kalaşnikov" avtomatları və xeyli sayda güllə müəyyən edilib. Qeyd olunur ki, bütün bunlar yaxın müddətdə Ermənistanda silahlı qiyam təhlükəsinin olduğuna işarədir.

Hazırda Ermənistanda bütün sahələrdə ciddi və dərin xaos hökm sürür. Azərbaycan tərəfindən hərbi məğlubiyyətə uğradılan işğalçı dövlət tarixinin ən ağır və əzablı günlərini yaşayır.

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***






# Bakı Metropoliteni-55:

# Yeraltı şəhərin tarixinə qısa səyahət

1967-ci il, 6 noyabr. Bazar ertəsidir. Bakı bayram libasına bürünüb. Həmin gün Bakı Xalq Deputatları Sovetinin (indiki Bakı Şəhər İcra Hakimiyyətinin) binasının bir neçə addımlığında metronun birinci stansiyası - "Bakı Soveti"nin qarşısına xeyli insan toplaşmışdı.

Səhər saat 10-da tribunaya qalxan rəsmi şəxsləri izdiham hərarətli alqışlarla qarşıladı. Mitinq başa çatdıqdan sonra qonaqlar stansiyanın yerüstü vestibülündən eskalatorla platformaya endilər. Saat 10:15 dəqiqədə maşinist Salman Ələkbərov və onun köməkçisi Arif Mirzəyevdən ibarət lokomotiv briqadasının idarə etdiyi qatar hərəkətə gəldi. Beləcə Bakıda yeni növ ictimai sərnişindaşıma nəqliyyatı fəaliyyətə başladı.

Metronun uzunluğu 6,3 kilometrlik ilk növbəsinin birinci buraxılış sahəsinə daxil olan 5 stansiyasının tikintisi 7 ilə yekunlaşdı. Metro inşası çox çətin və böyük maliyyə hesabına başa gələn proses idi. Tikinti mərkəzi hökumət tərəfindən maliyyələşdirilirdi, amma bu maliyyənin ayrılmasını asanlıqla təmin etmək olmurdu. Heydər Əliyev respublikaya rəhbər seçildikdən sonra məhz onun səyi nəticəsində tələb olunan vəsait əldə edilirdi.

1970-ci ildə "Ulduz" stansiyasının Bakı metrosu tarixindəki başqa bir məziyyəti onun Heydər Əliyev tərəfindən açılan ilk metro stansiyası olmasında idi. Daha sonra Ulu Öndərin qətiyyəti və uzaqgörənliyi ilə inşaatda "8-ci kilometr" qəsəbəsinə doğru hərəkətə üstünlük verildi. 1972-ci il noyabrın 6-da "Əzizbəyov" (indiki "Koroğlu"), "Avrora" (indiki "Qara Qarayev"), "Neftçilər" istismara verilməklə böyük yaşayış sahəsinin mərkəzlə nəqliyyat əlaqəsi xeyli yaxşılaşdı.

Həmin illərdə "Nizami" stansiyasına doğru 1,5 kilometrlik yolun çəkilməsi çox böyük çətinliklərlə başa gəlirdi. Lakin yekunda dahi Nizaminin adına layiq stansiya istifadəyə verildi. Qeyri-adiliyi, cazibədarlığı ilə seçilən bu yeraltı sarayın memarlıq tərtibatının müəllifləri SSRİ-nin Xalq memarı Mikayıl Useynov və SSRİ Xalq rəssamı Mikayıl Abdullayev idi. Stansiyanın həm adının, həm də tərtibatının ideya müəllifi isə Heydər Əliyev olmuşdur.

Sonrakı dövrdə iri sənaye zonasına çevrilən bir ərazidə SSRİ miqyaslı müəssisələrin fəaliyyətə başlaması ilə kiçik bir platformadan ibarət olan "Elektrozavod" (indiki "Bakmil") kimi ilk yerüstü stansiya ərsəyə gəldi. Maraqlıdır ki, bu stansiya da Ulu Öndərin təşəbbüsü ilə inşa edilmişdir. Bundan əlavə, məhz Heydər Əliyevin sayəsində 5,6 kilometrlik yeni xətt - "Elmlər Akademiyası", "İnşaatçılar", "XI Qızıl Ordu meydanı" (indiki "20 Yanvar") və "Memar Əcəmi" stansiyaları 1985-ci il dekabrın 31-də istifadəyə verildi.

Amma bu da hələ hamısı deyildi. Metro tikintisinin 3-cü növbəsinə "Neftçilər"dən sonra 3 stansiya - "Xalqlar dostluğu", "Əhmədli", "Həzi Aslanov" daxil idi. Onlardan ilk ikisi məhz Ulu Öndərin yaratdığı maddi-texniki baza hesabına istismara verildi. "Həzi Aslanov" stansiyası isə müstəqillik dövründə, yenə də Heydər Əliyevin nüfuzu sayəsində Avropa İttifaqının ayırdığı 4,5 milyon avro və Azərbaycan dövlətinin öz büdcəsindən ayırdığı 5,5 milyon manat maliyyə vəsaiti hesabına tikilib başa çatdırıldı. O vaxta qədər isə metronun daha bir yarımçıq qalmış stansiyası - xətlərin ayrılması layihəsinin əsas keçid stansiyası olan "Cəfər Cabbarlı" stansiyası istismara qəbul edilmişdi.

2003-cü ildə xalqın etimadını qazanaraq Prezident seçilən İlham Əliyev də metro tikintisinə xüsusi diqqət verir. Metro tikintisinin 2006-cı ilin əvvəlindən başlanan yeni mərhələsində "Nəsimi", "Azadlıq prospekti" və "Dərnəgül" stansiyalarının inşası başa çatdı. 2008-ci ildə isə metronun yeni inkişaf konsepsiyası üzərində işə başlanıldı və 2011-ci il martın 18-də Prezident tərəfindən imzalanan "Bakı Metropoliteninin perspektiv inkişafı ilə bağlı əlavə tədbirlər haqqında" sərəncamla metropoliten xətlərinin yeni konseptual inkişaf sxemi təsdiq edildi. Bununla metropolitenin 5 xətdən, 77 stansiyadan, 6 elektrik deposundan və 120 kilometrə yaxın yollardan ibarət bir şəbəkəyə çevrilməsi layihəsi qüvvəyə minmiş oldu.









Bütün bunlar Ulu Öndərin Bakı metrosunun inkişafı ilə bağlı tapşırıq və tövsiyələrinin Prezident İlham Əliyev tərəfindən həyata keçirilməsinin göstəriciləridir. Təkcə son 18 ildə Bakı Metropoliteni xətlərinin uzunluğu 32,1 kilometrdən 40,7 kilometrə çatdırılıb. Yaşıl xəttin "Nəsimi", "Azadlıq prospekti", "Dərnəgül", Bənövşəyi xəttin "Avtovağzal", "Memar Əcəmi", "8 Noyabr" stansiyaları istifadəyə verilib.

Bu sıraya Xocəsən qəsəbəsində eyniadlı stansiya və deponun fəaliyyətə başlaması da tezliklə əlavə olunacaq. Bu, metro tarixi üçün xüsusi layihədir. Çünki 1966-cı ildən sonra metronun ikinci deposu istifadəyə verilir və o, 55 il ərzində formalaşmış ənənələr məktəbinin nümayəndələrinin gücü ilə tikilmiş ilk nəhəng infrastruktur layihəsidir.

Məlum olduğu kimi, 2014-cü il fevralın 27-də dövlət başçısının sərəncamı ilə Bakı Metropoliteninin və "Azərtunelmetrotikinti" Səhmdar Cəmiyyətinin yenidən təşkili yolu ilə "Bakı Metropoliteni" Qapalı Səhmdar Cəmiyyəti yaradılmışdır. Bu, metronun inkişafı üzrə dövlət proqramının reallaşdırılmasına, istismarda olan xətlərin müasir texnologiyaların tətbiqi ilə dövrün tələblərinə inteqrasiyasına, istismar müddətini başa vurmuş vaqon və avadanlıqların yeniləşdirilməsinə, hərəkətin təşkilində, yeni xətlərin tikintisində ən son texnologiyaların tətbiqi ilə Bakı metrosunun dünyanın ən qabaqcıl yeraltı nəqliyyat müəssisələri sırasına çıxmaq imkanlarının genişlənməsinə möhkəm zəmin yaratdı.

"Bakı Metropoliteni" QSC fəaliyyətinin 9 ilə yaxın dövründə stansiyaların yenidən qurulması, oradakı əsaslı təmir işləri ilə metro şəbəkəsi daha yüksək sürətlə inkişaf etdi. 2009-cu ildə istifadəyə verilən "28 May" stansiyasının ikinci çıxışından sonra xüsusi əhəmiyyətə malik "Elmlər Akademiyası"nın da ikinci çıxışı sərnişin yüklənməsi ilə bağlı problemi aradan qaldırdı. Bu dövrdə "Gənclik", "Nərimanov", "İnşaatçılar", "Qara Qarayev", "Neftçilər" stansiyalarının vestibül və piyada keçidlərində, "Elmlər Akademiyası", "Nizami", "Sahil", "Xətai", "Bakmil" stansiyalarında əsaslı təmir işləri aparıldı, "İnşaatçılar", "20 Yanvar", "Elmlər Akademiyası", "Sahil", "Xətai" stansiyalarında istismar müddəti başa çatmış eskalatorlar Almaniyanın "Thyssen Krupp" şirkətinin yeni, daha müasir nümunələri ilə əvəz edildi, "Xətai", "Sahil" stansiyalarında əvvəlki 3 eskalatorun əvəzinə 4 yenisi quraşdırıldı. Bunlardan əlavə, "Nərimanov" elektrik deposunda vaqon ehtiyat hissələrinin tədarükündə, detal, maşın və mexanizmlərlə təchizatda köklü dəyişikliklərə nail olundu, günün tələblərinə uyğun iş norması və idarəetmə prinsipləri bərqərar oldu. Sexlərdə təmirçilər üçün əlverişli əmək şəraiti yaradıldı, qaldırma təmiri sexi əsaslı şəkildə yenidən quruldu, orada istehsal prosesinin təkmilləşdirilməsi, əl əməyi həcminin azaldılması üçün tədbirlər görüldü. Bunun nəticəsində qatarların nasazlıq səbəbilə xətdən çıxarılması halları kəskin surətdə azaldı. Paralel olaraq uzun müddət istismar olunan vaqonların modernləşdirilməsi və əsaslı təmirinin yerli şəraitdə həyata keçirilməsinin təməli qoyuldu, metroloji təminat sistemi yenidən quruldu, metropolitenin infrastrukturunun kompleks texniki müayinəsi üçün müasir diaqnostika kompleksi işə salındı.

Depo şəraitində vaqon təmirinin bütün növlərinin yüksək keyfiyyətlə yerinə yetirilməsinə nail olmaqla yanaşı, təmirin daha yüksək mərhələsi olan əsaslı təmir prosesi üçün də baza təşkil edildi. İndi Bakı Metropoliteni öz vaqonlarını əsaslı təmir üçün əvvəllər olduğu kimi, Moskva, Xarkov və Tbilisi şəhərlərinə göndərmir. Bu isə istismar xərclərini əhəmiyyətli dərəcədə azaltmaqla daşımanın maya dəyərini aşağı salır.

2016-cı ilin aprel ayından başlayaraq Rusiyanın "Metrovaqonmaş" ASC-dən alınan 115 vaqon texniki innovasiyalar baxımından 4-cü nəslə mənsubdur. Onlarda idarəetmə sistemi mikroprosessor əsasında qurulub, mühərriklərinin gücü əvvəlkilərdən 50 faiz çoxdur, bütün vaqonlar güclü havalandırma sisteminə malikdir və sərnişin informasiya sistemi mükəmməldir.

Bu gün tunellərdə 2014-cü ilin sonundan başlayan sağlamlaşdırma, əsaslı təmir işləri planlı şəkildə davam edir. Yol təsərrüfatında görülən işlər Bakı Metropoliteninin tarixində yeni bir eranın başlanğıcından xəbər verir. Uzun illər yolda tətbiq edilən ağac şpalları iqtisadi cəhətdən daha sərfəli və ömrü bir neçə dəfə uzun olan beton şpallar əvəz edir. Deponun park yollarında bu işin hazırda 70 faizi yerinə yetirilib. Tunel yollarında isə gödək ağac şpalların əvəzinə səhmdar cəmiyyətin öz istehsal sahəsi olan, dəmir-beton konstruksiyaları istehsalı sahəsində hazırlanan konstruksiyalardan istifadə olunur. Bu yenilik metronun yeni tikilən xətlərində, o cümlədən Bənövşəyi xəttin "Memar Əcəmi-8 Noyabr", "Avtovağzal-Xocəsən" sahəsində tətbiq edilib. Müasir texnologiya üzrə ballastsız yol salınıb ki, bu da iqtisadi cəhətdən sərfəli və təhlükəsizlik baxımından daha etibarlıdır. Vaqonların təmirdən sonra sınağı məqsədilə inşa edilən yol da ballastsız üsulla çəkilib.

Hərəkətin təşkilində də yeni sistemlər tətbiq edilir. Bu prosesə real vaxt müddətində operativ nəzarəti həyata keçirmək imkanı verən SCADA sistemlərinin tətbiqinə başlanılıb. Bununla yanaşı, suvurma qurğularının avadanlıqları yenilənib, qurğuların işi səmərələşdirilib, metropolitenin tarixində ilk dəfə yeraltı qrunt sularından istifadə etmək imkanı yaradılıb. İndi qrunt suları yer üzərinə çıxarılaraq paytaxtın yaşıllıqlarının suvarılmasında istifadə olunur.

Eyni zamanda və ən əsası stansiya və tunellərdə normal iqlim şəraiti yaratmaqla sərnişinlərin rahatlığını təmin edən, metro infrastrukturunu, tuneli və tunel avadanlığını havanın kondensasiyasından qoruyan havalandırma sistemində böyük işlər görülüb. Son 4 ildə tunel və stansiyaların havalandırılması sistemində 23 ventilyator yenilənib, qurğu və avadanlıqların səmərəliliyini artırmaq məqsədilə sistemdə yeniliklər tətbiq edilib, təbii havalandırmadan daha məqsədyönlü istifadə etmək üçün təsirli tədbirlər görülüb və müasir tipli dampferlərin quraşdırılmasına başlanılıb.

Elektrik enerjisi ilə təchizatda "İçərişəhər", "Sahil", "Elmlər Akademiyası", "Gənclik", "Xətai" yarımstansiyaları, qatarların hərəkətinin təminatı üçün xüsusi əhəmiyyətə malik beş dartı yarımstansiyasından biri tam modernləşdirilib, "Nərimanov" deposunda 2 yarımstansiya inşa olunub. Bu yerdə qeyd edək ki, 2018-ci ildə dövlət başçısının tapşırığı ilə müxtəlif gərginlikli elektrik enerjisi tələb edən sahələrin ehtiyacları nəzərə alınaraq metroda dizel-generator stansiyaları qurulub.

Əldə olunan nailiyyətlərdə kadr hazırlığı siyasətinə yanaşma tərzinin dəyişməsi, ixtisaslı mütəxəssislərin yetişdirilməsində dünya təcrübəsindən səmərəli şəkildə istifadənin əhəmiyyəti də qeyd olunmalıdır. 2014-cü ildən bu sahədə köklü dəyişikliklər mükəmməl təlim bazasının yaradılmasından başlayıb. Hazırda orada hər cür avadanlıq və ləvazimatlarla təchiz olunmuş təlim-tədris mərkəzi (TTM) fəaliyyət göstərir. Bundan başqa, "Nərimanov" elektrik deposunun ərazisində TTM-ə məxsus 4 auditoriya, trenajor var. İndiyədək TTM-də ümumilikdə 6600-dən artıq dinləyicini əhatə edən 235 kurs təşkil edilib. Burada metropoliten tarixində ilk və hələlik yeganə qadın qatar maşinisti hazırlanıb. Metropolitençilərin tədris mərkəzi respublikanın ali, orta və xüsusi ixtisas təhsili müəssisələri ilə qarşılıqlı əməkdaşlıq şəraitində çalışır. Eyni zamanda TTM-də sosial layihələrin tərkib hissəsi kimi metropoliten işçilərinin məktəb yaşlı övladları və nəvələri üçün müxtəlif vaxtlarda rəsm, ingilis dili, kompüter və robototexnika kursları təşkil edilib.

Sosial məsuliyyətdən söz düşmüşkən, bu gün Bakı metrosu ən aktual layihələrin icra olunduğu meydana çevrilib. Sərgilər, konsert və uşaqlar üçün əyləncə proqramları, müxtəlif aksiya və fləşmoblar, mədəni-sosial layihələr artıq heç kəsi təəccübləndirmir, əksinə, bir qayda və ənənə kimi qəbul edilir. Sosial layihələrin ən başlıcası əlil arabası istifadəçiləri və ümumiyyətlə, metronun xidmətindən yararlana bilməyən hər kəs üçün nəzərdə tutulan "Əlçatan metro" layihəsidir. Bu sırada ölkədə nümunəvi layihə kimi qəbul edilən daha birini də qeyd edək. Metropolitendə çalışan 326 şəhid ailəsi üzvü və Qarabağ müharibəsi veteranlarının özlərinin idarə heyətini formalaşdırdığı mərkəz fəaliyyətə başlayıb və onların sosial qayğılarının azaldılmasına xidmət göstərir.

*Bakının özü kimi, onun yeraltı sarayı da genişlənməkdə, böyüməkdədir. Bənövşəyi xəttin şərti adı "B-04" olan stansiyasının tikintisi davam edir. Metropoliten 55 ildir Bakı ilə yol gələrək onun yollarını qovuşdurur və rəmzlərindən biri kimi nəbzini müəyyən edir.*

**Bəxtiyar ƏZİZLİ,**
**"Azərbaycan"**









# Müdafiə Nazirliyi tərəfindən hərbi hissə və birləşmələrin döyüş hazırlığının yoxlanılması davam edir

Müdafiə naziri general-polkovnik Zakir Həsənov və nazirliyin digər rəhbər heyəti tank və komando hərbi hissələrində keçirilən təlimləri izləyib.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, komanda idarəetmə məntəqələrinə baş çəkən müdafiə naziri "Tank ovçuluğu" təlimini və komandoların hazırlıq məşğələsini izlədikdən sonra komandir heyətinin məruzələrini dinləyib.

Məruzə olunub ki, təlim prosesində şərti düşmənin zirehli texnikasının pusquya və xəndəklərə salınmaqla yaxın məsafədən sıradan çıxarılması, eləcə də komandoların yaşayış məntəqələrində döyüş tapşırıqlarının icrası məşq etdirilir.

Təlimin planına uyğun olaraq tank bölmələri tərəfindən zirehli texnikanın atəşlə irəliləmə üsulları da yerinə yetirilir.

Komandoların və tank bölmələrinin fəaliyyətini yüksək qiymətləndirən general-polkovnik Z.Həsənov Vətən müharibəsində qazanılan təcrübədən istifadə olunmaqla döyüş hazırlığının intensivliyinin və effektivliyinin daha da artırılması barədə aidiyyəti üzrə əlavə tapşırıqlar verib.

* * *

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin tapşırığına əsasən, noyabrın 4-də müdafiə naziri general-polkovnik Zakir Həsənov və nazirliyin digər rəhbər heyəti Ermənistanla sərhəd bölgəsində dislokasiya olunan hərbi hissələrdə olublar.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, yeni istifadəyə verilmiş yerləşmə məntəqəsində yaradılan şəraitlə tanış olan müdafiə nazirinə məruzə olunub ki, qoşun xidmətinin yüksək səviyyədə təşkili üçün məntəqədə bütün zəruri şərait yaradılıb.

Burada silah otağı, yataqxana, yeməkxana, mətbəx, ərzaq və əşya anbarları, hamam-sanitar qovşağı, isitmə sobaları, ərazini fasiləsiz elektrik enerjisi ilə təmin edən generatorlar və günəş panelləri, eləcə də döyüş texnikasının saxlanması üçün park mövcuddur.



Qışa hazırlıq məqsədilə dayaq məntəqələrində və döyüş mövqelərində maye, odun və kömür yanacağı da daxil olmaqla bütün təminat növü ilə ehtiyat yaradılıb.

Şəxsi heyətin məişət şəraiti ilə tanış olduqdan sonra general-polkovnik Z.Həsənov döyüş mövqelərində xidmət edən hərbi qulluqçuların xidməti döyüş fəaliyyəti ilə tanış olub.

Müdafiə nazirinə əməliyyat şəraiti ilə bağlı məruzələr edilib.

Sərt iqlim şəraitində və kəskin relyefli ərazilərdə xidmət edən hərbi qulluqçularla görüşən nazir onların döyüş və mənəvi-psixoloji hazırlığını yüksək qiymətləndirib.

Müdafiə naziri döyüş növbətçiliyinin və qoşun xidmətinin təşkili, hərbi qulluqçuların sosial-məişət şəraitinin daha da yaxşılaşdırılması ilə bağlı aidiyyəti şəxslərə müvafiq tapşırıqlar verib.

* * *

Bu ilin döyüş hazırlığı planına əsasən Xüsusi Təyinatlı Qüvvələrin hərbi hissələri ilə cənub bölgəsində keçirilən təlimdə gecə və məhdudgörmə şəraitində müxtəlif xüsusi tapşırıqlar icra edilib.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, təlimin ssenarisinə uyğun olaraq xüsusi təyinatlılar kəşfiyyat məlumatları əsasında şərti düşmənin dərinliyinə sızaraq pusqu, basqın, təxribat təlim döyüş tapşırıqlarını yerinə yetiriblər.

Xüsusi təyinatlılar tərəfindən aşkarlanmış sığınacaqlarda və şərti cəbhənin digər istiqamətlərində bilavasitə təmas vəziyyətində düşmən texnikası və canlı qüvvəsinin məhv edilməsi tapşırıqları yerinə yetirilib.

Düşmən arxasında qarşılaşa biləcək maneə sistemlərinin kiçik bölmələr halında dəf edilməsi, yaşayış məntəqələrində döyüşün aparılması və ələ keçirilməsi fəaliyyətləri icra olunub.

Qeyd edək ki, Vətən müharibəsində qazanılan döyüş təcrübəsi nəzərə alınmaqla gecə və gündüz keçirilən təlimlərdə əsas məqsəd xüsusi təyinatlıların peşəkarlıq səviyyəsinin daha da artırılması və praktiki vərdişlərinin təkmilləşdirilməsidir.

# Heydər Əliyev Fondu tərəfindən 118 yaşlı məktəb üçün yeni bina inşa olunub

Saatlı rayonunda Məhəmməd Əliyev adına Əlisoltanlı kənd tam orta məktəbinin yeni binası istifadəyə verilib.

AZƏRTAC xəbər verir ki, məktəb 1904-cü ildən 190 yerlik uyğunlaşdırılmış məktəb kimi fəaliyyət göstərir. Saatlı rayonunun ən qədim məktəblərindən olan Əlisoltanlı kənd tam orta məktəbinin binası sonuncu dəfə 1975-ci ildə təmir edilmişdi. Yüzdən çox yaşı olan məktəb binası istifadəyə yararsız vəziyyətdə olduğundan Heydər Əliyev Fondu "Yeniləşən Azərbaycana yeni məktəb" layihəsi çərçivəsində 360 şagird yerlik yeni bina inşa edib. Məktəbdə fənn otaqları, biologiya, kimya üzrə kabinet və laboratoriyalar, informatika kabineti, hərbi otaq, əmək otağı, kitabxana və oxu zalı, idman və akt zalları, futbol və voleybol meydançaları yaradılıb, yeməkxana istifadəyə verilib, məktəbin həyətyanı sahəsi abadlaşdırılıb.



Məktəbin yeni binasının açılışında Saatlı Rayon İcra Hakimiyyətinin başçısı Elmir Bağırov, Mil-Muğan Regional Təhsil İdarəsinin müdiri Rəşad Musayev, Heydər Əliyev Fondunun nümayəndəsi Cəmil Əliyev, təhsil işçiləri, məktəb kollektivi və kənd sakinləri iştirak ediblər.

Çıxış edənlər Azərbaycan dövlətinin ölkəmizdə elmin və təhsilin inkişafına yüksək diqqət və qayğısından söz açıblar. Bildirilib ki, ötən dövrdə Heydər Əliyev Fondunun xətti ilə bir çox məktəb binası inşa olunub və ya əsaslı təmir edilib.

Bildirilib ki, son illərdə rayonun öndə gedən məktəblərindən biri məhz Əlisoltanlı kənd tam orta məktəbidir. Azərbaycan Prezidentinin sərəncamı ilə 2013/2014-cü tədris ilində keçirilən "Ən yaxşı ümumtəhsil məktəbi" müsabiqəsində qalib gələrək mükafatlandırılan təhsil ocaqları sırasında Saatlı rayonunun Əlisoltanlı kənd tam orta məktəbi də yer alıb. Məktəbin şagirdləri respublika fənn olimpiadalarında və fənn müsabiqələrində dəfələrlə qalib gəliblər. Həmçinin şagirdlər dəfələrlə milli intellektual yarışlarda qalibiyyət əldə ediblər. Son 5 ildə məktəbin 90-dan çox şagirdi, 2021-2022-ci tədris ilində isə 33 məzunundan 22-si ali məktəblərə qəbul olub.

Məhəmməd Əliyev adına Əlisoltanlı kənd tam orta məktəbin direktoru Ramal Ələsgərov müsahibəsində bildirib ki, 1904-cü ildə fəaliyyətə başlayan məktəbin ötən dövrlərdə bir çox uğurları olub. "Milli intellektual yarışlarda səkkiz dəfə Azərbaycan çempionu adını qazanan şagirdlərimiz hazırda ölkənin bir çox ali təhsil ocaqlarında oxuyurlar. Məzunlarımız arasında Prezident təqaüdü alanlar da var. Onlar magistr təhsillərini xarici ölkələrdə davam etdirirlər. Yaradılan bu şəraitə görə Prezident İlham Əliyevə və Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevaya kollektiv adından dərin təşəkkürümüzü bildiririk", - deyə direktor qeyd edib.

Məktəbin X sinif şagirdi Rəvanə Vəlizadə deyib: "Əvvəlki məktəbin şəraiti yaxşı deyildi və bu, tədris prosesinin lazımi səviyyədə həyata keçirilməsinə imkan vermirdi. Artıq yeni məktəb binası istifadəyə verilib. İndi yaradılan şərait bizim dərslərimizə də müsbət təsirini göstərəcək".

Sonda məktəbdə yaradılan şəraitlə tanışlıq olub.

# Zəfər Forumunun bağlanış mərasimi olub

*Əvvəli 1-ci səh.*

Əməkdar incəsənət xadimi, Prezidentin fərdi təqaüdçüsü, müharibə və Silahlı Qüvvələr veteranı, Zəfər paradının ssenari müəllifi və aparıcısı polkovnik Abdulla Qurbaninin moderatorluq etdiyi tədbirdə ənənəvi olaraq görkəmli dövlət xadimi Heydər Əliyevin və respublikamızın suverenliyi, ərazi bütövlüyü uğrunda şəhidlik zirvəsinə ucalan Vətən övladlarının xatirəsi birdəqiqəlik sükutla yad edilib, hərbi orkestrin müşayiəti ilə Dövlət himni ifa olunub.



Sonra çıxış edən Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Qeyri-hökumət təşkilatları ilə iş və kommunikasiya şöbəsinin sektor müdiri Vüsal Quliyev forum iştirakçılarını salamlayaraq Vətən müharibəsində qazanılan möhtəşəm Qələbənin tarixi əhəmiyyətindən bəhs edib. Vüsal Quliyev rəşadətli ordumuzun əsgər və zabitlərinin addım-addım irəliləyərək Ermənistanın uzun illər ərzində qurduğu mühəndis-istehkam sistemlərini yarıb keçdiklərini, torpaqlarımızın qəhrəman döyüşçülərimizin qanı və canı bahasına azad edildiyini, Azərbaycan xalqının əzmi və iradəsi, iqtisadi gücü, müasir ordu quruculuğu və xalq-iqtidar birliyi nəticəsində Qələbənin təmin olunduğunu nəzərə çatdırıb. Azərbaycan Respublikasında Anım Gününün, Zəfər Gününün təsis edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin sərəncamlarının əhəmiyyəti barədə danışıb.

Qeyri-hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin İcraçı direktoru Aygün Əliyeva bildirib ki, müharibələrdə böyük qələbələrin əsasında duran ən başlıca amil xalq-dövlət-ordu birliyinin sarsılmaz vəhdətinin təmin olunmasıdır. Vətən müharibəsi dünya azərbaycanlılarının birliyinin sarsılmazlığını, xalqımızın Vətən torpaqlarının azad edilməsi naminə "dəmir yumruq" kimi birləşdiyini nümayiş etdirdi. Dünyanın müxtəlif ölkələrində yaşayan azərbaycanlılar, habelə Azərbaycanın haqq işinə dəstək verən digər xalqların nümayəndələri erməni lobbisinin apardığı çirkin kampaniyalara qarşı fədakarlıqla fəaliyyət göstərirdilər. A.Əliyeva qeyd edib ki, müharibənin gedişində xalq-dövlət-ordu birliyi daha da möhkəmləndi. Azərbaycanın bütün vətəndaşları etnik, sosial, dini baxımdan bütövlük nümayiş etdirdi, ön və arxa cəbhədə mükəmməl birlik yarandı. Dövlət başçısının yüksək siyasi məharəti sayəsində diplomatik cəbhədə də böyük uğurlar qazanıldı.

Şəhid ailələrinin üzvləri, müharibə iştirakçıları və müvafiq qurumların nümayəndələri çıxışlarında Müzəffər Ali Baş Komandanın Azərbaycan naminə əmrlərinə hər an hazır olduqlarını bildiriblər.

Forum iştirakçıları adından Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə müraciət edilib, xalqımıza Zəfər sevincini yaşatdığına görə dövlət başçısına dərin minnətdarlıq ifadə olunub.

Əməkdar artist, polkovnik-leytenant Cahangir Qurbanovun rəhbərlik etdiyi Həzi Aslanov adına Ordu İdeoloji İş və Mədəniyyət Mərkəzinin yaradıcı kollektivinin iştirakı ilə hərbi marş və vətənpərvərlik mahnıları alqışlarla qarşılanıb.

Nümayəndə heyətlərinə Müdafiə Nazirliyi adından A.Qurbaninin "Böyük gələcəyə baxış" və "Vətən müharibəsi şəhidləri" adlı kitabları hədiyyə edilib. O cümlədən Zəfər Forumu çərçivəsində Gəncə Qarnizonu İdeoloji və Mədəniyyət Mərkəzinin təşkilatçılığı ilə "Əsgərə məktub" layihəsi həyata keçirilib.

# Qazaxda şəhidlərin xatirəsinə dərin ehtiram var

Şəhid olmaq Vətən, torpaq uğrunda canından keçmək, bu yolda özünü qurban vermək deməkdir. Şəhidlik zirvəsinə ucalmaq ulularımızdan bizlərə miras qalan torpağa, Vətənə, müqəddəs dəyərlərimizə sahib çıxmaqdır. Şəhidlik verilmiş ömür payını gələcək nəsillərin xoşbəxtliyinə bağışlamaqdır.



Bu gün Azərbaycanın elə bir bölgəsi, elə bir kəndi tapılmaz ki, orada şəhid məzarları olmasın. Vətənpərvərlik hissi, döyüş ruhu qazaxlı gənclərdə də hər zaman olub. Bu gün Ermənistanla 168 km sərhədi olan Qazaxda ölkəmizin ərazi bütövlüyü uğrunda 344 Vətən oğlu şəhid olub. 7 nəfər isə Azərbaycanın Milli Qəhrəmanıdır.

Vətənin dar günündə döyüşə atılan Qazaxın igid, mərd oğulları 44 günlük Vətən müharibəsində də fərqləndilər. Həmin haqq savaşında Qazaxın 52 qəhrəman oğlu canından keçərək bir daha nümayiş etdirdi ki, "Torpaq, uğrunda ölən varsa, Vətəndir".

Rayonun Yuxarı Salahlı kəndi hər zaman qeyrətli oğulları ilə tanınıb. Qarabağ münaqişəsi başlayan gündən bu kəndin igid oğulları ölkəmizin ərazi bütövlüyü uğrunda canlarından keçməyi düşünmədən daim gözə alıblar. Torpaqlarımızın bütövlüyü naminə aparılan müharibədə Yuxarı Salahlı kəndi 18 şəhid verib. Aprel döyüşlərində şəhid olan baş leytenant Namazov Elvin Məmməd oğlu, iyul döyüşlərinin qəhrəmanı mayor Əhmədov Namiq Hajan oğlu, 44 günlük Vətən müharibəsi şəhidləri - baş gizir Hacıyev Teymur Zaur oğlu, leytenant Bayramlı Elmar İsa oğlu, əsgər Abdullayev Taleh Temraz oğlu, eləcə də Birinci Qarabağ müharibəsində kəndin neçə-neçə igid oğlu Azərbaycanın ərazi bütövlüyünü canlarından üstün tutublar.

Kənddə şəhidlərin adlarını yaşatmaq, onları gələcək nəsillərə nümunə göstərmək üçün tədbirlər görülür. Onların şərəfinə kənd fəalları və bələdiyyəsi tərəfindən bulaq-abidə kompleksi də inşa olunub. Yuxarı Salahlı kəndinin girişində inşa edilən bu möhtəşəm kompleks şəhidlərimizə olan hörmət və ehtiramın nümunəsidir.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***

# GDU-da Zəfər Gününə həsr olunmuş tədbir keçirilib

Gəncə Dövlət Universitetində (GDU) 8 Noyabr - Zəfər Günü ilə əlaqədar təntənəli bayram tədbiri keçirilmişdir.



Şəhər rəhbərliyinin, şəhid valideynlərinin, eləcə də Vətən müharibəsində şücaət göstərən hərbi qulluqçuların və qazilərin iştirakı ilə keçirilən tədbir Vətən müharibəsində şəhid olmuş igid övladlarımızın xatirəsinin birdəqiqəlik sükutla yad edilməsi və Azərbaycan Respublikasının Dövlət Himninin səsləndirilməsi ilə başlamışdır.

Tədbiri giriş sözü ilə açan universitetin rektoru Yusif Yusibov qeyd etmişdir ki, torpaqlarımızın erməni işğalçılarından azad edilməsində Gəncə Dövlət Universitetinin 39 vətənpərvər oğlu da könüllü olaraq cəbhəyə getmiş və torpaqlarımızın yağı düşməndən azad olunmasında iştirak etmişdir. Onlardan 33-ü tələbə, 6 nəfəri isə əməkdaş olmuşdur.

Tədbirdə Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramov çıxış edərək müharibə dövründə Gəncədə yaşanan hadisələrdən danışaraq bildirmişdir ki, müharibə zamanı düşmən tərəfindən döyüş bölgəsindən xeyli kənarda yerləşən yaşayış məntəqələri atəşə məruz qalmış, Gəncə və digər şəhərlərdə xeyli sayda dinc sakin həlak olmuş, yaralanmış, mülki infrastruktura ciddi ziyan dəymişdir. Lakin Azərbaycan əsgəri əsl qəhrəmanlıq göstərərək düşmənə layiqli cavab vermiş və işğal altında olan torpaqlarımızı azad edərək bizlərə qələbə sevincini yaşatmışdır.

Türkiyənin Gəncədəki baş konsulu Zəki Öztürk çıxışında 44 günlük Vətən müharibəsinin ilk günündən qardaş ölkənin, şəxsən dövlət başçısı Rəcəb Tayyib Ərdoğanın Azərbaycan xalqının yanında olduğunu vurğulamışdır.

Sonra Vətən müharibəsi qaziləri və şəhid ailələrinin nümayəndələri çıxış edərək onlara göstərilən dövlət qayğısından söhbət açmışlar.

Tədbir Gəncə Dövlət Universitetinin tələbələrinin hazırladığı musiqili ədəbi-bədii proqramla davam etmişdir.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***

Azercell abunəçilərinin nəzərinə!

"Azercell Telekom" MMC-dən asılı olmayan səbəblərdən "Kabinetim" tətbiqində hazırda istifadəsi mümkün olan "ƏDV Geri Al" xidməti 14.11.2022-ci il tarixdən etibarən deaktiv ediləcəkdir.

"Azercell Telekom" MMC ilə "Azərbaycan Beynəlxalq Bankı" ASC-nin birgə layihəsi olan "ƏDV-ni "Kabinetim"də topla" çərçivəsində, "ƏDV Geri Al" xidməti 11.02.2022-ci il tarixdən etibarən "Kabinetim" mobil tətbiqi istifadəçiləri üçün əlçatan olmuşdur. Xidmətin dayandırılması ilə bağlı mövcud hesablarınıza "ABB Mobile" tətbiqi və ya "Azərbaycan Beynəlxalq Bankı" ASC-nin "ƏDV Geri Al" veb-portalı olan **https://edvgerial.abb-bank.az/az** -dən daxil ola bilərsiniz. Gözləmədə olan çeklərinizin məbləğləri qaytarılaraq həmin portaldakı balansınızda görünəcəkdir. Xatırladaq ki, bağlantını asanlaşdırmaqla abunəçilərinin həyatını daha da dolğun etməyi hədəfləyən "Azercell Telekom" MMC-nin "Kabinetim" tətbiqi üzərindən abunəçilərimizə 24 saat ərzində nömrəyə onlayn nəzarət etmək imkanını yaradır. Həm iOS, həm də "Android" əməliyyat sistemlərində çalışan çoxfunksional "Kabinetim" tətbiqini "App Store", "PlayStore" və ya "Huawei AppGallery"dən ödənişsiz olaraq yükləmək mümkündür.

**Qeyd:** Abunəçilər göstərilən dəyişikliklər, həmçinin "Azercell Telekom" MMC tərəfindən təqdim edilən xidmətlər, tariflər və keçirilən kampaniyalar barədə ətraflı məlumatları rəsmi internet səhifəmizdən (**www.azercell.com<http://www.azercell.com/>**), həmçinin Müştəri Xidmətlərinə (MX və ya Eksklüziv ofisləri, həftənin 7 günü 24 saat ərzində fəaliyyət göstərən Telefon Mərkəzi) müraciət etməklə əldə etmək imkanına malikdirlər.

POVEST

# TALESİZLƏR ŞƏHƏRİ

Rəfiqə SADIQOVA

*(Əvvəli qəzetin 4 noyabr tarixli sayında)*

Südabə narahat idi. Bu saata kimi anasıgil gəlməli idilər. Lakin saatlar keçir, anasıgildən bir xəbər çıxmırdı. Nəhayət, xəbər çıxdı… Onları gətirən avtobus Qaracaba deyilən yerdə dərəyə yuvarlanmışdı. Deyilənə görə, içərisində olan 10 nəfər sərnişindən 7-si ölmüşdü. Kim idi bu ölənlər? Heç kim bilmirdi.

Yığışıb başı lovlu rayon xəstəxanasına yola düşdülər. "Jiquli" maşınına 5 nəfər zorla yerləşmişdi. Südabə oturduğu yerdə elə büzüşmüşdü ki, tərpənməyə belə illacı yox idi. Qonşuları Sənəm üzünü cırmışdı. Yanağında qan damcıları donub qalmışdı. Yolboyu ağı deyirdi. Sürücü bir neçə dəfə:

- Ay Sənəm, bir səbr elə, bəlkə oğluna bir şey olmayıb desə də, Sənəm səsini kəsmirdi.

Südabə elə bil keyləşmişdi. Xəstəxananın həyətində maşından düşəndə addım atmağa gücü yox idi. Bayaqdan ağı deyib ağlayan Sənəmin səsi kəsilmişdi. Oğlu ölməmişdi, yaralı idi.

Südabə insanların ona yazıq-yazıq, mərhəmətlə baxdıqlarını hiss etdi. Yüyrək addımlarla binaya yaxınlaşıb taxta qapını itələdi. Anası da, bacısı da ölmüşdülər. Bu xəbəri ona tibb bacısı verdi.

…Elə həmin gündən həyatdan küsdü Südabə, heç ailə də qurmadı. Rasimin anası Qəməri isə bir yas mərasimində görüb tanımışdı. Dərdli-dərdlini yaxşı anlar deyiblər axı. Qəmər ona Rasimdən danışdı. O isə başına gələnləri kədərlə Qəmərə söylədi. Beləcə həmdərd olmuşdular.

…Rasim Südabə üçün keçib gəldiyi məşəqqətli, qaranlıq yolun sonundakı işıq kimi onun həyatının mənasına, sevincinə çevrilmişdi. Ürəyində tez-tez "Ay Allah, həyatda məni tək qoymadığın üçün sənə şükürlər olsun", - deyirdi Südabə.

❖ ❖ ❖

Dərd bir qapını tanıyana qədərmiş. Qafarın ömür-gün yoldaşı İlduzə çadır həyatına alışmağa, ailəsini alışdırmağa çalışırdı. Hər yoxluğun içərisinə bir zarafat qatır, vəziyyəti gərginləşməyə qoymurdu.

Bir gün qonaqları gələcəkdi. Aş bişirməyə böyük bir qazanı yox idi. Taxçadakı qazanda düyünü bişirsə idi yeri dar olduğu üçün əzilə bilərdi. Çöldə ocaq qalayıb emallı vedrəni sacayağın üstünə qoydu. Qızı Güllü bunu görüb:

- Ana, neyləyirsən, - dedi.

İlduzə:

- Görmürsən, aş bişirirəm?

- Vedrədə?

- …Ay qızım, bunun dadı bir başqa olur, - deyib, ona iş tapşırdı ki, söhbət uzanmasın. Çünki uzandıqca cavabın çətinliyi meydana çıxırdı.

Üç qız, bir oğul anası olan İlduzə beləcə çox şeyi Qafara bildirmədən yola verməyə çalışırdı. Ürəyinə yığdığı bu xiffət, kədər də əvəzində "borclu" qalmırdı. Hakim olduğu yerdə dərin bir iz qoyurdu.

Qafar İlduzəni gəzdirmədiyi xəstəxana, həkim qoymadı. Nəhayət, ömür-gün yoldaşı özünə gələ bildi.

Həyat yenicə axarına düşürdü ki, oğlu Saleh xəstələndi. Təngnəfəs olub rəngi qaralan Saleh ağrısı tutanda haldan-hala düşürdü. Bu zaman bacıları canını qoymağa yer tapa bilmirdilər.

Uzun müayinələrdən sonra həkim onun bu vəziyyətdə çadırda - nəm və havasız bir yerdə yaşaya bilməyəcəyini bildirdi. Əks halda xəstəliyin şiddətlənməsi qorxusu vardı. Çadırdakı yaşamın gətirdiyi fəsadlar qaçılmazıydı. Özü də bu vəziyyətdə olan təkcə Qafargilin ailəsi deyildi.

Qafar arayıb-axtarıb keçmişdə uşaq bağçası olmuş bir yer tapdı və oraya daşındılar.

İşlər sanki qaydaya düşmüş kimi görünürdü. Lakin sən saydığını say… Daşınma şirkətlərinin birində işləyən, yük maşını idarə edən Salehin vəziyyəti qəflətən ağırlaşdı. Həkimlərin səyi nəticə vermirdi. Tanışlarından biri Qafara oğlunu Bakıya aparmağı məsləhət bildi. Özü də başqa yerə deyil, Mərkəzi Klinik Xəstəxanasına apar, - deyib bərk-bərk tapşırdı.

Məsləhət vermək asandır, amma… Ailə büdcəsi bu çətin yolun yolçuluğuna çıxmağa imkan verməsə də, Qafar məcbur olub dost-tanışa ağız açdı.

Təcili əməliyyat lazımıydı. Məbləğ olduqca böyük idi. Heç vaxt, ən çətin anında, hətta atasını, anasını itirəndə belə mətanətini saxlamağa çalışan Qafar bu məbləği eşidəndə sarsıldı. Qızları da, İlduzə də sualedici nəzərlərini ona dikmişdilər. Bu baxışlar altında əzilən Qafar kimsəyə bir söz demədən otaqdan çıxdı. Gümanı gələn bir yer yoxuydu. İçərisindən gələn hönkürtünü zorla boğub saxlayırdı.

Liftlə deyil, pilləkənlərlə aşağı endi. Klinikanın həyətində kimsə yoxuydu. O, ağzını əlləriylə bərk-bərk tutaraq hönkürdü. Gözündən yaş sel kimi axırdı. Əlacsızlıq, imkansızlıq onu elə bir çıxılmaz vəziyyətə salmışdı ki, haraya gedəcəyini, kimə ağız açacağını bilmirdi.

Ağacların arasında qoyulmuş skamyada oturaraq başını əllərinin arasına aldı. "Allah, kömək et" sözündən başqa dilinə və ağlına heç nə gəlmirdi. Nə içəriyə qayıtmağa üzü vardı, nə də açacağı bir qapı.

İlduzə Qafarın geri dönmədiyini görüb qızlarıyla birlikdə aşağı endi. Saleh hələ ki palatada həkimlərin nəzarəti altındaydı.

Onların gəldiyini görən Qafar gözyaşlarını silib ayağa qalxdı. Nəzərlərini yerdən qaldırmadan:

- Gedəkmi? - dedi.

Bu yoxluq, düçar olduğu fəlakət Qafarın seçimi deyildi. Elə qurulu düzənini, gözəl işini, dolanışığını da qoyub qaçmaq onun istəyi ilə olmayıb. Amma dərdə qalib gələ bilməməyi özünə rəva bilmirdi. Öz gücsüzlüyündən utanırdı. Onu yaxşı başa düşən İlduzə:

- Darıxma, Allah kərimdir, - deyib Qafarın qoluna girdi.

Doğrudan da elin gücü deyiblər. Xəbər tutan hər kəs yardım əlini uzatdı. Kimin nəyi vardısa, əsirgəmədi. Dörd günün içində deyilən məbləğ yığıldı. Sən demə, işin ən çətini irəlidə imiş. Pulu kassaya təqdim edəndən sonra cərrahiyyə əməliyyatı aparacaq həkim onun qarşısına bir vərəq qoydu. Orada yazılmışdı ki, əməliyyatdan sonra, eləcə də əməliyyat zamanı baş verə biləcək hər hansı bir fəsad və ya ölüm riskinin olması ilə məlumatlıyam, cərrahi əməliyyatın bu şərtlər altında aparılmasına razıyam.

Bu təklifi oxuyan Qafarın dünya başına fırlandı. Nəzərlərini qarşısındakı kağızdan ayırıb həkimə baxdı. Həkim heç nə olmamış kimi nəsə yazırdı. Qafar qalxıb ayağı yer tutduqca buradan uzaqlaşmaq, qaçmaq istədi. Heç özü də bilmirdi ki, niyə qaçmaq istədi. Axı qaçmaq dərdə dəva deyildi. Amma başqa heç nə ağlına gəlmirdi. Beyni də, baxışları da korşalmışdı sanki. Eləcə halsız vəziyyətdə həkimə baxa-baxa qalmışdı. Həkim:

- Kağıza imza atıb verin. Gözləmək çox risklidir, - dedi. - Nə gedir, vaxtdan gedir.

Qafarın elə bil ki, şüuru ayazıdı. Tez-tələsik imza atıb kabinetdən çıxdı.

Həkimin dediyinə görə əməliyyat uğurlu keçdi. Dörd gün klinikada qalandan sonra Salehi təxliyyə etdilər. Amma əməliyyat edən həkim bərk-bərk tapşırdı ki, üç gün müddətində Bakıda qalsınlar. Sonra fikrini belə izah etdi ki, yola çıxmaq xəstənin səhhəti üçün təhlükəli ola bilər.

Salehin maşına əyləşməsinə kömək edən Qafar sükanın arxasına keçdi. Qızının evində oğlunun yolunu həsrətlə gözləyən İlduzə qıvraq bir süfrə açmışdı.

Saleh hələ ki özünü yaxşı hiss edirdi. Onlar bir gün sonra yola çıxacaqdılar. Ertəsi gün İlduzə səhər tezdən qalxıb yır-yığış etdi. Qızının evi də olsa, öz evinin rahatlığını istəyirdi.

Əlində stəkan mətbəxdən çıxan Saleh qəflətən ürəyini tutub yerə çökdü. Arxasını divara söykəyib ayağının birini yığdı və…

İlduzənin çığırtısına qaçıb gələn Qafar gördüyü mənzərədən az qala ağlını itirəcəkdi. Saleh artıq yox idi. İlduzə oğlunun başını sinəsinə sıxıb oxşayırdı…

…Ümidlə gəldikləri şəhəri dünyaları darmadağın olmuş vəziyyətdə tərk edirdilər. İrəlidəki təcili yardım maşınında Salehin cansız bədəni, arxadakı maşında isə İlduzə və Qafarın canlı, lakin ruhu uçmuş cismləri vardı. Ruhun uçması da elə yarım ölüm demək imiş. Həyat deyil, zindan yaşamaq demək imiş. Canlı-canlı ölmək demək imiş.

Həmin gündən Qafarın bu dünya ilə bağları qopdu elə bil. Artıq heç nəyə nə gümanı, nə də inamı vardı. Saleh bir dəfə öldü. Qafar hər gün yüz dəfə ölüb dirilirdi. Əgər ailəsi, qızları olmasaydı, bəlkə də canına qıyardı. Lakin gözü yaşlı İlduzəni, üç qız balasını gözləri önünə gətirəndə əli-ayağı soyuyurdu. Neçə dəfə sürdüyü maşını özüqarışıq dərəyə yuvarlatmaq, qayaya-divara çırpmaq istədi. Lakin bir şeydən qorxurdu. Birdən ölməzsə, əlil olsa necə?

Dünyanın ağır dərdlərindən biri də hər gün yüz kərə ölüb-dirilmək, zülümlə yaşamağa məhkum olmaq imiş. Qafar belə həyatı heç düşməninə də arzulamazdı. Sərgərdan qalmaq, ölüb-dirilmək, zülmə qatlanmaq, dözmək çətin idi.

İllərdir yaxınlarını müxtəlif qəbiristanlıqlarda əmanət olaraq dəfn edənlər, qaçqın camaat daha ruhdan düşmüşdü. Əmanət sözünü çoxdan unutmuşdular belə. Yerli sakinlər kimi büdcələrinə uyğun məzar hazırlatdırırdılar. Qafar da üzərində oğlunun adı və əksi olan bir məzar düzəltdirmişdi. O, hər gün məzarı ziyarət edir, oğlu ilə söhbətləşirdi. Bu, onun üçün bir təsəlli idi.

❖ ❖ ❖

Dağılmış, məhvərindən qopmuş nəyisə bir yerə yığmaq, bərpa eləmək, əvvəlki vəziyyətinə gətirmək çətindən çətin, bəzən isə mümkünsüz imiş. Qafar Salehin yoxluğuna dözə bilmirdi. Otağın yuxarı başına vurulmuş iri çərçivəli şəkildən baxan Salehin üzü nə qədər gülümsər görünsə də, atasının ürəyinə işıq sala bilmirdi. Qafar üzə vurmasa da, qızlarından çox oğlunu istəyirdi. Oğlunun anadan olduğu günü yaxşı xatırlayırdı. Sevincdən qol-qanad açmışdı. Armud ağacına bağladığı qoçu kəsib qonum-qonşuya payladılar. Qızlar isə qaqaş deyib sinov gedirdilər. Salehin hər ad günü böyük bayram kimi keçərdi. 10 yaşına çatanda atası ona maşın sürməyi öyrətməyə başladı. İlduzənin:

- Qoy oxuyub bir sənət sahibi olsun sözünə:

- Bu ev-eşik, varım-yoxum onundur, oxumasa da olar, - deyirdi.

Əslində oğlunun ali təhsil almasını istəyirdi, lakin onun təhsilə həvəsi olmadığını görüb Salehi bərkə salmırdı.

İndi isə əli qoynunda qalmış Qafarın dünyanın varına-dövlətinə gözünün ucu ilə baxmağa belə həvəsi qalmamışdı.

Qohum-qardaşın tövsiyəsi və iradından sonra "QAZ-24"-ü xarici markalı maşına dəyişdi. Çünki "QAZ-24" köhnə olduğu üçün onu tez-tez yolda qoyurdu. Yeni maşına isə hələ alışa bilməmişdi. İkinci əl sayılan maşının kifayət qədər "yaşlı" olduğunu bilə-bilə almışdı Qafar. Çünki təzəsinə pulu çatmırdı. Di gəl ki, bunun da dilini bilmirdi. Ən çox da xoşuna gəlməyən maşının yedəyə qoşulmasının mümkünsüzlüyü idi. Gərək evakuator çağırasan ki, yerindən tərpənə bilsin. Bu da kifayət qədər xərc tələb edirdi. Bu xərclər isə Qafarın büdcəsinə heç uyğun deyildi.

Qafargil də qaçqınlar üçün salınmış yeni, abad qəsəbəyə köçmüşdülər. Mərtəbəsi yuxarı olduğu üçün İlduzə hər saat aşağıya düşə bilmirdi. Amma mənzil çox rahat idi.

Səhər həyətə düşüb yola çıxmağa hazırlaşan Qafar nə illah elədisə, maşın işə düşmədi. Hövsələsiz halda maşından düşüb blokun ağzında qoyulmuş skamyada əyləşdi. Bazarlıqdan qaydan Musa:

- Xeyirdirmi qonşu, nə yaxşı aşağıda oturubsan?

- Bu zəhrimar yenə işə düşmür, - deyib, Qafar pərişan halda maşınına baxdı.

- İstəyirsən bir mən də yoxlayım?

- Əşşi, yox ey, yerindən tərpənmir ki, tərpənmir.

- Açarı ver görüm. Musa sükan arxasına keçdi və bir həmlə ilə maşın işə düşdü. Qafar sevincək:

- Nə elədin ki sən? - deyə soruşdu.

- Heç nə, yəqin ki, açar yerini işlədən xırda dişlərdən hansısa zədələnib. Odur ki, açarı asta-asta, səliqə ilə fırlamalısan.

Qafarı od götürdü:

- Yox da bir, sevə-sevə, oxşaya-oxşaya.

- Zarafata salma, təmir elətdirməsən, heç o saydıqların da köməyə gəlməyəcək, - deyə zarafata zarafatla cavab verdi Musa.

- Bax sənə nişan verim. Məktəbin yanından sağa burulub, axırıncı binanı keçəndən sonra görəcəksən, orada yaxşı bir maşın təmiri sexi var. Şikar usta həm peşəkar, həm də yaxşı insandır.

Qafar görəcəyi işi təxirə saldı. Bu vəziyyətdə yola çıxmaq olmazdı. Maşını qonşusunun dediyi yolla sürüb təmir sexinin yanında



dayandı. Ətrafda kimsə gözünə dəymədi. Bir az irəli yeriyib:

- Kimsə varmı, deyib səsləndi. Maşının altından səs gəldi:

- Beş dəqiqə gözlə.

- Gözlə deyirsən, gözləyim də, - deyib Qafar işlənməkdən əvvəlki rəngi bilinməyən köhnə bir stula əyləşdi. Adam nəyisə gözləyəndə səbirsiz olur. Dəqiqələr uzandıqca Qafar gözünü qolundakı saatdan çəkə bilmirdi. Nəhayət, Şikar usta maşının altındakı xəndəyə bənzər yerdən çıxıb əlini dəsmalla silə-silə Qafara yaxınlaşdı.

- Xoş gördük, - deyib əl verdi və - ürəyim yanır, bir çay qoyum, - deyərək tikilinin içərisinə keçdi. Bir qədər sonra əlində 2 armudu stəkan çayla geri döndü. Stəkanları kiçik masanın üstünə qoyub Qafara:

- İrəli otur, - dedi.

Qənddanın qapağını götürüb onu Qafara doğru itələdi. Sonra özü də keçib oturdu. Çayı tələsik içib Qafara:

- Hə, indi eşidirəm, - dedi.

Bu astagəl adama əsəbiləşsə də, Qafar hirsini büruzə verməməyə çalışdı. Ürəyində: "Bir kəlmə sözü söyləmək üçün dəfə daraq qurur". Bunu əvvəldən soruşmaq olmazdı? Lakin lənət şeytana deyib mülayim səslə:

- Maşın çox gec işə düşür. Elə bil ki, xəstəliyi var, hərdən tutur.

Şikar usta güldü.

- Onun xəstəliyindən bizim cavan usta anlaya bilər. Mənimki köhnə sovet maşınlarıdır. Lap bərkə düşəndə çəkiclə döyəcləyib yola verirəm. Amma bunlar çətindir, mənlik deyil.

- Bəs hardadır cavan usta?

- Anası xəstədir, izin alıb getdi ki, onu həkimə aparsın. Yəqin ki, daha gəlməz. Dedi ki, Bakıdan həkimlər gəlib, növbə böyükdür.

Qafar ustanın telefon nömrəsini alıb ayağa qalxdı.

- O zaman zəng edib gələrəm.

Qafar evə gələndə blokun qabağında dayanan maşını görüb sevindi. Böyük qızı Güllügilin maşını onun həmişə öz maşının saxladığı yerdə dayanmışdı. Başqası olsa, əsəbiləşər, deyinərdi Qafar. Çünki öz aralarında böldükləri yerdə başqa bir qonşu maşın saxlayanda qarışıqlıq yaranır, gəlib-gedən avtomobillərə əngəl olurdu.

Dörd mərtəbəni bir nəfəsə çıxdı Qafar. Yəqin ki, nəvəsi Həmid də gəlmişdi. Həmid çox qabiliyyətli, sakit təbiətli bir yeniyetmə idi. Babasını çox istəyirdi. Elə babası da onu ürəyi bilirdi.

Güllü atasının boynuna sarılıb öpdü.

- Maşallah, yaxşı görünürsən, - deyib atasını ürəkləndirdi. Qafar Həmidi qucaqlayıb sinəsinə sıxdı. Eyni ilə bir zamanlar Salehi sıxdığı kimi. Sonra kürəkəni ilə əl verib görüşdü. İlduzənin hazırladığı stolun arxasına keçdi.

- Arvad, belə görürəm ki, Güllügilin gəlişindən xəbərin varmış. Yoxsa qısa zamanda belə hazırlıq başa gəlməzdi.

- Hə, Qafar, bilirdim gələcəklər. Sənə demədim ki, nigaran qalırsan. Onlar gəlib çatana kimi həyəcan içində olursan.

- Bax onu doğru deyirsən, - deyib Qafar minnətdarlıqla İlduzəni süzdü.

Güllügil iki gün qalıb getdilər. Lakin Həmid qaldı. Məktəblilər tətilə çıxdıqları üçün Həmidin kifayət qədər vaxtı vardı.

Səhərisi gün Qafar Həmidlə birlikdə Şikar ustanın yanına getdi. Cavan usta gəlməmişdi.

- Ay usta, sənin bu cavan ustan nə ərköyünmüş, deyəsən istədiyi vaxt gəlir işə.

- Yox, elə demə, çox qanacaqlı baladır, işi olmasa yubanmaz.

- Onda nəvəm qalsın, mən gedirəm. Usta gələndə zəng edərsiniz gələrəm, - deyib açarı Həmidə uzatdı.

Usta: - Yaxşı, - deyib onu yola saldı.

❖ ❖ ❖

Həkimdən çıxandan sonra Rasim əlində tutduğu nüsxəyə baxıb:

- Elə yolüstü dərmanlarını da alaq, - deyib maşına minmək üçün Südabəyə kömək etdi. növbə gözləməkdən yorulan Südabə yerini rahatlayıb:

- Alarıq, tələsmə, - dedi.

Dönmək üçün şütüyən maşınlardan fürsət gözləyən Rasim:

- Nəyi alarıq, - dedi.

- O ağxalatlı qızı.

Rasim əyləci basıb Südabəyə baxdı:

- Mən dərmanları deyirəm, sən nə deyirsən?

- O tibb bacısına baxdın?

- Nə olsun ki.

- O mənimlə danışan ağxalatlı qız Şirinin qızıdır, bizim əmizadənin. Növbədə durduğumuz zaman bir az sorğu-sual elədim. Ərə getməyib, nişanlı da deyil.

- Ay ana, bu fürsəti necə tapdın?

- Həkim yubandığı üçün. Elə o zaman bir az söhbətləşdik. Sən hələ mənə de görüm, qız xoşuna gəldi:

- Ana, mən ona heç doğru-dürüst fikir belə vermədim.

- Elə fərasətinə bələd olduğum üçün qızla özüm maraqlandım. Pis olar, xəstə adamam, iynəmi vurar, dava-dərmanımı verər.

- Hə, demək iki daşın arasında bunları da düşündün.

- Hər sözə bir söz tapma. Belə getsə, subay qalacaqsan.

- Bax ondan qorxum yoxdur. Gəl sayaq görək bu bəyəndiyin neçənci qızdır.

- Neyləyim, əlim yüngüldü. Sən tərpənənə kimi gəlib alırlar.

Rasim bildi ki, Südabə gördüyündən bərk yapışıb.

- Bir də gələndə yaxşı-yaxşı baxaram, - dedi.

Südabə:

- Görək də, deyib söhbətin bitdiyini bildirmək üçün üzünü yana çevirib yolu seyr eləməyə başladı. Rasim anladı ki, anasının xətrinə dəyib. Odur ki, onun dizinin üstünə qoyduğu əlini çəkib öpdü və:

- Ana, söz verirəm, bax bir də nə desən ona əməl edəcəm.

Bununla da ana-bala arasında mübahisə sona yetdi.

İşə səhər erkən gələn Rasim ustası gələnə kimi sexi qaydaya saldı. Rasim artıq bacarıqlı usta kimi ad-san qazanmışdı. Lakin bu onun ustaya olan hörmətinə xələl gətirməmişdi. Həmişə ustasını böyüyü, əlinə sənət verən bir insan kimi dəyərləndirirdi. Qabil usta hal-əhvaldan sonra dünəndən onu gözləyən Qafar haqqında danışdı.

- Qəsəbəyə sonradan köçüb, - dedi. - Yəqin ki, indilərdə gələr.

Rasim əlini cibinə salanda həkimin yazdığı nüsxəni gördü.

- Usta, icazənizlə anamın dərmanlarından biri qalıb. Onu alıb tez də qayıdacam, - dedi.

Rasim elə iş paltarındaca maşına əyləşib sürdü. O, yolda Qafargillə qarşılaşsa da, bir-birilərini tanımadıqları üçün fərqində olmadılar. Qafar maşından düşüb usta ilə salamlaşdı. Ətrafa göz gəzdirib:

- Ustan gəlməyib deyəsən.

- Yarım saata gələr, - dedi Qabil usta.

- Day olmadı ki, iki gündür bunun avarası olmuşam.

Babasının əsəbiləşdiyini görən Həmid:

- Baba, mən maşının yanında dayanaram, istəyirsən sən get. Usta işini qurtaranda zəng edərəm, gələrsən.

Qafar açarı Həmidə uzadıb kəsə yolla evə tərəf üz tutdu.

Əslində Qafarın bu hövsələsizliyi təkcə cavan ustanı tapa bilməməsindən qaynaqlanmırdı. Canı ağrıyırdı və bu ağrını da evdəkilərdən gizlətməyə çalışırdı.

4-cü mərtəbəyə qalxmağa gücü olmadığı üçün blokun qabağında qoyulmuş skamyada oturdu. Tövşük sinəsini yaman almışdı. Həkimə getməyə qorxurdu. Qorxurdu ki, elə şey deyərlər əli bu dünyadan üzülər. Amma qorxunun əcələ faydası yoxmuş. Vaxt irəlilədikcə səhhətinin pisləşdiyini gizlədə bilməyəcəyini hiss edirdi.

Balkona çıxan İlduzə skamyada oturan Qafarı görüb gözlərinə inanmadı. Nə maşın vardı, nə də nəvəsi Həmid. Heç vaxt həyətdə oturmayan Qafar görəsən niyə yuxarı çıxmayıb?

İlduzə:

- A qızım, Sevinc, gəl bax gör atandı orada oturan?

Sevincin balkona çıxması yubandığı üçün İlduzə hövsələsiz halda:

- Ay qız, harda qaldın, - deyib Sevinci yenidən səslədi.

- Gəldim, ana, əlimi yuyurdum, deyərək məhrabanı asılqana keçirib balkona çıxdı.

- Atam deyil o, niyə orda oturub? - deyə Sevinc sualedici nəzərlərlə anasına baxdı.

- Elə mən də səni ona görə çağırdım.

Sevinc tələsik ayaqqabısını geyinib aşağı düşdü.

Onu görən Qafar:

- Hara belə? - dedi.

- Heç hara, səni görüb düşdüm. Nə olub, niyə oturmusan burda?

❖ ❖ ❖

Qafar başını qaldırıb balkona baxdı. İlduzə orada idi.

- Qızım, anan narahat olmasın deyə dedim bir nəfəsimi dərim. Yaman təngnəfəs oluram. Elə bil ki, addım atıb yeriməyə gücüm-illacım yoxdur.

- Yaxşı, dur gedək, - deyə Sevinc atasının qoluna girib onun pillələri qalxmasına kömək etdi.

Onlar 4-cü mərtəbəyə çatanda artıq İlduzə pilləkən meydançasında dayanıb həyəcanla Qafara baxırdı.

- Nə olub, nə hay-küy salmısan? - deyə Qafar üzünə gülüş ifadəsi verməyə çalışdı.

- Nə olacaq? Söz eşitmirsən, nə qədər gizlətsən də, rənginə-rufuna baxanda hər şey bəlli olur.

Qafar içəri keçib divanda əyləşdi. İlduzə hələ də sualedici nəzərlərlə onu süzürdü.

- Bax sənə deyirəm, həkimə getməsən, ta məndən incimə.

Qafar gərginliyi yumşaltmaq üçün zarafat eləməyə çalışdı.

- Neynəmək istəyirsən…

- Belə əlindən yapışıb səni uşaq kimi həkimə özüm aparacam.

- Hansı həkimə?

- Bax elə qəsəbəmizdəki Murad doxdurun yanına. Adı elnən birdi. Nə olub, təkcə sənə yaramadı?

- Yaxşı, sabah gedərəm.

- Elə hər gün belə deyib yubadırsan.

- Söz verirəm, sabah mütləq gedəcəm, - deyib Qafar Sevincin gətirdiyi yasdığa dirsəkləndi.

Vəziyyət ciddi idi. Həkimə getməmək üçün bəhanə axtaran Qafar İlduzənin necə deyərlər, radarına düşmüşdü. Mümkünü yox idi. Getməsə, İlduzənin çıxardığı mərəkədə cavabdehlik etməli idi. İndiki halda isə buna halı yox idi.

Həmişəki kimi səhər yeməyi üçün stola yaxınlaşan Qafar süfrəni boş gördü. Çönüb sualedici nəzərlərlə İlduzəyə baxanda:

- Unutdun? Həkimə getməlisən. Acqarına ol ki, birdən qan analizi verməli olarsan.

Fərman çox yüksək yerdən gəldiyi üçün Qafar sözünün arxasını gətirmədən qapıya doğru getdi.

- Mən də gəlimmi?

Çönüb İlduzəyə baxan Qafar:

- Uşaq zad deyiləm ki, özüm gedəcəm.

İlduzənin:

- Uşaqdan da betərsən - sözlərinə cavab vermədən qapını arxasınca örtdü.

❖ ❖ ❖

Murad doxdurun qəbulunda xeyli adam vardı. Qafarın əlacı olsaydı, burada dayanmazdı. Amma evdəki sorğu-suala cavab vermək lazım gəlirdi.

Həkimin müayinəsi bir xeyli çəkdi. Qafarın gözləri ona dikilmişdi. Həkimin üz ifadəsindən vəziyyətin necə olmasını öyrənməyə çalışırdı. Ölümündən qorxmurdu. Ailənin başsız qalması ölümdən də betər gəlirdi ona.

Başıaşağı qarşısındakı kağızlara nəsə yazan həkimə:

- Vəziyyətim çox qorxuludur? - deyə Qafar diqqətlə ona baxdı.

- Hər şey analizlərin nəticəsindən, müəyyən prosedurlardan sonra bilinəcək, - deyib həkim yazdığı qeydləri ona uzatdı.

Murad doxdurun yazdıqlarını icra etmək 2 gün vaxt aldı. İki gündən sonra Qafar yenidən onunla görüşdü. Verilən cavabları diqqətlə oxuyan həkim:

- Qorxulu heç nə yoxdur. Amma ciddi müalicə tələb olunur, - dedi.

Bu cavabdan özünə gələn Qafar:

- Nə desəniz edəcəyəm. Demək qorxulu heç nə yoxdur, - deyib həkimin üzünə baxdı.

Qafar artıq özünə gəlmişdi. Murad doxdurla da aralarında xoş bir ünsiyyət yaranmışdı. Amma Qafar nədənsə hər dəfə həkimi görəndə utanan kimi olurdu. Heç kimin qarşısında acizləşməyən Qafar Murad doxdurun qarşısında qorxduğunu büruzə verdiyi üçün təəssüflənirdi. İndi Murad doxdur da fikirləşəcək ki, Birinci Qarabağ, Aprel döyüşlərində aslanlar kimi oğullar şəhid oldu. Ölümdən qorxmadıqlarını canları, qanları ilə isbat etdilər. Bu da…

Qafar dindar olmasa da, o dünya deyilən sözə inanırdı. Ona elə gəlirdi ki, Rasimi tək, yiyəsiz qoyduğu üçün o dünyada verəcəyi cavab çox çətin olacaq. Əlsiz, ayaqsız sayılan, kimsəsiz sayılan bir uşağı o qanlı meydanda qoyub qaçmaq heç bir məntiqə sığmırdı.

Qafar həkimin tövsiyəsinə uyğun olaraq qəsəbənin ərazisində olan parkda gəzirdi. Uzaqdan Murad doxdurun da parkda gəzişdiyini görüb ona yaxınlaşdı. Salamlaşdıqdan sonra yaxınlıqdakı skamyada oturdular. Daha bura həkim otağı deyildi. Həkimi gözləyən növbə də yox idi. Hər ikisinin kifayət qədər vaxtı vardı.

Qafar Murad doxdurun faciə dolu həyat yolunu ürəkağrısı ilə dinlədi. Murad doxdur kədərdən-qüssədən dolmuş ürəyini boşaltmağa məqam gəzirmiş. Qarşısındakı adam da torpağa oğul vermiş bir ata idi. Odur ki, onu anlayacağından, həyatını niyə belə tək-tənha sürürsən qınağından uzaq idi.

Qafar da başına gələnləri danışdı. Amma məni üzən, günümü qara edən, özümün özümə nifrətimə səbəb olan bir dərdim var ki, onu yalnız həyat yoldaşım İlduzə bilir, - dedi. - Ondan başqa kimsəyə danışa bilmirəm bu dərdi. Qınaqdan qorxuram. Əslində qınasalar belə, haqlıdırlar. Gərək etməyəydim. Qız övladlarımdan qorxdum. Qız namusdur, onların ələ keçməsindən qorxduğum üçün kəndi tez tərk eləmək məcburiyyətində qaldım.

Elə bu zaman qəsəbədə çox danışdığı üçün ləqəbi uzunçu olan Muxtar salamlaşıb onların yanında əyləşdi. Demək söhbət bitmişdir. Muxtardan başqa kimsə danışa bilməzdi.

❖ ❖ ❖

Düşmən yenə qana susayırdı. Tovuz rayonunun Ağdam, Əlibəyli kəndləri intensiv atəşə məruz qalırdı. Qaraqaya yüksəkliyi uğrunda gərgin döyüşlər gedirdi. Bu hadisələr zamanı general-mayor Polad Həşimov şəhid oldu. Onun nəşini gətirən maşın karvanı Azərbaycan və Türkiyə bayraqları ilə bəzədilmişdi. İkinci Fəxri xiyabanda dəfn olunan general-mayorun məzarı insanların ziyarətgahına çevrilmişdi. Gənclər onların könüllü olaraq ordu sıralarına cəlb edilməsini istəyirdilər. Xalq Qarabağın azad olunması arzusu ilə təlatümə gəlmişdi. Xalq qisas almaq istəyirdi. Könüllülər dəstə-dəstə hərbi komissarlıqlara üz tutur, onların ordu sıralarına cəlb olunmasını tələb edirdilər.

Sentyabrın 26-da artıq xalq birliyi sanki möhtəşəm bir orduya çevrilmişdi. Sentyabrın 27-nin səhəri isə bir mühüm və çoxdan gözlənilən xəbərlə açıldı. Hamı televizordan, yolda olanlar isə radiodan səslənən xəbərləri həyəcanla dinləyirdi.

"Sentyabrın 27-si saat 06:00 radələrində Ermənistan silahlı qüvvələri genişmiqyaslı təxribat törədərək cəbhəboyu zonada yerləşən Azərbaycan ordusunun mövqelərini və yaşayış məntəqələrimizi iriçaplı silahlar, minaatanlar və müxtəlif çaplı artilleriya qurğularından atəşə tutub. Düşmən tərəfindən Tərtər rayonunun Qapanlı, Ağdam rayonunun Alaxanlı və Şükürbəyli, Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndlərinin intensiv atəşə tutulması nəticəsində mülki əhali arasında həlak olan və yaralananlar var. Mülki infrastruktur obyektlərinə ciddi ziyan dəyib. Mülki əhali və hərbi qulluqçular arasında itkilər və yaralılar barədə məlumat dəqiqləşdirilir.

Azərbaycan ordusunun ön xətt bölmələri düşmənin bu təxribatının qarşısını almaq və qoşunların qarşıdurma xəttinə yaxın zonalarda yaşayan mülki əhalinin təhlükəsizliyini təmin etmək məqsədilə cavab tədbirləri görür".

Rasim də döyüşə getmək üçün növbəyə düzülən könüllülərin dəstəsinə qoşulmuşdu. Növbə ona çatanda iri stolun arxasında əyləşən kapitana salam verərək kimliyini stolun üstünə qoydu. Kapitan Rasimi başdan-ayağa süzüb:

- Sən əsgəri xidmətdə olmamısan, yəni təlimata uyğun olmadığın üçün səni səfərbərliyə ala bilmərik, - deyib şəxsiyyət vəsiqəsini ona qaytardı.

Rasim peşman-peşman hərbi geyimli gənci süzüb:

- O vaxtilə səhhətimlə bağlı olub. İndi sağalmışam. Yəni orduda bir işə yarıya bilmərəm, deyirsiniz?

- İncimə, sənə izah etdim axı. Görürsən növbəni, vaxt azdır, gedə bilərsən, - dedi.

Rasim kor-peşman əlindəki şəxsiyyət vəsiqəsinə baxıb:

- Bir işə yaramırsan, - dedi. Sanki onun müharibəyə bir könüllü kimi qatılmasına imkan verməyən elə bu şəxsiyyət vəsiqəsi idi.

Ordu irəliləyir, hər gün azad olunan şəhər, kənd, qəsəbə haqqında məlumatlar verilirdi. Hər kəsin gözlədiyi xəbər isə Prezidentdən gəlirdi. Ali Baş Komandanın hər çıxışından, verdiyi xəbərdən sonra küçələr, yollar, meydanlar insan selinə, gülüş, alqış səslərinə, qüdrətlə dalğalanan Azərbaycan, Türkiyə bayraqlarına bürünürdü.

Qəsəbə sakinləri klubdakı böyük ekranlı televizorun önünə toplaşmışdılar. Artıq sevincli, qələbə soraqlı xəbərləri öz evlərində, mənzillərində dinləmək insanlara az gəlirdi. Birlikdə, elliklə sevinmək istəyirdilər.

*(Ardı var)*

◆ Replika

# MURDARLIQ

**Xalq artisti Arif Babayevin ölüm xəbəri çıxdı!**

**Sosial şəbəkədə, elektron saytlarda yayılan bu informasiyanı eşidənlərin hamısı dərin təəssüf hissi keçirdi, kədərləndi...**

Hamının ürəyindən eyni hiss keçdi:

Azərbaycanın Məcnun rolunun gözəl ifaçılarından biri haqq dünyasına köçdü...

Bir də onun canlı ifasında "Can Qarabağım" mahnısını eşidə bilməyəcəyik!

Bir də dünyaya nə vaxt Arif Babayev təki ustad sənətkar gələcək!

Gələcəkmi?

**Xeyli əvvəl Xalq artisti Zeynəb Xanlarova haqqında da belə xəbər çıxarmışdılar.**

**Onda da qeyri-adi ifaçılarımızdan birini, səhnəmizin ən gözəl Leylisini itirməyimizdən kədərlənmişdik.**

*Hər iki sənətkar ecazkar səsə, yüksək səhnə və ifaçılıq mədəniyyətinə malik olmaqla Azərbaycan mədəniyyəti və musiqisinin dünyada tanıdılmasına da böyük töhfələr veriblər.*

*İnsan kimi sadə, xoş xasiyyətli, xeyirxah, heç kəsə pislik etməyən, əksinə, əl tutan, çörək verməyi bacaranlardır.*

Heç biri heç vaxt heç kəsin arxasınca danışmayıb, reytinq naminə süni qalmaqal yaratmayıb!

Kimsəyə də pislikləri dəyməyib.

**Belədə bu nə xəbərçilikdir?**

**Bu nə "zarafat"dır?**

**Bu nə oyunbazlıqdır?**

*Görün insanlar nədən zövq alırlar!*

*Görün insanlar başqalarının ölüm xəbərini çıxarmaqdan necə ləzzət alırlar!*

Bağışlayın, səhvən "insan" sözünü işlətdik!

İnsan olan kəs belə işlə məşğul olmaz!

İnsan olan kəs yalan ölüm xəbərini yayıb, bundan sevinc hissi keçirməz!

❖ ❖ ❖

Saytlar isə ağına-bozuna baxmadan, faktın dəqiqliyini yoxlamadan bu tip xəbərləri tirajlayırlar!

Nədi-nədi "sayta giriş" çoxalsın!

Nədi-nədi qabağa düşüb lov xəbəri tez hamıya çatdırsınlar!

**Bəs jurnalist dəqiqliyi, bəs jurnalist vicdanı!**

**Hansı birimizin doğması haqqında belə yalan xəbərlər çıxarılsa, xoşumuza gələr?!**

Görün "giriş sayını" süni şəkildə artırmaq üçün necə bir "uğurlu üsul" tapıblar!

*Hadisənin məkanını qəsdən göstərmədən insanların aldadılması da çoxişlənən üsula çevrilib:*

*"Sabiq baş nazirə sui-qəsd edildi" - yazaraq daha bir sensasiya yaradırlar.*

*Dərhal narahat oluruq, sayta girib oxuyuruq.*

*Məlum olur ki, hadisə Azərbaycanda deyil, Pakistanda baş verib!*

Eyniadlı insanların başına gələn hadisələrdə də qəsdən belə "mövqe" sərgiləyirlər.

"Filankəs avtoqəzada dünyasını dəyişdi!"

Oxuyanda görürsən ki, bu hamının tanıdığı həmin insan deyil, eyni ad və soyadın daşıyıcısıdır!

❖ ❖ ❖

Xeyli vaxt sərf edərək lüğətləri vərəqlədik.

İnsanlara doğmalarının, cəmiyyətdə tanınmış adamların yalançı ölüm xəbərini çatdıranlara nə ad verildiyini öyrənmək istədik!

**Dilimiz zəngin olsa da, hələ belələrinə ad tapılmayıb.**

**Çünki xalqımız bəd xəbər verməyi, mərdiməzarlıq etməyi sevmir.**

Azərbaycan xalqı heç zaman heç kəsə doğmalarının itkisini, ölümünü arzulamır!

Çünki Allahdan qorxur!

Əslində belə əməllərin bir adı var:

MURDARLIQ!

BƏLKƏ DƏ RƏZİLLİK!

**Bəxtiyar SADIQOV**





# OXUCULARIN NƏZƏRİNƏ!

***"Azərbaycan" qəzetinə 2022-ci il üçün abunə yazılışı kampaniyası davam edir!***

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *"Qaya" firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *"Region Press" MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *"Səma-M" MMC* | *(012) 594-09-59* |
| *"Ziya" LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *"Pressinform" MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *"City press" MMC* | *(055) 819-09-26* |

**1 illik -124,80** (yüz iyirmi dörd manat səksən qəpik) **manat**
**6 aylıq - 62,40** (altmış iki manat qırx qəpik) **manat**
**3 aylıq - 31,20** (otuz bir manat iyirmi qəpik) **manat**

**Hörmətli oxucular!**

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, **(012) 539-59-33** nömrəli telefona zəng vura bilərsiniz.*


# ASK rəhbəri TOGG-un zavodunun rəsmi açılış mərasimində iştirak etmişdir

Xəbər verildiyi kimi, oktyabrın 29-da Türkiyənin Bursa vilayətinin Gemlik rayonunda inşa edilmiş, Türkiyənin mobillik sahəsində xidmət göstərən qlobal texnologiya markası olan TOGG elektromobilinin kütləvi istehsal zavodunun rəsmi açılış mərasimi keçirilmişdir.

Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının (ASK) Prezidenti Məmməd Musayevin də qatıldığı rəsmi açılış mərasimində başda Türkiyə Cümhuriyyətinin Prezidenti Rəcəb Tayyib Ərdoğan olmaqla qardaş ölkənin dövlət rəsmiləri iştirak etmişlər.

Zavod ümumilikdə 1,2 milyon kvadratmetr sahədə inşa edilib ki, onun da 230 min kvadratmetri qapalı sahədir. 2020-ci ildə təməli qoyulan zavodun inşası 2 ilə tamamlanıb. Tikintisində ümumilikdə 9700 nəfərin iştirak etdiyi müəssisədə montaj mərkəzi, prototip inkişaf, istifadəçi sınaq parkı kimi bir çox bölümlər var.

TOGG markalı elektromobilin ilk nümunələri brendin baş direktoru Gürkan Karakaş tərəfindən təqdim edilmişdir. Məlumat verilmişdir ki, elektromobilin Türkiyədən kənarda da satışı planlaşdırılır. Həmçinin bildirilmişdir ki, müəssisənin illik istehsal gücü 175 000 ədədə çatdıqda orada 4300 nəfər çalışacaq. TOGG-un gələn ilin mart ayında satışa çıxarılacağı gözlənilir.

Məlum olduğu kimi, Azərbaycan Prezidenti İlham Əliyev qardaş ölkənin dövlət başçısı Rəcəb Tayyib Ərdoğana zəng edərək Türkiyənin mobillik sahəsində xidmət göstərən qlobal texnologiya markası TOGG-un kütləvi istehsala başlanılması münasibətilə təbriklərini çatdırmış və bunu Türkiyə sənayesinin yeni uğuru kimi dəyərləndirmişdir. Həmin telefon danışığından sonra Türkiyə mətbuatı Prezident Rəcəb Tayyib Ərdoğana istinadən Azərbaycan Prezidenti İlham Əliyevin 2 ədəd TOGG elektromobili sifariş verdiyi haqqında məlumat yaymışdır.

Müəssisənin rəsmi açılış mərasimi zamanı ASK-nin Prezidenti Məmməd Musayev Türk Ticarət və Sənaye Palatasının sədri, Türkiyə Palatalar və Birjalar Birliyinin (TOBB) prezidenti M.Rifat Hisarcıqlıoğlu, işgüzar dairələrin nümayəndələri və digər rəsmi şəxslərlə qarşılıqlı faydalı görüşlər keçirmişdir. Görüşlərdə birgə fəaliyyət perspektivləri müzakirə olunmuşdur.

*"Azərbaycan"*


# Lənkəran Dövlət Universiteti açıq tender elan edir

Tender 1 LOT üzrə keçirilir: Maşın və avadanlıqların alınması

Tender iştirakçıları **https://www.etender.gov.az** dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olmaqla tender haqqında ətraflı məlumatı əldə edə bilərlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar. İxtisas uyğunluğunun müəyyənləşdirilməsində analoji işlərdə təcrübə, maliyyə vəziyyəti, müqavilənin vaxtında yerinə yetirilməsi üçün zəruri potensial meyarlara üstünlük veriləcəkdir.

İştirak haqqının ödənilməsi yalnız "ASAN ödəniş" vasitəsilə həyata keçirilə bilər. Portal üzərindən müsabiqəyə daxil olduqdan sonra "ASAN ödəniş et" düyməsini sıxaraq aidiyyəti keçid vasitəsilə ödənişi etdikdən sonra müsabiqədə iştirak etmək olar.

**İştirak haqqı - 150.00 (bir yüz əlli) AZN**

İştirak haqqı heç bir halda geri qaytarılmır.

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

1. İddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri (sənədin əsli skan edilməli və PDF formatında yerləşdirilməlidir. Əgər sənəd elektron formada alınıbsa, notarial təsdiq edilməsi mütləqdir).
2. Tender təklifi (təkliflərin açıldığı tarixdən sonra ən azı 45 bank günü qüvvədə olmalıdır).
3. Tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (tender təklifinin təminatının qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır).
4. Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərinin, habelə son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergi ödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması (arayış 2022-ci ilin noyabr ayı ərzində verilmiş olmalıdır və malgöndərənin öz öhdəliklərini yerinə yetirmək üçün potensial imkana malik olmasını təsdiq etməlidir, həmçinin arayışı verən orqan tərəfindən və ya notarial qaydada təsdiq olunmalıdır).
5. İddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti (2021-ci il üzrə).
6. İddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı (sənədin əsli skan edilməli və PDF formatında yerləşdirilməlidir. Əgər sənəd elektron formada alınıbsa, notarial təsdiq edilməsi mütləqdir). Bank arayışı 2022-ci ilin noyabr ayı ərzində verilmiş olmalıdır.
7. Satınalma müqaviləsinin icrasını təmin etmək üçün müvafiq sahədə peşəkarlığının, təcrübəsinin, texniki imkanlarının, işçi qüvvəsinin, idarəetmə səriştəsinin, etibarlılığının olması (iddiaçılar tərəfindən müvafiq sahədə peşəkarlığını, təcrübəsini və ixtisaslı kadr imkanlarının mövcudluğu barədə təsdiqedici sənədlər təqdim edilməlidir (büdcə və ya fərdi sahibkarlarla müqavilələrin surətləri, layihənin həyata keçirilməsində iştirak edəcək işçilərin CV və mövcud sertifikatlar).
8. Satınalma müqaviləsini bağlamaq səlahiyyətinin olması. Malgöndərənin (podratçının) kommersiya qurumunun dövlət reyestrindən çıxarışın və vergi uçotunda olduğunu təsdiq edən sənədin surəti (sənədin notarial qaydada təsdiq edilməsi mütləqdir).
9. Mikro, kiçik və orta sahibkarlıq meyarlarına uyğun olması barədə məlumat (Dövlət Statistika Komitəsindən alınmalıdır. Sənədin əsli skan edilməli və PDF formatında yerləşdirilməlidir. Əgər sənəd elektron formada alınıbsa notarial təsdiq edilməsi mütləqdir).
10. Öz əmlakından sərbəst və məhdudiyyətsiz istifadə etmək imkanı, habelə ödəmə qabiliyyəti olması. Malgöndərən (podratçı) uçotda olduğu vergi orqanından alır. (Əgər sənəd elektron formada alınıbsa, notarial qaydada təsdiq edilməsi mütləqdir). Arayış 2022-ci ilin noyabr ayı ərzində verilmiş olmalıdır.
11. Müflis elan olunmaması, əmlakı üzərinə həbs qoyulmaması, ödənişə yönəlmiş girovun olmaması, məhkəmənin qərarı ilə kommersiya fəaliyyəti dayandırılmış şəxs olmaması; Malgöndərən (podratçı) uçotda olduğu vergi orqanından alır. (Əgər sənəd elektron formada alınıbsa, notarial qaydada təsdiq edilməsi mütləqdir). Arayış 2022-ci ilin noyabr ayı ərzində verilmiş olmalıdır.
12. Satınalma prosedurlarının başlanmasından əvvəlki 5 il ərzində özlərinin, habelə işlərini idarə edənlərin, qulluqçularının peşəkar fəaliyyətləri, yaxud satınalma müqaviləsinin bağlanması üçün ixtisas göstəricilərini yanlış göstərmələri ilə əlaqədar cinayətə görə məhkum olunmaması, yaxud onların müvafiq peşə fəaliyyətləri ilə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsi. Məhkumluq haqqında arayış (DİN və ya "ASAN xidmət" mərkəzlərindən).
13. Müvafiq sahibkarlıq fəaliyyəti növünün həyata keçirilməsi və ya müəyyən hərəkətlərin yerinə yetirilməsi üçün müvafiq lisenziya və ya icazə.
14. Digər müvafiq sənədlər (Əsas şərtlər toplusunda müəyyən edilmiş müvafiq sənədlər).

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir. İddiaçılar tenderlə bağlı sualları Portal vasitəsilə satınalan təşkilata ünvanlaya bilərlər.

**İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) 30 noyabr 2022-ci il saat 17:00-a qədər, tender təklifi və bank təminatını isə 08 dekabr 2022-ci il saat 17:00-a qədər Portal vasitəsilə təqdim etməlidirlər.**

**İddiaçıların təklifləri 09 dekabr 2022-ci il saat 17:00-da açılacaqdır. İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsilə tanış ola bilərlər.**

**Qeyd:** Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.

***Tender komissiyası***



# UNHCR
United Nations High Commissioner for Refugees
Haut Commissariat des Nations Unies pour les réfugiés

**Layihə təkliflərinin verilməsi üçün müraciət: No. RFP/AZE/013/2022**

Birləşmiş Millətlər Təşkilatının Qaçqınlar üzrə Ali Komissarlığının Azərbaycandakı Nümayəndəliyi

➢ **AZƏRBAYCANDA QAÇQINLARA VƏ SIĞINACAQ AXTARAN ŞƏXSLƏRƏ İKİNCİ SƏVİYYƏLİ TİBB XİDMƏTLƏRİ**

fəaliyyətinin həyata keçirilməsi üçün layihə təkliflərini qəbul edir.

- Tender ölkədaxilidir.
- Ətraflı məlumatı **http://www.azerweb.com** və ya **https://azerbaijan.un.org/en/205794-rfp-secondary-healthcare-services-refugees-and-asylum-seekers-azerbaijan** internet səhifəsindən əldə edə bilərsiniz.
- Sualların qəbulu üçün son tarix 10 noyabr 2022-ci il Bakı vaxtı ilə saat 23:59-dur.
- **27 noyabr 2022-ci il Bakı vaxtı ilə saat 23:59-a** qədər daxil olan təkliflər etibarlı sayılacaq.



# UNHCR
United Nations High Commissioner for Refugees
Haut Commissariat des Nations Unies pour les réfugiés

**Request for Project Proposal: No. RFP/AZE/013/2022**

The Office of the United Nations High Commissioner for Refugees in Baku, Azerbaijan invites you to submit project proposals on:

➢ **SECONDARY HEALTHCARE SERVICES FOR REFUGEES AND ASYLUM SEEKERS IN AZERBAIJAN:**

- The tender is open at a country level.
- For details, please visit **http://www.azerweb.com** or **https://azerbaijan.un.org/en/205794-rfp-secondary-healthcare-services-refugees-and-asylum-seekers-azerbaijan** website.
- The deadline for receipt of questions is 23:59 hrs. BAKU time on 10 November 2022.
- Offers should be submitted by **27 November 2022 at 23:59** hours Baku time.



# BİLDİRİŞ

"Azərenerji" ASC tərəfindən Müxtəlif növ kabel, naqil, tros və optik trosların satın alınması məqsədilə 16 sentyabr 2022-ci il tarixdə elan edilmiş açıq tenderdə qiymət təklifi vermiş iddiaçıların sayı üçdən az olduğu üçün "Dövlət satınalmaları haqqında" Qanunun 11.1. maddəsinə əsasən tenderin davamından imtina edir.

***Tender komissiyası***



**«AZƏRBAYCAN» qəzetinin reklam xidməti**








# ALLAH RƏHMƏT ELƏSİN!

Baba Rzayev ailəsi ilə birlikdə
**FAZİL MƏMMƏDOVUN**
vəfatından kədərləndiyini bildirir, mərhumun ailəsinə və qohumlarına dərin hüznlə başsağlığı verir.

Azərbaycan Güləş Federasiyasının kollektivi AGF-nin sabiq prezidenti
**FAZİL MƏMMƏDOVUN**
vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin hakimi İsa Nəcəfov sabiq vergilər naziri
**FAZİL ƏSƏD OĞLU MƏMMƏDOVUN**
vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

Aydın Əliyev sabiq vergilər naziri
**FAZİL MƏMMƏDOVUN**
vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.


**BAŞ REDAKTOR**
**Bəxtiyar SADIQOV**

**Ünvan**



*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə*
*e-mail:*
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

**Telefonlar**

| | |
|---|---|
| Qəbul otağı - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 539-72-39, | Humanitar siyasət şöbəsi - 538-56-60 |
| Məsul katib - 539-43-23, | İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri - 539-44-91, | Fotoillüstrasiya şöbəsi - 538-84-73, |
| Parlament və siyasət şöbəsi - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi - 538-20-87, |
| İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55, | Mühasibatlıq - 539-59-33 |

**Qeydiyyat nömrəsi 1**

**"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-də çap edilmişdir**

**Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir**

**Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır**

***Gündəlik qəzet***

**Tiraj 6510**
**Sifariş 3128**
**Qiyməti 40 qəpik**